

# KAMAN ƏFSANƏSİ



# Kaman

# əfsanəsi



- acı-şirin xatirələr
- əhvalatlar
- düşüncələr

«Aspoliqraf»
BAKI–2012

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**Məsləhətçi və ön sözün müəllifi:** Xalq yazıçısı Elçin

**Kitabı tərtib edənlər:** Şərif Ağayar və Elbəy Əli
**Redaktoru:** Əkrəm Qaflanoğlu
**Nəşriyyat redaktoru:** Mustafa Çəmənli

K21 **Kaman əfsanəsi.** Bakı, «Aspoliqraf», 2012, 160 səh.

Xalq artisti Habil Əliyev haqqında çoxlu kitablar nəşr olunub. Bu kitabda ilk dəfə olaraq böyük sənətkarın özü tərəfindən qələmə alınan xatirələr və əhvalatlar toplanıb. Kitabla tanışlıqdan sonra Habil Əliyevin daxili dünyasında həm də maraqlı bir yazar olduğunu aşkar edəcəksiniz. Onun incə müşahidələri və şahidi olduğu hadisələrin əsas qayəsini görmək bacarığı oxucuda maraq doğurur. Bir daha təsdiq edirsən ki, böyük istedad sahibləri hansı sənətlə məşğul olurlar olsunlar, öz böyüklüklərini nümayiş etdirməyi bacarırlar.

Azərbaycanın Xalq yazıçısı Elçinin ön sözü ilə başlanan kitabda tanınmış siyasət, elm və mədəniyyət xadimlərinin Habil Əliyev barədə söylədiyi fikirlər və ömrün müxtəlif tarixi məqamlarını əks etdirən fotolar da yer alıb.

K $\frac{4702060204}{053}$ 2012

© «Aspoliqraf», 2012

## HABİL UCALIĞI

Vaxtilə mən Habil Kamanın ifasına qulaq asdıqdan sonra emosional bir təəssürat altında yazmışdım:

*«Habil Kaman kamançanı dizinin üstünə alıb, çalmağa başlayır və bir azdan gözlərini yumur, çaldığı musiqinin hisslər aləminə gedir, o aləmin rəngləri, həyəcanları, görümləri ilə yaşayır.*

*Hər dəfə səhnədə, yaxud televiziya ekranında Habilə baxdıqca, onun musiqisinə qulaq asdıqca, elə bil o dəm onun qapalı gözlərinin qarşısından keçənləri mən də görürəm.*

*Habilin kamançası səslənir, dünyaya insanlar gəlir, yaşayır, sevir, sevilir, xoşbəxt olur, dərd çəkir və bir gün gəldiyi kimi, bir gün də köçüb gedir...*

*Və dünyaya yeni insanlar gəlir...*

*Habilin kamançası insanın, ömrün müvəqqətiliyindən, insanlığın, yaşayışın isə əbədiliyindən deyir...*

*Habilin kamanı Azərbaycandan deyir...*

*Qoca və müdrik Dədə Qorqudu görürəm, cavan, təmiz, çılğın Kərəmi görürəm, gözəl, ismətli, qeyrətli Nigarı görürəm...*

*Habilin kamançası səslənir, Koroğlu Qıratın belinə qalxır, Şah İsmayıl qanlı döyüşlərdən sonra öz zərif, həzin insani hisslərini ağ vərəqə köçürür, Füzuli düşünür, Leyli çəməndə gül-çiçək dərir...*

*Habilin kamançası səslənir, Araz çayı axır və o çayın şırıltısı Habilin kamançasının dili ilə dünyanın dərdindən, ələmindən deyir, Dərviş Mahmud sazı sinəsinə sıxır və mən onun yüz il bundan əvvəl söylədiyi misraları eşidirəm:*

*Bu dünyanın çox olubdur cəfası,*
*Cəfasına dəyməz zövqi-səfası.*

*Guşumda səslənir getmək sədası,*
*Ürəyim həsrətlə dolub, ağlaram...*

*Habilin kamançası səslənir, mən Qarabağı görürəm, Şirvanı, Naxçıvanı, Mili, Muğanı, Lənkəranı, Abşeronu görürəm, ömrümdə heç vaxt getmədiyim, görmədiyim Təbrizi görürəm, Ərdəbili görürəm, Sərabı görürəm, Ərk qalasının önündə dayanıb babaların ucalığına, mərdliyinə, igidliyinə baxıram...*

*Habilin kamançası səslənir, Habilin qapalı gözlərinin qarşısından keçənləri mən də görürəm, o musiqiyə qulaq asa-asa həmin kamançanı da yaddan çıxarıram, mən oluram, o musiqi olur, mənim xalqım və mənim vətənim olur...*

*Bu, kamançanın da, Habilin də böyüklüyüdür».*

İndi 2012-ci ildir və bu emosional sətirlərin yazıldığı vaxtdan – 1986-cı ildən düz 26 il keçib.

Bu 26 ildə həmin illərin çərçivəsinə sığmayacaq dünya miqyaslı böyük hadisələr baş verib, ancaq Habil sənəti eyni təsir gücünə malikdir, eyni dərəcədə dinləyicinin ürəyinə sirayət edir.

Əlbəttə, Habil sənəti – ən yüksək bədii-estetik meyarlarla ölçülən və qiymətləndirilən sənətdir.

Düşündürən sənətdir.

Həyatın özü kimidir – sevindirməyə də, kədərləndirməyə də qadir sənətdir.

Habil sənəti – Azərbaycan mədəniyyətinin milli faktorudur və buna görə də bu gün onun kamançasının sədaları yalnız Qarabağın gözəl ab-havasından danışmır, yalnız Qarabağ yarasının giziltisini çatdırmır, onun Qarabağ harayı (zərif kamança harayı!) bu gün döyüşə səsləyir, cəsurluğa, qəhrəmanlığa, igidliyə çağırır.

Habil istedadı xalqın istedadının, Habil kamançasının səsi xalqın səsinin üzvi bir hissəsi olduğu üçün belədir.

Və buna görə də Habil sənəti həmişə yaşayacaq sənətdir.

**Elçin**
*5 mart 2012, Bakı*

## UŞAQLIĞIM VƏ GƏNCLİYİM

Anadan olduğum vaxt nəinki insanlar, hətta həyat, zaman özü də pis gündə idi. Təzə ayaq tutub yeridiyim, dil açdığım vaxtlar anamın gözlərini yaşsız görmədim. Onun böyük dərdini 5–6 yaşım olanda bildim. Ailəmizin başına gələnləri başqalarına danışanda eşitdim ki, atamı «kulak» ediblər. Səbəbi də bir camışımız ola-ola, anamın dolanışıq üçün evdən nələrisə satıb ikincisini alması imiş.

Bax beləcə «kulak» olan yazıq atam həbsxanada 9 ay birtəhər dözsə də, sonradan ağır xəstəliyə tutulur. Görürlər öləcək, tez evimizə xəbər göndərirlər ki, əriniz buraxılıb, gəlin aparın. Əmim oğlu ilə anam gedib onu gətirirlər. Atam evə gətiriləndə elə vəziyyətdə imiş ki, bilmək olmurmuş ölüdü, ya diri.

Təqribən həmin illərdə Ağdaşda musiqi məktəbi açılır. Anamın dayısı oğlu Bilal Muradov məktəbin müdiri təyin olunur.

Eyni vaxtda rəhmətlik Əhməd Ağdamski tar müəllimi kimi Ağdaşa göndərilir. Məktəbin müdiri Bilal müəllim gəlib anamdan xahiş edir ki, otağımızın birini verək Əhməd müəllim müvəqqəti orda yaşasın. Anam razı olur. Yaxşı yadımdadır, Əhməd müəllimin bizim evə köçməyi... Xanımı Rəhilə xala, qızı Cəmilə və oğlu Məmməd iki ilə qədər bizim evdə yaşadılar. Sonradan daha iki uşaqları oldu: bir oğlan, bir qız.

Qızın adı yadımdan çıxıb, amma oğlu Telmanla hələ də dostluq edirik. Pedaqoji Universitetin professorudur.

Hər axşam yerli musiqiçilər Əhməd müəllimin başına toplaşar, çalıb-oxuyardılar. Məndə musiqiyə həvəs də elə o vaxtdan yarandı. Heç yadımdan çıxmaz, 6 yaşım var idi, hey ağlayıb anama yalvarırdım ki, mən də tar çalmaq istəyirəm. Bunu görən Əhməd müəllim anamdan nə üçün ağladığımı soruşur. Səbəbini öyrəndikdə isə deyir ki, çox kiçikdir, qoy bir il keçsin, baxarıq. Yenə də kirimədiyimi görən anam səhər məni aparır məktəbə. Müdir Bilalla Əhməd müəllim məsləhətləşib, başlayırlar məni yoxlamağa. Pianoda hansı səsi tuturlarsa, görürlər,

mən də həmin səsi öz səsimlə təmiz tuturam. Bu minvalla, məktəbə kamança üzrə qəbul olunuram.

■

Kamança əlimdən düşmürdü, əla çalırdım. Günlərin birində rayon mərkəzində böyük yığıncaq keçirilirdi, hətta Ağdaş rayon Partiya Komitəsinin 1-ci katibi də tədbirdə iştirak edirdi. Yığıncaqdan sonra konsertdə mən də solo çalmalı idim. Bədii hissə başlandı, proqrama uyğun ifalar səsləndi. Nəhayət, mənim adımı elan etdilər. Çıxdım səhnəyə, özümü itirdim, başladım ağlamağa. Məni stola oturtdular, heç ayağım yerə çatmırdı. Amma indi ayaqlarımı ha yığıram, xeyri yoxdu, görürəm, nəinki yerə çatır, hələ bir az da artıq qalır...

Xatirimə gəlir, 1941-ci ildə Böyük Vətən müharibəsi başladı, ölkəyə qaranlıq çökdü. Aclıq, bahalıq dünyanı bürüdü. Palçığa oxşayan qara çörəyin 1 kiloqramı 100 manata satılırdı. Qonşuların çoxu ailəlikcə acından ölürdü. Mənim də atam öldü. Böyük qardaşım isə əsgərliyə getdi. Beləcə, özümdən kiçik dörd bacı-qardaşım və anam qaldı mənim öhdəmdə.

Həmin illərdə Ağdaşda N.B.Vəzirov adına Dram Teatrı var idi. Məni ora musiqiçi kimi işə götürdülər. Aylıq məvacibim 300 manat idi. Axşamlar işə gedir, gündüzlər eyvanda oturub kamança çalırdım. Birdən qonşuda ağı səsi qopdu. Qaçdım ora ki, görüm nə olub. Nə olacaq, qoca bir qarının yeganə oğlundan qara kağız gəlib. Elə təzə qayıtmışdım ki, o biri qonşuda vay-şivən başladı. Nə olub? Bu gəlinin də həyat yoldaşından qara kağız gəlib. Qonşularda vay-şivən səsi heç ara vermirdi. O səslər hələ də qulağımdadı. İndi də çalanda həmin səslər çalğıma qarışır.

■

Günlərin birində evə soğan almaq üçün kolxoz bazarına getmişdim. Bazarın yanındakı kiçik bir yeməkxanadan musiqi səsi gəlirdi. Gördüm, qoca bir kişi tar çalır, elə mən yaşda bir oğlan da oxuyur. Tarzən yaxşı çala bilmirdi, amma oğlanın gözəl səsi – əsl Qarabağ səsi vardı. Tarçalan Gülablı Həmid kişi, oxuyan isə Yaqub Məmmədov idi. Yaqubu o vaxtlar heç kim tanımırdı, çox cavan idi. Yeməkxananın müdiri məni görüb: – Habil, gəl içəri, bunların kamançaçalanı yoxdur. Kamançanı gətir bunlarla çal, – dedi. Həm teatrda, həm də pionerlər evin -

də işlədiyim üçün dedim, vaxtım yoxdur. Musiqiçilər də çox üz vurdular.

Arada Yaqubla çölə çıxıb söhbətləşdik, Həmid kişini yola saldıq, getdi. Gəldik bizim evə. Yaqub mənə qulaq asıb dedi ki, heç tarçalan lazım deyil. Qohum-qonşu hamı bizə qulaq asmağa gəlir və çox bəyənirdilər. Yaqub bunu görüb dedi, gedək həmin yeməkxanada çıxış edib pul qazanaq. Mən orada çalmağa utanırdım, ona görə işdən çıxdım, getdik Göyçaya. Göyçay səfəri çox uğurlu oldu. Ümumiyyətlə, göyçaylılar xalq musiqisini çox sevirlər, həm də başa düşürlər. Sağ olsunlar, bir az özümüzə gəldik, yəni pullandıq.

İyul ayında bərk istilər başladı və bizə məsləhət gördülər ki, İsmayıllının Basqal kəndinə gedək. Çünki ora çox sərindir. Getdik Basqala. Nə yaxşı oldu ki, getdik. Basqalın mərkəzində böyük bir çinar ağacı və o ağacın kölgəsində bir yeməkxana var idi. Oranın müdiri bizi görüb soruşdu ki, siz çalıb-oxuyursunuz? Gəlin burda oxuyun, gündə hərənizə bir piti verim. Biz razı olduq, işə başladıq. O qədər adam gəlirdi ki, oturmağa yer tapılmırdı.

Nəhayət, qanlı-qadalı, vay-şivənli müharibə bitdi. Əsgərlikdən qayıdanlar çox idi, hər gün bir evdə şadlıq olurdu. Bizi də aparırdılar ora, çalıb-oxuyurduq, əvəzində «hörmət» edirdilər. Qulağımız eşidə-eşidə deyirdilər ki, Basqala iki qaraçı uşağı gəlib, elə yaxşı çalıb-oxuyurlar ki, adam valeh olur. Yaqubla məni qaraçı bilirdilər.

Havalar sərinlədi, qayıdıb gəldik Ağdaşa. Anam həyəcanla bizi qarşıladı. Ay bala, hardasız, o qədər sizi axtaran var, toyları var deyə. Bəli, əsl sənətkar kimi işə başladıq. Bu minvalla, Yaqub 3 il bizim evdə qaldı, toylara getdik.

■

Böyük qardaşım Qabili Ağdaş musiqi məktəbində tar sinfinə, məni isə kamança sinfinə qəbul etdilər. Müəllimlərimiz tapşırdı ki, kitab dükanında tar və kamança üçün not kitabları var, siz də alın, gələcəkdə lazım olacaq. Atam alıb gətirdi. Dərsə gedən gün kitabları da apardıq müəllimə göstərdik. Müəllim baxıb tapşırdı ki, qoyun dursun evdə, gələcəkdə lazım olacaq. Müəllimlər not vərəqinə «do major» qammasını yazıb verdilər ki, bunu evdə çoxlu çalıb öyrənək.

Bəli, axşam oldu, atam işdən gəldi, anam ilə əyləşib dedilər, gəlin görək bu gün məktəbdə nə öyrənmisiniz. Mən not kağızını götürüb gəldim. Notu qar-

şıma qoyub birtəhər çalmağa başladım. Qabil də not kitabını gətirdi. Atam-anam Qabili çox istəyirdilər. Nə isə, mən birtəhər müəllim yazdığı not vərəqini çalıb qurtardım. Amma Qabil not kitabını açıb, ən çətin yerini qoydu qarşısına, cumdu tara. Vurduğu mizrabın biri dəyirdi, beşi yox. Əgər orada not bilən adam olsaydı, onu döyərdi ki, sən neyləyirsən. Mən bu yalanı görüb başladım ağlamağa. Atam başıma bir qapaz vurub dedi, yaramazın biri, ağlamaqdansa, sən də belə çalmağı öyrən. Qorxumdan deyə bilmədim ki, o, yalandan çalır. Atam əsəbi halda, dur rədd ol burdan, səndən oğul olmaz, – dedi. Heç notdan xəbəri olmayan atam-anam məni təhqir edib, yanlarından qovdular. Amma bir iş yaxşı olub ki, haqsızlığa dözməyi o vaxtdan öyrənmişəm.

■

Böyük qardaşım Qabil Ucar rayonunda işə düzəlmişdi. Məvacibi çox az idi. Rayonda anamın yanında qalan kiçik bacı-qardaşım da çox çətinlik çəkirdilər. Bir gün qohumlar gördülər ki, nə Qabil var, nə də mən. Ona görə hərə imkanı daxilində köməklik edir ki, anamgil acından ölməsin. Kiçik bacım Bəsirə deyir, ay ana, qardaşlarım yoxdurlar, nə yaxşı dolanırıq?!

O vaxtdan mənə aydın oldu ki, əgər insan çətinliklərə dözə bilsə, axırı yaxşı olur.

■

Qapımızda iki camış, at faytonu və bir az da əkin üçün torpağımız var idi. Atam ağıllı adam idi. Həmin torpağı əkər-biçər, bizi dolandırardı. Bibimin əri Əbdürrəhim isə araq düşkünü idi. Özü də kommunist! Həmin Əbdürrəhim gedir NKVD-nin yanına ki, mən bir kommunist kimi çox narahatam, mənim qaynım «kulak»dır. Onu tutmaq lazımdır.

Gəldilər, nə varsa yığıb apardılar. Çox pis günə qaldıq. Dediyim kimi atamı da tutdular. Dayım həbsxanaya atamı görməyə gedəndə atam ona yalvarır ki, gör öyrənə bilərsənmi, məni nə üçün tutublar? O vaxtlar insaflı məmurlar da var idi. NKVD-nin köməkçisi dayıma deyir ki, Mustafa kişinin yeznəsi Əbdürrəhim ərizə verib, onu tutdurub.

Atam 9 ay yatandan sonra bərk xəstələnir, odur ki, onu, öləcək deyə, buraxırlar.

Sonralar Əbdürrəhim ciyər xəstəliyi tutdu, həmişə öskürə-öskürə gəzirdi. Atam buraxılıb gələndə Əbdürrəhim də gözaydınlığı verməyə gəlir. Atam

tapşırır ki, ona hörmət edin, yaxşı yola salın, çünki atalar deyib, düşmən səni daşla, sən düşməni aşla!

■

Müharibənin çox ağır günləri idi. İnsanlar yavan çörəyə həsrət qalmışdı. Hələ gün batmamışdan adamlar sabah səhər çörək almaq üçün növbəyə dururdular. Hamıya çörək talonu vermişdilər. Hər adama 300 qram norma idi. Çörək satılmağa başlayanda növbə dağılırdı. Kim güclüdürsə, adamların başından basaraq dükana girə bilirdi. Odur ki, azyaşlılar və qocalar çörək ala bilmirdilər və çörək qurtarırdı. Qocalar və uşaqlar ağlaya-ağlaya geri qayıdırdılar. Bizim qonşuda acından ölənlər çox idi. Səhər işə gedəndə görürdüm, yolun kənarında neçə-neçə ölü var. İnsanlar beləcə Stalin uğrunda və Vətən uğrunda acından ölürdülər. Artıq namus sözü yaddan çıxırdı, çünki ölənlərin əksəriyyəti namuslular idi.

Türk şairi Faruk Nafis sanki o dövrü nəzərdə tutaraq bu misraları qələmə alıb:

*Dindirmə beni, dərdim böyükdür,*
*Onsuz da qəlbim çoxdan sönükdür.*
*Könül bağımda bayquşlar ötər,*
*Bu həyat, bu ömür ölümdən betər.*

Müharibədən sonrakı dövrü də yaxşı xatırlayıram. Çörək yavaş-yavaş bollaşırdı, çünki elə bişirirdilər ki, yemək olmurdu.

■

Alman-rus müharibəsinin ağır günləri idi. Kişilər müharibədə idi, qocalar, qadınlar və uşaqlar isə arxa cəbhədə acından ölürdülər.

Ramazan bayramı gəlib çatmışdı. Anam evdən bir xalça aparıb 10 kilo buğda ununa dəyişdi ki, bayrama bir şey bişirsin. Mənim artıq 16 yaşım var idi. Pionerlər evində musiqi müəllimi işləyirdim. Yaz günləri idi. Mən çox çətinliklə özümə bir şalvar, göy sətindən bir «dejurka» almışdım. Birinci gün idi ki, geyib işə gedirdim. Küçəmizdən geniş arx axırdı. Yaz olduğundan sular qatı palçıq kimi və güclü gəlirdi. Küçənin o biri tayında olan qonşumuz Fatmaxanım arvadın Ələkbər adlı oğlu əsgərlikdə ölmüşdü. Arvadı Həyət dördyaşlı oğlu ilə Fatmaxanım arvadla birlikdə yaşayırdı. Mən həyət qapımızdan çıxıb körpüdən keçdim ki, işə gedim, gördüm, Həyətin dörd yaşındakı oğlu Bayram və bunun

yanında elə Bayramın özü boyda bir qız uşağı arxın kənarında durublar. Həmin qız uşağı qəflətən Bayramı itələyib arxa saldı və qaçdı. Gördüm, lilli suda Bayram boğulur. Qaça-qaça özümü çatdırıb atıldım arxa, uşağı tutub çıxartdım yola. Hayət təngnəfəs gəldi. Sən demə, uşaq qaçıb anası Hayətə deyib ki, Bayram yıxıldı arxa. Hayət Bayramı apardı, mən də qayıdıb gəldim evə. O zaman hökumət yeni qanun vermişdi ki, kim 20 dəqiqədən artıq işə gecikse, onun işinə məhkəmədə baxır, hətta 3–6 ay və ya 1 ilə qədər həbsxanaya salırlar. Həyətimizə girəndə gördüm, anam ağı deyib ağlayır. Üst-başımı görüb soruşdu ki, bu nədir, nə olub sənə? Mən də ağlaya-ağlaya əhvalatı danışdım və dedim ki, ay ana, bəs sən niyə ağlayırsan? Ay bala, – dedi, birtəhər düzəldib bir kəsim şor yapdım ki, gözünüz qonşularda qalmasın, o da töküldü təndirə. Anam birtəhər sakitləşdi. Amma mən dayanmıram ki, işə gedə bilmədim, məni tutacaqlar. Anam dedi, ay bala, qorxma, arxa yıxılmağa görə adamı tutmazlar.

Pionerlər evinin müdiri rəhmətlik Mikayıl müəllim çox yaxşı adam idi. O, mənim gecikməyimi hökumətə xəbər vermədi və məni tutmadılar.

■

Pioner evinin yanında bir neçə həyət evi var idi. Sabahı gün gəldim işə, gördüm ki, pioner evinin küçəsi ilə getmək mümkün deyil, çox pis üfunət iyi gəlir. Hamı əli ilə burnunu tutub gedir, heç pioner evində də oturmaq mümkün deyil. İsti artdıqca üfunət lap çoxalırdı. Nə isə, qonşular başlayırlar evləri yoxlamağa. Görürlər ki, bir qapıdan qıfıl asılıb, ən çox üfunət də buradan gəlir. Hökumətə xəbər verdilər. Qapını sındırıb içəri girəndə görürlər ki, əsgərlikdə olan bir oğlanın arvadını, 8 yaşında qızını və 6 yaşında oğlunu öldürüblər, yorğanlarını da çəkiblər üstlərinə. Allah-Allah, uşaqların atası gedib bunları qorumağa, bunlar isə gör nə ediblər. Bir neçə gündən sonra caniləri tutdular. Onların başçısı, evlər müdiri Məhəmməd adlı bir adammış. Başqa iki nəfər də tapıb bu işi görüblər. O iki nəfərdən xəbərim yoxdur, amma «domkom» Məhəmməd bu yaxınlara qədər Ağdaşda yaşayırdı. Sən demə, məhkəmə «domkom» Məhəmmədin cərimə batalyonuna getməsi qərarını verib, o da gedib orada yaralanıb, gəlib evinə. Bu barədə bir az da siz fikirləşin.



«Hər adam mühəndis də, həkim də, müəllim də, tacir də ola bilər, amma tar, kamança çala bilməz. Hər adam kamança çala bilər, ancaq sənin kimi çala bilməz. Ona görə də sən bu sənəti seçməyinlə fəxr edə bilərsən. Biz də sənin kimi kamançaçalan Habillə fəxr edirik».

**Heydər ƏLİYEV,**
*Azərbaycan xalqının Ümummilli lideri*



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ustad ifaçı, Azərbaycanın Xalq artisti Habil Əliyevə Vətənin ən yüksək mükafatını – «İstiqlal» ordenini təqdim edərkən*



*Prezident İlham Əliyev ustad sənətkar Habil Əliyevi qəbul edərkən*



*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva musiqi sənətinin inkişafındakı misilsiz xidmətlərinə görə Xalq artisti Habil Əliyevə xoş duyğularını bildirir.*

## YADDAŞIMDA QALANLAR

Yoldaşımın əmisi uzun illər prokuror işləmişdi və yaşa dolandan sonra vəkillik edirdi. Onun hüzrü idi, Ağdaşa getmişdik. Hüzr yerində, bir də gördüm, tələbə yoldaşlarım həkim Fikrət, həkim Sabir və başqaları gəldi. Bunlarla görüşdüm, əyləşdilər. Fikrət dedi, Habil, yeri olmasa da, səni təbrik edirik. Təəccübləndim. Onlar duydular ki, məlumatsızam. Əlindəki qəzeti mənə uzatdı, – al oxu, sənə Əməkdar artist fəxri adı veriblər. Sevincimdən ağladım. Qohumlar başıma yığışdılar. Nurani anam dedi ki, ay oğul, özünü ələ al, Allah rəhmət eləsin. Mən danışmadım. Amma Fikrətgili gülmək tutmuşdu, xəlvəti gülürdülər.

Onu deyim ki, mənə bütün rayonlardan o qədər teleqramlar gəlmişdi, təəccüb qalmışdım.

■

Əbülfət Əliyevlə Filarmoniyada bir yerdə işləyirdik. Əbülfət yaxşı sənətkarlığından əlavə, yaxşı da dost idi. Hər şeyi çox düzgün analiz edir və baməzəliyi də çox sevirdi. Onunla görüşən dəqiqədən zarafat, gülüş başlayırdı. Nizami kinoteatrı ilə üzbəüz binada yaşayırdı. Bir gün eşitdim anası vəfat edib. Getdim onlara köməyə. Hər işi öz yoluna qoyduq. Bütün yoldaşlar gəldilər. Filarmoniyanın avtobusuna əyləşdik, mərhumu apardıq qəbiristanlığa. Dəfn edib qayıdanda bizim avtobus bir ölü aparan maşının qabağına düşdü. Dedim, Əbülfət, nə ola xanımın balkona çıxmaya. Soruşdu, niyə? Dedim bu ölü aparan maşını görüb, elə biləcək qayınanasını geri qaytarıb gətiririk, dəli olacaq!

O hüzrü də gülə-gülə yola verdik.

■

Bütün dövlət tədbirlərində olan konsertlərdə çıxış edərdim. Aradabir incimişdim deyə, dəvətləri qəbul etmirdim. Yenə bir gün mənə zəng etdilər ki, sabah dövlət konsertində

çalacaqsan. Etiraz etdim. Dedilər, səni şəxsən Heydər Əliyevin göstərişi ilə salmışıq proqrama. Gedib çıxış etdim. Konsert qurtaranda Heydər Əliyev səhnə arxasına iştirakçıları təbrikə gəldi. Məni görən kimi, Habil, bura gəl görüm, hardasan, niyə görünmürsən? – dedi. Qanı qaralmasın deyə, şikayət etmədim, dedim, Heydər Əliyeviç, artıq qocalmışam.

Əsəbi halda, xeyr əşi, sən qocalmışam deyirsənsə, bəs bu neyləsin – deyə Arif Babayevi göstərdi.

■

Günlərin birində Filarmoniyada qarderobun qabağında dayanıb söhbət edirdik. Birdən Qurban əmi mənə baxıb dedi ki, Habil, ay oğul, sənə bir tövsiyəm var. Dedim, buyur, Qurban əmi. Dedi, əgər işdir, sənə kənardan bir adam daş atsa, əlini başının qabağına yox, başını əlinin qabağına tutarsan – Nə üçün, Qurban əmi? Dedi, çünki sənin əlin başından qiymətlidir. Hələ anlamırsan ki, düz danışanın atına gərək at çatmasın, minib qaçsın.

Əfsus ki, Qurban əminin tövsiyəsinə əməl edə bilmədim.

■

Eşitdim mənim yerlim Məmməd Ziyadovu Mədəniyyət nazirinin müavini təyin ediblər, çox sevindim. Az keçməmiş bütün xarici səfərlərim dayandı. Rəhmətlik Zakir müəllimi bir yığıncaqda görüb şikayət etdim, dedi, o məsələyə Məmməd Ziyadov baxır, get onun yanına, mən də deyərəm. Bəli, getdim bunun yanına. Dedi ki, Habil, biz yerliyik, mən səni xaricə göndərsəm, bunu böyük problem edib məni işdən çıxararlar. Elə olmağını istəyərsən?

O vaxt Həsən Həsənov Mərkəzi Komitədə bu sahəyə də baxdığı üçün onunla görüşməyi qərara aldım. Komitəyə gedib aşağıdan köməkçisinə zəng etdim. Köməkçi onunla danışdıqdan sonra məndən harada olduğumu soruşdu. Aşağıda olduğumu bildikdə dedi, gəl filan qapıya, ordan da qalx yuxarı.

Həsənov məni görən kimi durdu, görüşdü, əyləşməyə yer göstərdi. Hal-əhval tutandan sonra sadəlövhlüklə soruşdu:

– Habil, xeyirdimi, nə sözün var mənə?

Dedim, utanıram, güldü:

– Niyə?

– Çünki öz yerlimdən şikayət edəcəm.

Yenə güldü və dedi ki, belə şeylər olur. Əhvalatı Həsən müəllimə danışdım. Həmin dəqiqə telefonu qaldırıb, Məmməd Ziyadova zəng etdi:

– Mamed, onu bil ki, Ağdaşlı sənsən. Habil Azərbaycanlıdır. Habilə sənin hörmətin lazım deyil, pislik etmə.

Xudahafizləşib gedəndə yenə tapşırdı ki, nə vaxt çətinliyin olsa, gələrsən yanıma.

■

Rəhmətlik Heydər Əliyev göstəriş vermişdi ki, sənət adamları gedib rayonlardan yaxşı səsi olan uşaqları seçib gətirsinlər Bakıya və onların konsertləri təşkil olunsun. İslam Rzayevlə mən də bir neçə rayonda olduq və beş nəfər də biz gətirdik.

Gələn uşaqların hamısına yenidən Filarmoniyada baxış keçirildi. Niyazi bir münsiflər heyəti yığdı. Özü, Şövkət, Sara və mən. Lidiya Rəsulova da gəlib, gedişata fikir verirdi. Narazı halda dedi ki, yoldaşlar, Mərkəzi Komitədən mənə zəng edib tapşırıblar, uşaqların lap yaxşılarından konsert üçün seçək, çünki Respublika sarayındakı konsertə Heydər Əliyev də gələcək.

Heydər Əliyev göstəriş vermişdi ki, münsiflər onun yanında otursunlar. Çünki bəzi şeylər soruşacaqdı.

Lidiya Rəsulova lap Əliyevin yanında əyləşdi, biz isə onun arxasında. Maraqlısı budur ki, iki oxuyan uşağın üstündə maestro ilə mübahisəmiz oldu. Uşaqların biri Salyan rayonundan idi, çox gözəl geyimli-kecimli, o biri isə 15 yaşlı, Habil adında uşaq idi. Habil çox sadə geyinmişdi. Konsert başladı. Növbə çatdı birinci oxuyana. Oxudu, çox zəif qarşılandı. Sonra növbə çatdı mən seçdiyim Habilə. Necə oxudusa, alqış sədaları ilə uşağı xeyli səhnədə saxladılar. O, səhnədən gedir, yenə qayıdıb baş əyirdi. Gördüm, Lidiya xanım əhvalatı Əliyevə danışır. Onu da deyim ki, maestro öz seçdiyi uşağı proqrama saldı, Habili salmadı. Mən də nəticəyə qol çəkmədim. Lidiya xanım Niyazidən xahiş etdi ki, ikisi də

proqrama salınsın. Bundan sonra Habil də daxil edildi.

Heydər Əliyev dönüb mənə baxdı və gülümsəyərək dedi:

– Bu uşağın yaxşı oxumasına adının da böyük təsiri var.

Amma bir şeyi anlamadım, Niyazi Habilin oxumağını başa düşmədi deyə proqrama salmadı, yoxsa yaxşı oxuduğu üçün?

■

Filarmoniyanın bağında öz çayxanamızda ən gözəl sənətkarlar bir stolun başında oturmuşduq. Birdən ayağa qalxıb özümdən yalan tapmaca uydurdum. Dedim, ay yoldaşlar, bir tapmaca var, mən aça bilmirəm, siz də fikirləşin, görək, cavabı tapa bilərikmi. Deməli, tapmaca belədir: Bakıdan Moskvaya bir «sostav», yəni 40 «sisterna» benzin gedir. Hər «sisterna»da 60 ton benzin var. «Sostav» gündüz saat 4-də Bakıdan çıxıb. Deyin görək, maşinistin neçə yaşı var?

Hamı fikirləşməyə başladı. Gördüm rəhmətlik Məmmədağa Muradovla Həbib Bayramov gülürlər. Soruşdum, niyə gülürsünüz, Həbib əlindəki cib dəsmalı ilə gözünün yaşını silə-silə dedi:

– Axı demədin, «sostav» yolda hansı stansiyada dayanacaq.

Qayıtdım ki, əşi, onu deyəndən sonra tapmağa nə var. Bu zaman oxuyan Əliyar Əmirov gəldi. Uşaqlar tapmacanı ona da dedilər. Əlini alnına qoyub kağız qələm istədi. Məmmədağa ilə Həbib elə gülürdülər, az qala yerə yıxılsınlar! Yoldaşlar soruşdular ki, Habil, cavabını özün tapmısan?

Dedim, bəli, amma çox çətin.

– Bizə də de, sən Allah!

– Yaxşı, qoyun bir çay içim, sonra.

Nəhayət, belə bir tapmacanın və onun cavabının olmadığını, özümdən uydurduğumu, Həbibgilin də ona görə güldüyünü dedim.

Bizim vaxtımızda sənət adamları sənətləri kimi idilər. İndikilər sənətkar kimi danışa bilirlər, amma oxuya bilmirlər.

■

Mənim ifamı kim xoşlayırsa, o adama yazığım gəlir. Çünki, deməli, o da mənim kimi düşünür. Mənim

içimdə o qədər eşidilməmiş melodik səslər var ki! Əgər o səsləri çalsam, özümün ağlamaq səslərim kamançanın səsindən bərk çıxar. Bu sənətə gəldiyim gündən bəzi məmurlar məni susdurmaq və mənə əzab verməkdən zövq alıblar. Mən də heç kimə deyə bilmirəm. Bilirəm ki, məni başa düşməyəcəklər. Mən o bir Allaha and içirəm ki, heç vaxt yalançı və qərəzli olmamışam. Amma doğru sözü də boğub saxlamamışam.

Mən ifaçılıqdan əlavə musiqiçilərin sənət səviyyəsini də çox gözəl bilirəm. Amma bu qərara gəlmişəm ki, daha heç bir şey danışmayım. Çünki bəzi adamlar məndən narazı qalırlar. Amma möhtərəm Heydər Əliyev mənə şəxsən özü demişdi ki, Habil, sənin çıxışlarına qulaq asıram, xoşuma gəlir. Hərə öz sahəsində tənqidi işləri deməlidir! Çünki, yeni dövlət qururuq, bizə tənqid də lazımdır ki, səhvlərimizi görək.

Ulu öndərimiz məni çox yaxşı tanıyırdı.

Mən ancaq öz sahəmdən, bildiyim işdən danışaram, bilmədiyim işlərdən danışmaram.

Kaş hamı belə olaydı.

■

Səhər yenicə yuxudan durmuşdum. Filarmoniyadan zəng vurdular ki, müdir Soltan Hacıbəyov səni çağırır. Getdim yanına. Dedi ki, mən, Rəşid Behbudov, bir də Hacı Məmmədov xaricə – Belçikaya gedirik. Soruşdu ki, orada səhnədə geyinməyə kostyumun varmı, dedim, bəli. Dedi, burada geydiyiniz kostyumlar yaramaz, çünki şalvarın balağı çox enlidir. Ona görə Filarmoniyanın dərzisinə yeni balağı dar şalvarla kostyum sifariş edildi. Həm Hacıya, həm də mənə. Getdik. Yeni bir dünyaya düşdük. Hər nə görürdüksə, hamısı görmədiyimiz şeylər idi. Nə isə, konserti verdik, qayıtdıq Bakıya. Həmin kostyumu geyib Filarmoniyaya gedib-gəlirdim. Yol gedəndə hamı mənə baxıb gülürdü. Hətta öz sənət yoldaşlarım hamıdan çox gülürdülər. Qardaşım və yaxın qohumlarım əsəbi halda «bu nədir, ə, utanmırsan, get paltarını dəyiş, sonra adam içinə çıx. Özünü meymun halına salmısan», – deyirdilər. Məni ağlamaq tuturdu, amma bir söz deyə bilmirdim. Hətta öz sənət yoldaşlarım soruşurdular ki, sən bu kostyumu nə

məqsədlə geyinirsən, camaatı güldürmək üçün? Acıqla mən də kostyumu dəyişmirdim.

Bir gün Qurban əmi məni görüb dedi:

– Bu, köhnə modadı. Mənim evdə beş kostyumum var, bu formada. Nə olardı yenidən bu forma dəb olaydı, mən də evdəki kostyumlarımı geyəydim.

Məsələni Soltan müəllimə danışdım, dedi, fikir vermə, yaxın vaxtda hamı belə geyinəcək.

Doğrudan da, bir qədər sonra hamı o cür geyinməyə başladı.

■

Günlərin birində evə gəldilər ki, Habil müəllim, toyumuz var, istəyirik, orada ifa edəsən. Gələn adamlar ortayaşlı, çox səliqəli bir kişi, elə kişinin özünə yaraşan yaxşı bir xanım və bunların 6 yaşlı oğlu idi. Dedim, daha toya getmirəm, çünki axır vaxtlar toylarda şuluq olur. Kişi dedi, Habil müəllim, mən raykomda işləyirəm, özü də cəmi 100 nəfər qonağım olacaq, katib özü də məclis qurtarana qədər iştirak edəcək. Kişi gördü, getmək fikrim yoxdu, dedi:

– Habil müəllim, əgər siz məsələni bilsəniz, gələcəksiniz. Mənim beş qızım var, oğlum olmurdu. Bir gün anam mətbəxdə mənə yavaşcadan dedi ki, oğul, sən yenidən evlən ki, təzə arvaddan oğlun olsun. Sən demə, xanımım söhbəti eşidirmiş. Həmin gün xanımın dili tutuldu. Hara apardım, xeyri olmadı. Amma doktor Veysov dedi ki, yaxın adamının hüzr yerinə apar, qoy ürəkdən ağlasın. Əlacı ancaq ürəkdən ağlamaqdır. Bu minvalla, xanım düz 6 ay lal oldu. Bir gün evdə televizora baxırdıq, hamı sakit oturmuşdu. Qəflətən xanımı bir ağlamaq tutdu ki, hamımız qorxduq. Həmin dəqiqədən xanım başladı ağlaya-ağlaya danışmağa. Çox sevindik. 3 aydan sonra xanım mənə dedi ki, hamilədi və bu gördüyün uşaq dünyaya gəldi. İndi belə məsləhət oldu ki, bu uşağa kiçik toy edək, səni çağıraq, ansamblınla toyu idarə edəsən. Sən də getmək istəmirsən.

Dedim, gələcəm, özü də təmənnasız!

Bəli, getdik. Balaca, amma çox gözəl məclis idi. Qonaqlar da hamısı ziyalılar idi. Məclisə girib yerimizdə

əyləşən kimi həmin xanım bir qızıl onluğu gətirib kamançanın aşağısından asdı, özü də xahiş etdi ki, toy qurtarana qədər ona dəyməyim, çünki arzusudur.

Məclisə gələn adamların hamısı əhvalatı bilirdilər deyə, mənə heyrətlə baxırdılar. Onu deyim ki, ilk dəfə idi birinci katibin şabaş verməyini görürdüm.

Allah hamını öz arzusuna çatdırsın.

■

Ağdaşda yoldaşlarımın çoxu gedib instituta qəbul oldu. Hər tətildə Ağdaşa gələndə həsrətlə onlara baxırdım ki, axı mən nə üçün Bakıya təhsil almağa gedə bilmirəm.

Bunlarla birlikdə çayxanada oturub çay içir və gözəl tələbə həyatı barədə söhbət edirdik. Bir gün orta məktəb yoldaşım mənə dedi:

– Habil, tələbə olmağı bu qədər çox istəyirsən, bəs nə üçün olmursan? Gəl gedək Bakıya, musiqi sahəsində oxuyarsan.

Bu sözlər çox yerinə düşdü, çünki istədiyim qızın əmisi vəkil Məhəmməd Bayramov belə bir söz demişdi ki, əgər gedib oxusa, qızı verərəm ona.

Avqust ayında mən də bunlarla getdim Bakıya. Fikrətə dedim, olsa-olsa Asəf Zeynallı adına Musiqi Texnikumunda oxuya bilərəm.

Texnikumun müdiri Süleyman Ələsgərov idi. Girdik onun kabinetinə, dedim, burda oxumaq istəyirəm. Bir az sorğu-sual elədi, sonra dedi ki, sabah kamançanı gətir, çal, qulaq asım, görüm nə edə bilərik.

Mən kamançanı gətirib kabinetdə Süleyman müəllim üçün çaldım. Dedi, sən oldun buranın tələbəsi. Fikrət də çöldə məni gözləyirdi. Kabinetdən çıxıb Fikrətə dedim, o da çox sevindi. Sənədlərimi verdim, başladım oxumağa.

Mənim muğam müəllimim erməni Mkırtıç, not müəllimim isə Şulan adlı bir adam idi. Məktəbə səs yayıldı ki, bir tələbə gəlib müəllimdən yaxşı çalır. Dərsim olan gün tələbələr mənə qulaq asmaq üçün dolurdular sinfə. Məktəbdə çox böyük hörmətim var idi, amma maddi vəziyyətim pis idi. Mənə kömək edəcək heç kimim yox idi. Elə həmin vaxtlarda Hacı Məm-

mədov gəlib məni Filarmoniyaya apardı. Əvvəl də dediyim kimi, məni 600 manat məvaciblə işə götürdülər. Elə ki, dərsə gəlirdim Mkırtıç deyirdi ki, ay Habil, bir şey çal, qulaq asaq.

■

Nəriman Həsənzadə çox sevdiyim şairlərdən və adamlardandır. Filarmoniyada yaradıcılıq gecəm keçirilirdi. Gecədə gözəl ziyalılar iştirak edirdi, çox sayda tamaşaçı gəlmişdi. Ziyalılardan bir neçəsi çıxış etdi. Vasim Məmmədəliyev, Bəkir Nəbiyev, Nizami Cəfərov, Rafael Hüseynov və b. Arada mən «Segah» çaldım və «Segah»ı «Apardı sellər Saranı» mahnısı ilə başladım.

Çalıb qurtarandan sonra Nəriman Həsənzadə söz aldı, başladı danışmağa. Mən səhnədə davam gətirə bilmədim, ürəyim sıxıldı. Sən demə, bu gözəl insanın nə boyda dərdi varmış. Nəriman müəllimin xanımı çox cavan yaşında rəhmətə gedib, adı da Sara imiş.

Gördüm, mən çalanda Nəriman müəllim nəsə yazır. Sonra o, söz alıb elə oradaca yazdığı şeiri oxudu. Şeirdə fikir belə idi: dərdimin üstünə dərd qoyan qardaş, Saramın mənə verdiyi dərdi çalırsan, çal, çal, ümidim sənədir, bəlkə, sən dirildəsən Saramı.

Mən bu sözləri kitaba yazanda da ağlaya-ağlaya yazdım. Çünki başa düşürəm ki, belə həssas, incəqəlbli şair dostuma kömək etmək mümkün deyil və əzab çəkirəm.

■

Mənə qarşı səhv hərəkət edən adamlar həmişə yanımda xəcalətli qalıblar. Çünki tez-tələsik pislik ediblər, sonra da görüblər ki, mən o cür adam deyiləm. Pisliklərini edirlər, əzab verirlər, sonra da görürlər ki, mən haqlıyam.

Allaha inanıram və bilirəm ki, axırda Allah onların bəlasını verəcək. Kaş insanların yaxşılığı və pisliyi sifətlərində yazılaydı.

■

Mənim elə xasiyyətlərim var ki, heç özümün də xoşuma gəlmir, amma bacara bilmirəm. Məsələn, bir nəfərə haqsızlıq olursa, elə bilirəm, bu haqsızlıq mənə olur. Hey fikirləşirəm

ki, ey haqsız, əgər sənə haqsızlıq etsələr, xoşuna gələrmi?! O barədə, əşi, nəyimə lazımdır, deyən adamların həmişə başı salamat olur. Amma elə olmağı da hər adam bacarmaz, çünki elə olmaq qana-qana qanmazlıq deməkdir.

■

15–20 il idi bizdə muğam ifaçılığı uçuruma gedirdi. Tez-tez qəzetlərdə və telekanallarda bu barədə çıxışlar edirdim. Bəziləri mənə gülürdü ki, əşi, özünü yorma, muğamdan əl çək, indən sonra muğam ola bilməz. Həmin adamlar indi efirdə elə danışırlar ki, adam xəcalət çəkir.

Mən orta nəslin xanəndələrindən yalnız Yaqub Məmmədov və Hacıbaba Hüseynova qulaq asardım, çünki onlar həqiqi xanəndə idilər. Allah rəhmət eləsin. Amma indi üç nəfər gənc oxuyanımız var ki, onların da çox böyük gələcəkləri var. Babək Niftəliyev, Ehtiram Hüseynov və Güllü bala. İndi yaxşı oxuyurlar, amma gələcəkdə bundan da yaxşı oxuyacaqlar. Allah bizim xalqımızın zövqünü düzəltsin. Musiqi zövqünü deyirəm. Amma hər barədə zövqlər düzəlsə, o zaman daha yaxşı olar.

Bu fırıldaqçı oxuyanlar öz paltarları və danışıqları ilə xalqımızın zövqünü korlayıblar. Mən nə qədər yaxşı oxuyan tanıyırdım, onların heç birinin danışıq qabiliyyəti yox idi. Ancaq yaxşı oxuya bilməyənlər yaxşı danışırdılar. Çünki səs yox, zəngulə yox, bir şirin nəfəs yox. Əgər danışa da bilməsəydilər, xalq onları döyərdi. Ona görə gücü verirdilər danışmağa. Özü də utanmırlar ki, bəlkə, burada oxumaqdan başı çıxan var?! Başı çıxanlar da heç biri danışmır ki, nəyimə lazımdır?! Odur ki, fırıldaqçı oxuyanların işi xod gedir.

■

Yay günlərinin birində bir neçə nəfər həmyaşıdlarla Filarmoniyanın bağında əyləşib söhbət edirdik. Gördüm, bir cavan oğlan tez-tez bizə baxır, biz ona baxanda gözlərini tez çəkir, özünü elə aparır ki, guya, bizə baxmır. Saat 12-dən əyləşmişdik, artıq saat 4 idi. Hamımız evə getmək üçün ayağa qalxdıq. Yoldaşlardan aralanan kimi həmin bu oğlan mənə yaxınlaşdı. Dedi, Habil müəllim, sənə sözüm var, demək olarmı? Dedim, nə üçün olmaz, de oğlum! Oğlan çox

sıxılırdı, birtəhər dedi ki, mənim toyumdur, gəlmişəm sizi aparmağa. Sənin toyun haradadır? – soruşdum. Dedi, Lerikin dağ kəndində. Gördüm çox uzaq və çətin yoldur, dedim, ay oğul, mən belə uzaq yerlərə gedə bilmirəm, çünki canım narahatdır. Habil müəllim, mənim uşaqlıq arzumdur, özüm bu yaxında əsgərlikdən gəlmişəm, çox xahiş edirəm ki, gedək. Toy nə vaxtdır? – soruşdum. Sən nə vaxt desən, – deyə cavab verdi. Ay oğul, sənin bir böyüyün yoxdurmu ki, sən özün gəlmisən? Dedi, yoxdur. Özü də bir qəşəng oğlandı. Fikirləşdim, nə deyim ki, həm oğlan inciməsin, həm də toya getməyim. Dedim, ay oğul, bizim ansambl çox baha qiymətə gedir. Dedi, eybi yoxdur. Razılaşmasın deyə, mən çox yüksək qiymət dedim. Baş üstə, deyib mənə beh verdi. Sözüm kəsildi, toyun gününü də mən təyin etdim. Həmin gün yola düşdük. Amma çox nigaran idim. Gəlib yolun kənarında maşınlarımızı qoyduq. İri yük maşınında çaydan keçib, çətin yollarla kəndə getdik.

Maşından düşən kimi iki qadın yanımıza qaçıb bizimlə çox səmimi görüşdü. Bu kənddə cəmi 11 ailə yaşayırdı. Toyxanaya baxıb gördüm ki, ancaq 30–40 nəfər adam yerləşər. Toy ikigünlük idi. Gördüm, hərdən kəndə maşınlar gəlir və həmən dəqiqə də qayıdıb gedir. Oğlanın anası beşinci sinfə qədər olan məktəbdə xadimə işləyir, bacısı isə rabitə işinə baxırdı. Babat evləri vardı və bir də aşağıda bir mətbəxləri. Əyləşdik masaya, o qədər gözəl yeməklər gəldi ki!. Gördüyümüz bu mənzərəyə hamımız təəccüblə baxırdıq.

Bir şeyi öyrənmək üçün çox darıxırdım. Oğlanın anası Azərbaycan dilində yaxşı danışsa da, başqa millətdən olması bilinirdi. Mən oğlandan soruşdum ki, sənin anan haralıdır? Dedi, atam müharibə vaxtı Polşada vuruşub və yaralanıb, hospitala düşüb. Anam da orada tibb bacısı işləyirmiş. Bir-birini bəyənib evləniblər. Sonra da anamı gətirib buraya. Atam rəhmətə gedib. İndi burada anamın ixtisasına aid iş yoxdur deyə, məktəbdə xidmətçi işləyir.

Bu kiçik yerdə toy başladı. Kəndin adamları gəldilər, can-dildən iştirak etdilər. Toyun birinci gecəsi qurtardı. Səhər durduq çay içməyə, bu çay

stolunda nələr var idi, görməsən, inanmazsan. Çoxdan bəri tapa bilmədiyimiz kürü, yağ, bal, qaymaq, yumurta və s. Çayımızı içib qurtardıq. Gördüm, bəy oğlan həyətdən mənə işarə edir. Düşüb getdim onun yanına, çəkildik lap kənara, elə nə isə demək istəyirdi ki, hönkürtü ilə ağlamağa başladı. Elə ağladı, heç səbəbini bilmədən mən də qoşuldum ona, ağlaya-ağlaya soruşdum ki, nə olub, oğul, de mənə. O, özünü birtəhər ələ alıb yavaş səslə dedi: «Habil müəllim, məni bağışla, vəziyyət elədi ki, siz bu gün gərək Bakıya gedəsiniz».

Soruşdum ki, nə olub, bir hadisə olub? Xeyr, heç bir hadisə olmayıb, – deyə cavab verdi. Amma bu bir günün haqqını gecəliklə kəndlərdən borc alaraq tapmışam, odur ki, ikinci günün haqqını verə bilməyəcəm, ona görə deyirəm ki, gedin.

Mən bəy oğlanı qucaqlayıb üzündən öpdüm, dedim, oğlum, bu iş, Allaha çox şükür, öz əlimizdədir. Get, oğlum, ana-bacını da narahat olmağa qoyma. Biz toy qurtarana qədər heç yerə getməyəcəyik. Bəy oğlan yenə də narahat halda getdi. Hələ günorta vaxtı idi, biz nərd oynayırdıq. Birdən gördüm, maşınların arası kəsilmir. Çox sanballı adamlar gəlirlər. Gördüm, balaca toyxananı söküb, yerində çox böyük bir toyxana tikirlər. Bəli, toy başladı. Həyət-baca insanları tutmurdu. Gecənin bir vaxtı bəy oğlan gəlib yanıma dedi, Habil müəllim, artıq toyu saxlamaq lazımdır. Dedim niyə? Dedi, vallah, iki dana, altı qoyun kəsilib, yenə də yemək qurtarıb. Bu zaman ağayana bir adam mikrofonu götürüb, başladı danışmağa. Dedi, Habil müəllim, sizin bu kiçik kəndə bir yetim uşağın toyuna gəlməyiniz bütün rayonumuza hörmət deməkdir. Ona görə biz bir adam göndərdik bura, inana bilmədiyimiz bir iş olduğunu görəndə bütün kəndlərə xəbər verdik. Bütün rayon əhli yığışıb gəldi sizin görüşünüzə. Siz narahat olmayın, mən özüm bu işlə məşğul oluram. Elə görürəm ki, yaxın kəndlərdən qoyunlar alıb gətirirlər, kabablar tüstüləyir, bir şirin toy keçir ki, bəlkə, heç rayonda belə gözəl məclis olmayıb.

Artıq dan yeri ağarırdı, həmin toya rəhbərlik edən adam toyun sona

çatdığını elan etdi. Hamı gözəl əhval-ruhiyyədə dağılışıb getdi. Bizim üçün elə məclisin özündə yemək hazırladılar. Gördüm, bəy oğlanın anası və üç nəfər ağsaqqal bizim yanımıza gəldilər. Ağsaqqalın biri söz açdı ki, Habil müəllim, biz sizdən çox razıyıq, amma bilmirəm, siz də bizdən razı qalacaqsınızmı? Bizim danışdığımızdan 800 manat çatmır. Bəy oğlanın anası polyak xanım dəsmalın arasında gətirib pulu mənim qarşıma qoydu. Mən dəsmalı büküb ananın qarşısına qoydum. Bunlar elə başa düşdülər ki, puldan bir az çatmır deyə, götürmürəm. Qadın ağlamsınaraq, Habil müəllim, neyləyək, vallah, bundan artıq düzəldə bilmədik, dedi. Dedim, siz xanımlığınızla Varşavadan gəlib bu şəraitsiz yerdə bizim üçün əsgər oğul böyütmüsünüz. Neçə illər əziyyət çəkmisiniz, bəs onda mən adam deyiləmmi, bunu başa düşə-düşə bu əsgər balamız üçün iki gün əziyyət çəkdiyimə görə sizdən pul alam. Mən o pulu yeyə bilmərəm, o pul məni yeyər. Hə, indi Allah mübarək eyləsin! Xoşbəxt olsunlar, salamat qalın. Bəy oğlanın polyak anası sevinc göz yaşları ilə bizi yola saldı.

■

Mən cavanlıqda dözdüyüm hadisələrə indi dözə bilmərəm. Çünki bizim futbol komandamız başqa bir komanda ilə oynayıb qol vuranda, mən ağlayıram. Amma topun vurulmağına ağlamıram, ona ağlayıram ki, Allah, sənə şükür, stadiona gələn 40 min adam öz arzusuna çatdı.

Məni «Habil bala» deyə çağıran adamların səsi qulaqlarımdan getməmiş, «Habil baba» deyə çağıran səslər qulaqlarıma sahib olub. İndiyə qədər sevdiyim bəzi adamları, indi sevmirəm. Bu da onu sübut edir ki, o vaxtı qanmadıqlarımı indi qanıram.

Həyat mənim üçün o qədər də maraqlı keçmir. Nə olsun ki, mənim heç bir arzum qalmayıb. Elə o da mənə bir dərd olub ki, arzusuz insan ölü kimidir.

Mənə elə gəlir ki, bütün yeməli şeylərin dadı-tamı dəyişib. Gözəlliklər artıq çirkinliklərlə əvəz olunub, haqq, ədalət ləğv olub, insanlar da xasiyyətlərini pisliyə doğru dəyişib. Məni maraqlandıran nə qalıbsa, görə bilmirəm. Köhnə dostlarım köçüb haqq dünyasına gediblər. Təzələrinə

uyğunlaşa bilmirəm. Çoxlarının danışıqları məni bezdirir, dözə bilmirəm, dizlərim ağrıyır, gəzə bilmirəm, dəniz üçün ölürəm, üzə bilmirəm, səliqəmi itirmişəm, köhnə, təzə bilmirəm, xoşuma gəlməyən adamlar niyə gəlir bizə, bilmirəm, yaxşı işlər niyə gəlir gözə, bilmirəm, nə üçün çətin oldu gəlməyim sizə, bilmirəm, bəs Avropa stili niyə keçib saza, bilmirəm, kimsə maşınını həddən artıq möhkəm sürüb nə üçün edir qəza, bilmirəm, bəs nə üçün qəza edən almır cəza, bilmirəm. Mən necə rahatlaşa bilərəm ki, bütün bilmirəmlər toplaşıb başıma.

Yaşa dolduqca xalqımıza olan məhəbbətim daha da çoxalır. Əfsuslar olsun ki, onu xalqa çatdıra bilmirəm! Allah xalqımızın bütün istəklərini versin. Xalqımızın içərisində elə adamlar var ki, kar deyil, kor deyil, xəstə deyil, amma olsaydı, bundan yaxşı olardı. Çünki onsuz da xalq onların dərdini çəkir. Məsələn, bizim bir musiqi alətlərini təmir edən ustamız var. Kamançamı ona göndərdim ki, üzünün dərisini dəyişsin, gör o nə edib. Kamançanın çanağının içini yonub, tamam xarab edib. Gəldim ustanın yanına ki, sən kamançanı niyə belə eləmisən? Mənə deyir, sən gərək bu kamançanı mənə verməyəydin. Dedim, onda sən ustalığı qoy yerə, dəliliyini elə, mən də işimi bilim.

Mənim 40 illik kamançamı xarab elədi. Ona görə də artıq çalmağı tərgitmişəm. Çünki kamançada Habil kimi çala bilmirəm. Mənim başqa bir yaxşı kamançam da var idi. Türkiyədən bir nəfər tanıdığım adam xəbər göndərdi ki, Habil müəllim, mənə bir kamança göndər. Mən həmin yaxşı kamançanı ona göndərdim ki, qoy adıma layiq olsun.

İndi əlacsız qalıb ona zəng eləmişəm ki, mən sənə başqa kamança göndərim, sən o kamançanı geri ver. O da deyir, vermirəm, verməyəydin. Axı mən ona türk qardaşım kimi baxırdım, indi də onu gec başa düşməyim mənə heç bir köməklik etmir.

Bəlkə də, oxucular elə başa düşər ki, mənim ağlım çatmır, xeyr. Ürəyimin genişliyi məni dəlidən çox dəliyə oxşadır. Bəli, sən eləsən, mən belə.

Mən inanıram ki, əgər ölməsəm, bundan da çətin işlərlə rastlaşacam. Bunlar hamısı nədəndir? Çünki ürəyim

indiki ürəklərdən deyil, köhnə ürəklərə köklənmiş ürəkdir. Mən kamançanı o türkə verməyə bilməzdim, çünki Atatürk zamanı Ənvər Paşa və Nuru Paşanın Azərbaycana gəlib bizi ermənilərin əlindən qurtarmasını çox yaxşı bilirəm. Bəs onda mənim onlara olan hörmətim harda qalır?

Elə adamlar səviyyəsində olan yaxın qohumlarım da var. Əgər vəziyyəti onların birinə söyləsəm, inanıram ki, onlar gedər Türkiyəyə, həmin adamı tapar, ya ölər, ya öldürər, kamançanı tapar, gətirər. Axı onda da vicdanıma cavab verə bilmərəm. Məsələn, Samir adlı bir bacım oğlu var, Əhmədlidə yaşayır, subaydır. Akop adlı bir erməni qonşusu vardı. Akop görür, bu Samir çox dələduzdur, onunla dost olub çəkir yanına. Akop ət kombinatında işləyirdi, kefi çox kök idi. Samir dəfələrlə neçə adam bıçaqlayıb, Akop onu polisdən qurtarıb. Samir Akopu qoruyur, Akop da Samir üçün kiçik bir dükan açıb kombinatdan ət və ət məmulatları verir ki, apar sat, dolan. Akop görür, erməni-müsəlman məsələsi başlayacaq, Samiri çağırıb deyir, evimin içində nə varsa, hamısını bağışlayıram sənə, amma mən gələnə qədər bu evlərə heç kimi qoyma girsin. Akop gedir Yerevana və oradan Samirə tez-tez zəng edib əlaqə saxlayır. Samir də yenə bunu arxayın edir ki, qorxma, evlərə heç kimi yaxın buraxmıram. Samir Akopdan telefon nömrəsini, sonra da ünvanını öyrənir.

Bu 18 yaşındakı Samir elə pozğun olub ki, nə ata sayır, nə ana. Bir gün Samir gedir Tbilisiyə və oradan da Yerevana. Gedib Akopun evini tapır, qapını döyür. Akop qapını açıb Samiri görür, gözünə inanmır. Samiri çəkib salır içəri, tez qapını bağlayır. Akop qorxu içində soruşur ki, Samir, sən niyə gəlmisən? Ermənilər bilsə, gəlib səni də öldürər, məni də. Təcili Yerevandan qaç get.

Samirə xeyli pul verir və xahiş edir ki, əgər səni tutsalar, amandı, mənim adımı çəkmə, evim yıxılar. Samir durub gedir və sağ-salamat gəlir Bakıya. Bacım, yəni Samirin anası və atası axşam gəldilər bizə, nələr danışdılar. Samirə çox əsəbiləşdim. Dedim, bəs indiyə qədər mənə nə üçün deməmisiniz? Sən demə, Samir gündə

neçə dəfələrlə atasını, anasını küncdə saxlayır. Atası dedi, dünən axşam qonşum gəlib deyir ki, oğlumu neçə yerdən bıçaqlayıb. Səhər getdim bunların milis rəisinin yanına, Samirin kimliyi barədə məlumat verdim.

Rəis sahə müvəkkilini çağırdı, tapşırdı ki, Samiri həbs elə. Sahə müvəkkili Samirə deyir ki, bəs Habil dayın gəlib səni tutdurur, başına əlac qıl. Samir həmin gün Bakıdan qaçıb gedir Tümenə. 6 aydan sonra anasına zəng edir ki, ürəyim sizi istəyir, ikigünlük Bakıya gəlmək istəyirəm, amma Habil dayım bilməsin. Anası da deyir ki, hər gün polis gəlib səni axtarır. Artıq əlaqəni kəsib, beş ildən çoxdur ki, Samirdən xəbər yoxdur.

■

Mənim böyük bacım Səidənin həyat yoldaşı Həzi kişi İmişli rayonundan idi. Çox da yaxşı adam idi.

Bu adam Bakıda institutu qurtarır, təyinatı Ağdaş rayonuna verilir. Özü ticarət sahəsində çalışırdı. Atamın sağlığında başlayan qohumluq çox mənalı qohumluq idi. Atam ona həmişə deyərdi, Həzi, bir də ona görə sevinirəm ki, mən öləndən sonra bu uşaqların böyüyü kimi sən varsan. Allah ona rəhmət eləsin. Həzi kişinin üç oğlu və bir qızı var idi. Qızının adı Qütəvvər, oğlanları Cabir, Sabir və Vaqifdir. Həzi kişinin qohumları tez-tez onlara gələr, əhval tutar və arxayın olardılar ki, onun Ağdaşda çox böyük hörməti var. Müharibə də qurtardı, amma Həzi kişi hələ kiçik olduğumuz üçün bizi başsız qoyub heç yerə getmədi. Çünki atam ona arxayın olmuşdu.

Atam rəhmətə getmişdi, müharibə də qurtarmışdı. Həzi kişinin maddi köməkliyi olmasa da, gözü həmişə üstümüzdə idi. Artıq biz də, Həzi kişinin övladları da böyümüşdük. Böyük qızı Qütəvvər ailə qurmuşdu. Böyük oğlu Cabir işləyirdi, ortancıl oğlu Sabiri isə əsgərliyə aparmışdılar, özü də Qazaxıstana, Ust-Kamenoqorsk şəhərinə.

Sabir ilə birlikdə hərbi xidmətdə Quba rayonundan və Ağdaşın Ləki kəndindən olan uşaqlar əsgərliyi bitirəndən sonra bir ev tutub orada qalırlar ki, sürücülük kursunu oxuyub, «prava» alsınlar. Hava çox soyuq olduğundan axşam yatanda peçə daş

kömür qoyub yandırırlar. Səhər qonşular görür ki, üçü də boğulub ölüb. Ağdaşa xəbər verdilər. Həzi kişi mənim böyük qardaşım Qabilə deyir ki, mən nə edəcəm? Sabirin ölüsünü gətirmək üçün imkanım yoxdur. Qabil deyir, mənim imkanım var, gəl gedək. Gedirlər, Qabil deyir, bu uşaqlar da bizimdi, onları da aparaq. Yol xərcini hesab edirlər, Qabil deyir, pulumuz bəs edər. Ona görə uşaqların üçünü də gətirirlər. Sonra Qubaya, Ləkiyə də zəng edirlər, onlar da gəlib öz ölülərini aparırlar.

Sabirin ölümü Həzi kişinin ağır xəstəliyinə səbəb oldu və çox çəkmədi ki, rəhmətə getdi.

Böyük oğlu Cabir çox sakit, mülayim xasiyyətli idi. Qəflətən Cabiri də xərçəng xəstəliyi tutdu, o da rəhmətə getdi. İndi Həzi kişinin Vaqif adlı bircə övladı qalıb. Çox təəccüb doğurur ki, belə yaxşı adamın başına nələr gəldi.

Mənim demək istədiyim odur ki, hamının hörmət etdiyi belə bir adam nədən bəs böyük bəlalara rast gəldi? Ona görə də Şeyx Sədi deyir ki, Allahın elə işlərini bilirəm, desəm, qan düşər. Bizlərdə belə adamlara çərxi dönmüş adam deyirlər. Elə adamlar var ki, ən ağır bədbəxtlik başına gəlir, səbəbini bilmirsən. Allah yaxşı adamları belə bəlalardan qorusun.

Bir adamın alim kimi, yaxşı sənətkar kimi tanınması üçün ömrünün çox hissəsi gedir. Belə adamı səbəbi bilinmədən korlamaq ən aşağısı insafsızlıqdır. Vəzifə, şöhrət, var-dövlət adamları çaşdıra bilir, amma əsl adam gərək çaşmasın.

Mənim ayaqlarım yaxşı işləmir. Elə evdə divanın üstündə əyləşib başımı televizor ilə qatıram. Mənə bundan sonra nə lazımdır? Heç bir şey, ancaq övladlarımın rahatlığı, bir də şərə, böhtana uğramamaq.

Musiqi aləmi gözəl aləmdir, amma xoşagəlməzliklər də var. Açıq demək lazımdır ki, tamaşaçılar arasında, daha doğrusu, musiqisevərlər arasında yaxşı-pisi düzgün bilməyənlər də var. Bu da bizim musiqimizə çox pis təsir göstərir. Pis ifaçının meydana çıxması onun özü kimilərinə də yol açır. Məsələn, qırqovul əksər vaxt gözlərini yumur ki, onu görən olmasın, çünki onu görən vurmağa çalışır. Bəs sağsağan nə üçün gözlərini yumur? Onun

məqsədi odur ki, o da qırqovul kimi sevilsin. Anlamır ki, qırqovul yalnız gözlərini yummağına görə deyil, qırqovul olduğuna görə sevilir.

Əfsuslar olsun ki, musiqisevərlərin bəzilərinə sağsağanlar qırqovul kimi görünür. Onda qırqovullar sağsağan kimi, sağsağanlar qırqovul kimi yaşayır. Bu da bütün qırqovullara pis təsir edir. Dərd burasındadır ki, sağsağanı tanımaq üçün alim olmaq lazım deyil, qırqovulun gözlərini yumması onun adətidir və heç bir fırıldağı yoxdur. Heç bir həqiqi sənətkar fırıldaqçı deyil, çünki onların fırıldağa ehtiyacı yoxdur. Pis sənətkarlar həmişə yaxşı sənətkarlardan paltarlarının yaxşılığı ilə seçilirlər. Oxumağı pisdir, heç olmasa, paltarı yaxşı olsun deyə. Deməli, yaxşı paltar yaxşı oxumağı əvəz eləyir. O adamlar yalanı elə danışırlar ki, inanmamaq mümkün deyil, çünki yalan onların silahıdır. Kaş mənim xatirələrimin içərisində şikayətlərimi başa düşən və qarşısını ala bilən bir nəfər adam olaydı.

Yaxşı musiqini bilmək üçün yalnız düzgün zövq lazımdır. Pis musiqiçilərin aldada bildikləri adamlar həm də pisləri müdafiə edərlər. Yazıq yaxşını başa düşənlər çox vaxt mübahisələrdə məğlub olurlar, çünki zövqsüzlər daha çoxdur. Oxuya bilməyənləri elə adamlar müdafiə edir ki, adam xəcalət çəkir.

Məclislərin birində bir nəfər xanəndəyə deyir, yaxşı bir «Rast» oxu, xanəndə deyir, elə indi oxuduğum «Rast» idi. Həmin adam deyir, bəhbəh, gözəl zövq almışıq, əfsus ki, xəbərim olmayıb.

Sovetlər vaxtında çoxlu bayramlar olardı. Bütün kolxozlarda bu bayramı yaxşı keçirərdilər. İnəyi doğrayıb iri qazanlarda bişirərdilər. Hər kolxozçu əlində bir boşqab qazanın yanında növbəyə durardı. Kimin boşqabına yemək çəkilirdi, o adam üçün, doğrudan da, bayram olurdu. Bayram daha da yaxşı keçsin deyə, musiqiçilər də olardı. Ona görə də bayram günləri musiqiçi tapılmırdı. Mənim böyük qardaşım bir az qaval çala bilirdi, özünün də 16 yaşı vardı. Kolxozun birindən musiqiçi aparmaq üçün gələn adamlar qardaşımı tapırlar, o da özü səviyyədə olan tar-kamança çalan götürüb gedir. Sən demə, bu kolxoz rayonun ən qabaqcıl kolxozu imiş. Kolxozun sədri ordenli

Şirəli dayı idi. Gedib çatırlar, görürlər ki, gözəl bəzənmiş bir mağar qurublar. Kolxozun ağsaqqalları əyləşib, başda da Şirəli dayı. Şirəli dayı bir yüzlük göndərir ki, qardaşım «Çahargah» oxusun. Qardaşım deyir, «Çahargah» bilmirəm, mən «Kəklik» mahnısını bilirəm, istəyirsə, onu oxuyum.

Şirəli dayı görür ki, bunlar heçdilər, deyir, yaxşı, oxusunlar. Başlayırlar çalıb-oxumağa. Sonra qardaşım oxumağı dayandırır, yüzlüyü sərpayıya verib, göndərir Şirəli dayıya ki, çox pis oxudum, bu oxumağa pul düşmür. Bax, mən deyən budur ki, o vaxtlar oxumağı bilməyənlərin insafı var idi, heç olmazsa, özlərini tərif etmirdilər.

70 il bundan əvvəl də oxuyanlar var idi, amma onların hansı yaxşı xanəndə idisə, adları indi də çəkilir. Məsələn, Seyid Şuşinski, Xan Şuşinski, Mütəllim Mütəllimov, Zülfü Adıgözəlov, Ağabala Abdullayev, Əbülfət Əliyev, Yaqub Məmmədov, Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, lap köhnələrdən Sürəyyə Qacar, Cahan Talışinskaya, Həqiqət Rzayeva... Sara Qədimova və Rübabə Muradova müasir oxuyanlar idilər, amma Zeynəb Xanlarova qədər təbliğ olunan və alqışlanan heç biri olmayıb. Elmira Rəhimova, Nəzakət Məmmədova, Tükəzban İsmayılova da çox alqış alan müğənnilər idilər. Mənim çox sevdiyim oxuyanlar ancaq Şövkət və Elmira olub. Mən o biri oxuyanların sənətini danmaq istəmirəm, onların hərəsinin öz sevənləri var idi. Kişi oxuyanlardan ən çox Hacıbabanı sevərdim, çünki o, Zülfünün yolu ilə oxusa da, özünün də çox gözəl əlavələri var idi.



*Ürəyi çırpınır barmaqlarında,*
*Onlardan tökülür simlərə nəbzi,*
*Özü də bilmir ki, çalır, ya çalmır,*
*Nə dünyanı görür Habil, nə bizi.*

**Əli Kərim**



*Habil Əliyev həyat yoldaşı və övladları ilə. 1978*



*Habil Əliyev və Xalq artisti Məlik Dadaşov. 1987*



*Habil Əliyev bəstəkar Səid Rüstəmovla*



*Habil Əliyev Xalq artisti Şövkət Ələkbərova ilə*



*Habil Əliyev Xalq şairi Nəriman Həsənzadə ilə. 1996*



*Habil Əliyev Xalq artisti Hacıbaba Bağırovla*



*Habil Əliyev sənət dostları arasında*



*Habil Əliyev Xalq artisti Yaşar Nuri ilə*



*Habil Əliyev və Xalq artisti Məmmədbağır Bağırzadə*



*Kamanın sultanı...*



*Qızıl barmaqların qızıl nəğməsi*

## BÖYÜK SƏHNƏDƏ

Yavaş-yavaş boy atıb bərkiyirdik. Yaqub Ağdaşda yaşayan bir malakan qızına bənd oldu və onunla toysuz evləndi. Mən Bakıya gəlib A.Zeynallı adına musiqi məktəbinə daxil oldum. Artıq 3–4 ay idi ki, oxuyurdum. Bir gün mənə dedilər, Hacı Məmmədov səni axtarır. Görüşdük. Dedi, Filarmoniyanın müdiri Şəmsi Bədəlbəyli və bəstəkar Soltan Hacıbəyov səni çağırır. Getdik. Soltan müəllim soruşdu ki, neçə ildir kamança çalırsan? Dedim, 10 il olar.

Soltan müəllim:

– Sənin artıq pensiyaya çıxan vaxtındır ki, – dedi, güldülər.

Şəmsi müəllim məni mahnı və rəqs ansamblına işə götürdüyünü, amma hərdən oxuyanlar üçün də çalacağımı dedi. Dedim, baş üstə. Mahnı və rəqs ansamblının bədii rəhbəri Səid Rüstəmov idi. 600 manat məvacib kəsdilər. Tələbə üçün pis deyildi, amma tez-tez tədbirlərə, konsertlərə gedən, daim adam arasına çıxan biri üçün çox az idi. Çünki iş yoldaşlarım çox gözəl paltarlar geyinirdilər, mən onların yanında yöndəmsiz görünürdüm. Məni hələ Bakıda tanımırdılar, toylara aparmırdılar. Ona görə də bir gün işdən qaçıb getdim Ağdaşa ki, toy hesabına bir az pul qazanım. O gedən-bu gedən, düz 3 ay qaldım. Bir gün Bakıya qayıdıb utana-utana Filarmoniyaya getdim. Elə qapıdan içəri girən anda Səid müəllimlə üzləşdim. Əlimdən tutdu, bura gəl görüm, deyib, müdirin kabinetinə apardı. İçəridə Şəmsi müəllim, Soltan müəllim, Əminə Dilbazi və rəqqas Əlibaba Abdullayev oturmuşdular. İçəri girən kimi Səid müəllim dedi:

– Ay yoldaşlar, bu qaçaqdan soruşun görək, Dövlət Filarmoniyası bunun üçün çayxanadı, toyxanadı, nədi? Üç aydır, qeyb olub, indi gəlib çıxır.

Səid müəllim çox tələbkar adam idi, amma yaxşı sənətkarları da çox sevərdi. O, yarıəsəbi soruşdu:

– İndi de görək, burda işləmək istəyirsən, ya yox?

Mən dillənmədim, utana-utana dayanmışdım. Bu vaxt Əminə Dilbazi mənə yaxınlaşıb dedi:

– Habil, danış da. Səid müəllimdən üzr istə, de ki, bir də belə şey olmaz.

Mən üzümü Əminə xanıma tutub dedim:

– Əminə xanım, ansamblda elə adam var, saatlarla işə gecikir, heç onda Səid müəllim ona bir kəlmə demir, mən cəmisi üç ay işə gəlməmişəm, düşür üstümə.

İçəridəki hamı bir nəfər kimi başını qaldırıb təəccüblə üzümə baxdı. Dediyimi bir də təkrar etdim. Səid müəllim əsəbiləşdi:

– Rədd ol, çıx otaqdan!

Mən çıxanda oradan gülüşmə səsi eşitdim.

■

Bir müddət sonra Filarmoniyanın solisti oldum. İlk dəfə məni rəhmətlik Xan əmi təbrik etdi və dedi ki, sağlıq olsun, toylara da birlikdə gedərik. Belə də oldu. Artıq həyatım dəyişirdi. Amma erməni kamançaçalan Nefton mənə çox pis-pis baxırdı. Xarici səfərlərə Soltan müəllim məni göndərirdi.

Adımın dillər əzbəri olması Neftonun kürkünə birə salmışdı. Məni ölkəmizdə uşaqdan-böyüyə hamı tanıyırdı. Şöhrətim ondan qat-qat artıq olsa da, Nefton gələn kimi ayağa qalxırdım və Nefton müəllim, buyur əyləş, deyirdim. Yenə də baxışlarındakı xainlik hiss olunurdu.

Maestro Niyazi Filarmoniyanın müdiri işləyəndə səhər gəldim işə, gördüm ki, afişa asılıb. Virtuoz kamançaçalan Rubenin solo konserti. Gəldim Niyazinin yanına, soruşdum ki, Maestro, siz bu adamın çalmağını eşitmisiniz? Dedi, ehtiyac yoxdur, bu adam bütün dünyada konsert verir. Axşam gəldim konsertə, baxdım ki, salonda oturanların hamısı ermənilərdi. Rubenin çalmağına qulaq asdım, gördüm, heç kamançanın kökü düz deyil. Yoldaşıma dedim, dur gedək, qayıtdı ki, adamlardan ayıbdır. Dedim, burda adam nə gəzir, görmürsən, hamısı ermənidi.

Tbilisidə Levon Qaraxanov adlı bir qocaman erməni kamançaçı tanışım var idi. Səhər o mənə zəng elədi ki, Habilcan, Rubenin konsertinə getmişdin? Dedim, bəli. De görək, xoşuna gəldimi? Cavab verdim ki, Ruben getdi Tbilisiyə konsert verməyə, qulaq asarsan, doyunca xəcalət çəkərsən. Sonra mənə zəng edib, dediklə-

rimi təsdiq etdi. Üç gündən sonra Filarmoniyada qarderobun yanında durub söhbət edirdik. Burada Nefton, Vaqo, Boris Vaniya, Jora, Fərhad Dadaşov, Tələt və bir neçə tarçalan var idi. Bu zaman Niyazi içəri girdi və bizi görüb, gəldi yanımıza:

– Hə, Rubendən danışırsınız? Deyin görüm xoşunuza gəldimi?

Mən dedim ki, xeyr, mənim xoşuma gəlmədi. Niyazi gülümsəyərək üzümə baxdı. Nefton əsəbi halda dedi ki, bu adam dünyada konsert verir, hamı da bəyənir. Deməli, sən hamıdan çox bilirsən? Xeyr, mən özüm qədər bilirəm, – deyə cavab verdim.

Artıq respublikamızda məni çox adam tanıyırdı, amma istəyirdim ki, uşaqlar da tanısın. Adətən, uşaqlar muğamı çətin başa düşürlər. Ona görə Qəmbər Hüseynlinin «Cücələrim» mahnısının üzərində işləyirdim, bir növ, cücə, toyuq səsi almağa çalışırdım. Bir gün işlədim, ikinci gün gördüm ki, kiçik qızım Rəna qapını açıb iş otağıma girdi və sevincək, gülə-gülə, ay papa, sən nə çalırsan, toyuq-cücə səsi gəlir, – dedi. Hə, – dedim, – deməli, tapmışam! O vaxtlar Filarmoniyada uşaqlar üçün Yeni il münasibətilə konsertlər təşkil olunurdu. Həmin konsertdə «Cücələrim»i çaldım. Uşaqların alqışları məni qəhərləndirdi. Bir gün Mərkəzi Komitədən zəng etdilər ki, səni proqrama salmışıq, qonaqlar üçün «Cücələrim»i çalarsan. Belə-belə «Cücələrim» dəbə düşdü.

Neftonun mənə olan paxıllığı aydın başa düşülürdü, amma yenə də onun qəlbinə dəymirdim. Bir gün Yaşıl Teatrda rəsmi yığıncaq və konsert olmalı idi. Həmin konsertdə Şövkət, Əbülfət, Zeynəb, Müslüm və mənim ifalarım nəzərdə tutulmuşdu. Hacı Məmmədov ilə Nefton oxuyanları müşayiət edirdi. Mən isə solo çalmalı idim. Hamımız yığışıb səhnənin kənarından konsertin gedişatını izləyirdik. Adım elan olundu, çıxdım səhnəyə. İki dəfə çaldım, amma tamaşaçılar yenə «Cücələrim»i tələb edirdilər. Nəhayət, qayıtdım səhnəyə, «Cücələrim»i çaldım. Baş əyib səhnədən çıxdım. Bu zaman Nefton uca səslə, sağ ol, Habil, nə gözəl banlayırsan, gərək onu səndən öyrənim – dedi. Əbülfət, Hacı bunu çox pis qarşıladılar. Özümü itirmədim, dedim, Nefton müəllim, sənə banlamaq ayıbdır, sən anqırmağı öyrən!

■

Filarmoniyada işlədiyim dövrdə bir çox gözəl sənətkarı, məsələn, Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov, Hacıbaba Hüseynov, Əbülfət Əliyev, Tələt Qasımov, Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Rübabə Muradova, Sara Qədimova, Zeynəb Xanlarova və başqalarını kamançada müşayiət etmişəm. Ən yaxşısı hansı idi, bilirdim. Əfsus ki, tamaşaçı, dinləyici olduğu kimi anlamırdı, mən də hamı kimi dözürdüm. Çünki adamları reklamla aldatmaq mümkündür, çox az adam aldanmır. Artıq bu gözəl xanəndələr yaşa dolurdu, səhnə qalırdı oxumaq əvəzinə paltar geyinənlərin əlində, daha doğrusu, səslə deyil, sözlə xanəndəlik edənlərin əlində. Ona görə mən təcili Ağdaşa getdim. Yaqubu götürüb gəldim Bakıya. Filarmoniyanın müdiri Soltan Hacıbəyov idi. Kabinetə girib dedim ki, Soltan müəllim, bir gözəl oxuyan gətirmişəm, xahiş edirəm, ona qulaq asın. Dedi, qulaq asaram, xoşuma gəlməsə, yarımçıq qovacam. Razı oldum. Qurban Pirimov tarda, mən də kamançada Yaquba «Zabul segah» oxutduq. Gözüm Soltan müəllimin razılıqla dolu üzündə idi. Oxuyub qurtaran kimi Soltan müəllim gülə-gülə dedi ki, Yaqub, gəl səni bura işə götürüm. Çox sevindik.

Bakıda yaşayan, Novxanı kəndindən olan doktor Əbülfəz deyə bir nəfər var idi. Musiqimizin, muğamlarımızın həm bilicisi, həm də vurğunu idi. O, Yaqubun sorağını alıb bizimlə görüşdü. Yaqubu götürüb özü ilə toya aparır, oxudurdu. Abşeron camaatı az müddətdə bu gözəl xanəndəni özünün də ağlına gəlməyəcək qədər çox sevdi.

■

Firudin Şuşinski mənim haqqımda oçerk hazırlayırdı. Fioletov küçəsində səsyazma studiyasında görüşdük. Lətif Kərimov, Əkrəm Cəfər, Bəxtiyar Vahabzadə, Şövkət Ələkbərova da orada idilər. Firudin dedi ki, Cabbar Qaryağdıoğlu ilə Saşa Oqanaşvili bir «Mənsuriyyə» çalıb-oxuyublar, onu eşidən olub? Görəsən, belə sənətkarlar bir də yetişə bilərmi? Dedim, eşitmişəm, özü də heç xoşum gəlməyib. Firudin əsəbi halda dedi ki, üç şahını bəyənməyən bir abbası çıxarar. Mən qalxdım ayağa, dedim, bu saat gəlirəm. «Araz» kinoteatrının yanında bir çayçı var idi, gəldim gördüm ki, Yaqub bir neçə yoldaşla oturub çay



*Yaqub Məmmədov, Həbib Bayramov, Firudin Şuşinski və Habil Əliyev. 1962*

içir. Dedim, Yaqub, qalx ayağa, gedək. Soruşdu, hara, dedim, yolda bilərsən. O gün studiyada lent yazan bəstəkar Adil Bəbirov idi. Adilə yaxınlaşıb dedim ki, Adil, bu Yaqub mikrofondan çox qorxur, ona görə sən bizim məşqimizi yaz, görək sonra nə olur. Başladıq məşqə. Adil musiqimizi yazdı, sonra dedim, bax indi yazırıq. Düz beş dəfə yazdıq, alınmadı. Sabah gəlib yazarıq, – deyə Yaqub getdi. Dinləyicilər hardan bilsin ki, hal-hazırda radioda verilən «Mənsuriyyə» bizim məşqimizin səs yazısıdır.

Həm də o «Mənsuriyyə» dünyada sevilən bir əsərdir. Lap axır günlərə

qədər Firudin deyirdi ki, mən bu «Mənsuriyyə» ilə fəxr edirəm, çünki o mənə görə yarandı.

Bir gün isə Lətif müəllim (məşhur Xalq rəssamı Lətif Kərimov–*red.*) dedi, Habil, axşam kamançanı da götür, gəl bizə. Getdim gördüm Firudin də buradadı. Lətif müəllim dedi, bir «Segah» çal. Baş üstə, deyib, başladım. Lətifin bütün ailə üzvləri oturub qulaq asırdılar. Çalıb qurtardım, Firudin dedi ki, Lətif müəllim, əgər Birləşmiş Millətlər Təşkilatında mənə söz versələr, mən danışmaz, əvəzinə Habilə «Segah» çaldıraram. Lətif müəllim dedi, sən belə sözlərlə Habil sənətinə zərbə vurarsan. Amma mən bu gündən Habil çaldığı «Segah»ın adını «Habil segahı» qoyuram. Hamı «Segah» çalır, oxuyur, ancaq bu çaldığı «Segah» yalnız Habilin özünə məxsusdur. Bilirsiniz o, nə üçün yaxşı çalır? Çünki o, işlənmiş variantlardan qaçır, yeni variantlar axtarır. Bir də o, heç vaxt öz çalmağından razı qalmır. Ona görə də, hələ arxada eşitmədiyimiz çox şeylər var. Allah qoysa, eşidərik. Mən xalçaçılıqda axtardığım naxışları, Habil musiqidə axtarır.

Firudinin hazırladığı oçerk AzTV-də yayımlandı. AzTV-nin sədri mənə ən çox qayğı göstərən və mənim mədəniyyət aləmində ən çox sevdiyim adam, rəhmətlik Teymur Əliyev idi. O, Firudinə tapşırdı ki, Habili gətir mənim yanıma. Biz içəri girən kimi Firudin gülə-gülə dedi:

– Teymur müəllim, hələ radionun tarixində görünməmiş bir hadisədir ki, 2500 təşəkkür məktubu gəlib. Gördün də, bir verilişlə Habili necə tanıtdım?!

Rəhmətlik isə, sən Habili tanıtmaqla özün ondan çox tanındın, dedi.

Teymur müəllim məni səmimi qarşıladı və təbrik edib dedi ki, Habil, biz sənin nələrə layiq olduğunu hər kəsə anlatmalıyıq.

Rəhmətliyə təşəkkürümü bildirib kabinetdən çıxdım.

■

Bir gün Filarmoniyanın direktoru maestro Niyazi məni yanına çağırtdırdı. Dedi, bütün dünyada solist o adama deyilir ki, solo konsert versin. Bizdə isə xalq musiqisi ifaçıları hamısı solist işləyir, amma heç biri də solo konsert vermir. Mənim fikrim budur ki, solisti ləğv edib, bunları adi ifaçı kimi saxlayım. Allaha şükür, özün gördün ki, Ruben Avropadan gəlib burda solo konsert verdi. İndi sən də əgər solo konsert verə bilməsən,

incimə. Dedim, maestro, etirazım yoxdu, amma bilmirəm, konsert versəm, adam gələr, ya yox.

– Mən də bilmirəm, o mənlik deyil, – dedi.

Dedim, maestro, Allaha təvəkkül, afişa verin, görək nə olur.

Afişa verilən gündən evimizə telefon zəngləri gəlməyə başladı. Habil, bizə bilet düzəlt, kassada qurtarıb. Çox sevindim. Çıxış etmək üçün Filarmoniyaya gəldim. Adamları yarıb içəri girə bilmirdim. Axırda milis gəlib məni içəri keçirtdi. Salon insanla dolu idi.

Filarmoniyanın müdir müavini Arnapolski gəldi yanıma ki, Habil, çöldə qalan adamlar deyir, sabaha da bilet satın.

Həmin gün səhərki konsert üçün də biletlərim satıldı.

■

Artıq məşhur ifaçı idim. Filarmoniyada solo konsertlər verəndə bilet tapılmırdı. Bir gün Filarmoniyada hündür, yekə bir adam yaxınlaşdı mənə. Dedi, Habil, mən Ağdamdan gəlmişəm, özüm də çox yaxşı kamançaçalanam, adım da Danyeldir. Gəlmişəm ki, əl-ələ verək, dolanaq, yəni konsertinlə toy bir günə düşsə, mən konserti çalaram, sən toyu, ya da əksinə. Gördüm, bu pəzəvəngin heç mədəniyyətdən xəbəri yoxdur. Dedim, baş üstə, amma sən onu müdir Niyazi ilə danış ki, arxayın olaq.

Bu gedir Niyazinin yanına. Deyir, mən çox yaxşı kamançaçalanam, özü də Ağdamdan gəlmişəm ki, məni bura işə götürəsən, – deyə cavab verir.

Niyazi deyir, yerimiz yoxdur, hələ, bəlkə, Habili də işdən çıxartdım.

Danyel əlini cibinə salır, bir dəstə kağız çıxarıb uzadır Niyaziyə ki, bax gör mən haralarda partizan olmuşam. Niyazi deyir, sən bu kağızları apar hərbi komissara göstər, bunlar mənlik deyil.

Danyel gəldi yanıma. Dedi, Habil, bu Niyazi nə qədər xain adamdı. Soruşdum niyə? Dedi, qulaq as, belə bir adam bizim Ağdamda da var. Qəzetdə yazır ki, Danyel anekdot çalır. Bizim ermənilər də mənə deyir ki, fikir vermə, bu «musurmanlar» belə xain millətdilər.

■

İllər dolanıb keçirdi, yeni tamaşaçılar və sənət adamları yaranırdı.

Filarmoniyanın müdirinin bəstəkar Tofiq Quliyev, bədii rəhbərinin bəstəkar Zakir Bağırov olduğu vaxtlar idi.

Tofiq ciddi, Zakir isə mülayim və hamıya yaxın adam idi. Proqram şöbəsinə Katya adlı bir erməni qadın müdirlik edirdi.

Bakının Türkan kəndində böyük bir toy məclisi olmalıydı. Oxuyan Ağabala Abdullayevi, tarzən Əli Quliyevi və kamançalan da məni götürmüşdülər. Filarmoniyaya gələndə gördüm, konsert afişası asılıb və toyla eyni gündə olacaq həmin konsertə məni də daxil ediblər. Gəlib vəziyyəti Katya xanıma deyib, xahiş etdim, məni başqa kamançaçalanla əvəz etsin. O, əsəbi halda qışqırdı:

– Olmaz. Çünki Nefton da, Boris də səndən qabaq icazə alıblar. Odur ki, səni əvəz edən adam yoxdur.

Ordan çıxıb bədii rəhbərimiz Zakir Bağırovun yanına gəldim və vəziyyəti ona danışıb icazə istədim. O saat dedi ki, get də... Dedim, onda gedib sizin adınızdan Katya xanıma deyim, məni azad etsin, eləmi? Hə, get de!.. – deyə cavab verdi. Gəldim Katya xanıma dedim. O, əsəbiləşib qalxdı ayağa və mənimlə gəldi Zakir müəllimin yanına. Əsəbi halda dedi ki, Zakir müəllim, Habili buraxa bilmərəm. Zakir müəllim başını qaldırıb Katyaya dedi ki, axı niyə əsəbiləşirsən, olmaz olmaz da...

Nə isə, toy sahibinə xəbər göndərdim ki, məni işdən buraxmadılar.

■

Filarmoniyada mahnı və rəqs ansamblında işləyirdim. Bir gün müdir Soltan Hacıbəyov məni çağırdı yanına və dedi ki, sənin əmrini verdim, oxuyanları müşayiət edəcəksən.

O zamanlar oxuyanları kamançada yalnız Nefton Qriqoryan müşayiət edirdi. Nefton səhnənin dilini yaxşı bildiyi üçün heç bir müğənni mənimlə oxumaq istəmirdi. Hamısı istəyirdi ki, Nefton çalsın. Ona görə də Soltan oxuyanlara göstəriş verdi ki, belə olmaz.

Mənim üçlükdə çalmaq üçün yararlı geyimim yox idi. Bəs nə edim? İnstitutda oxuyan bacım oğlunun bir dəst kostyumu var idi. Amma rəngi qara deyildi. Səhnə geyimi mütləq qara rəngli olmalı idi. Mən bu kostyumu qara rəngə boyatdım. Çox pis boyamışdılar. Həm kiçilmişdi, həm də ala-bula olmuşdu. Sən demə, bu işlərə rəhmətlik Soltan müəllim fikir verirmiş. Məni çağırıb dedi ki, Habil, get bizim dərzinin yanına, nə lazımdırsa, ona tapşırmışam. Getdim, ölçümü götürdü, bir gözəl kostyum tikdi. Birinci dəfə idi ki, yaxşı geyinirdim.

Artıq səhnə geyimim oldu. Buna yoldaşlarım məndən artıq sevinirdilər. Ən azı ona görə ki, mənimlə səhnəyə çıxmağa daha utanmayacaqdılar.

Nəhayət, geyimim də, hörmətim də, uğurum da çoxaldı. Xalqım da məni sevdi, hökumətim də!

Amma gördüm, bütün bunlar çoxaldıqca, düşmənlərim də artır.

Bizim Azərbaycan xalqı çox xeyirxah və kövrək xalqdır, amma içimizdə az da olsa, elə manyaklar var ki, adam təəccüb qalır, deyirsən, belə də azərbaycanlı ola bilər?

Fikrət Qoca gözəl deyib:

*Bizim babalarımız*
*Qaçaq olub, mərd olub,*
*Qoçaq olub, mərd olub.*
*Bəs bu namərdlər kimdən yaranıb*
*Bax bu mənə dərd olub.*

Əgər öyrənmək imkanımız olsa, görərik ki, onların əsli azərbaycanlı deyil. Allah o adamlardan bizi qorusun.

■

Allah bizim Bəstəkarlar İttifaqının sədri Firəngiz xanımı öz istədiyi kimi yaşatsın. O mənim çaldığım muğamların üstündə bir musiqi poeması yazıb, adını da «Habilsayağı» qoyub. Həmin əsər dünyanın neçə-neçə ölkəsində çalınır. Firəngiz xanım öz əsərində məni dünyada gəzdirir. Bu da onun böyüklüyüdür.

Firəngiz xanım səhər-səhər bizə zəng edib, mən yuxuda olmuşam. Yoldaşıma deyib:

– Bu gün saat 4-də Habil müəllim Muğam Teatrına gəlsin. Özü də içəri qürurla girsin. Bəstəkarlar İttifaqında böyük simpozium keçirilirdi, bütün dünyadan gələn musiqi alimləri iştirak edirdilər. Dünyada tanınan böyük alman musiqişünas-alimi Yürgen Elener bir saatdan çox Habil müəllimin çaldığı «Dilkeş» muğamı haqqında məruzə etdi.

Bəli, getdim Muğam Teatrına. Gördüm ki, doğrudan da, dünyadan seçilib gəlmiş adamlardır. Hörmətli Firəngiz xanım məni qarşıladı və öz yanında əyləşdirdi. Firəngiz xanım mənə dedi ki, Habil müəllim, tanış olun, bu sizi çox sevən və çaldığınız «Dilkeş» muğamı haqqında çıxış edən alimdir. Yürgen Elener bir az rus dilində danışa bilirdi. Mənə dedi ki, sənin çaldığın başqa muğamlar da varmı? Tez sürücünü evə göndərdim, disklərimi gətirdi. Bağışladım alman alimə və onlar haqqında məlumat verdim.

Simpoziumda olan çıxışların məruzələri kitab kimi nəşr edildi. Firəngiz

xanım sağ olsun ki, o kitabdan mənə göndərdi.

■

Ümumiyyətlə, dövlətimizin və xalqımızın mənə verdiyi qiymətə baxanda gördüyüm işlər azlıq edir.

Məni narahat edən odur ki, sənətdə bəzi adamlar öz yerində deyil. Hətta bir dəfə narahatlığımı çatdırmaq üçün hörmətli Mehriban xanımdan xahiş etdim ki, məni qəbul etsin. Çox yüksək səviyyədə qəbul etdi. Mehriban xanım həmişə mənə çox böyük diqqət göstərib. Möhtərəm prezidentimiz İlham Əliyev cənabları birinci dəfə mədəniyyət sahəsində «İstiqlal» ordenini mənə təqdim edib. Əvvəl də qeyd etdiyim kimi, rəhmətlik Heydər Əliyev mənə iki orden verib: «Qırmızı Əmək Bayrağı» ordeni və «Şöhrət» ordeni. Xalq artisti kimi yüksək fəxri adla da məni Heydər Əliyev təltif edib. Hər zaman can-başla sənətim vasitəsilə dövlətimizə və xalqımıza qulluq etmişəm. Heydər Əliyevin mənə olan qədirbilən münasibəti bu gün də övladları tərəfindən davam edir.

Prezidentimiz mənə şəhərin yaxşı yerində 4 otaq verməklə bərabər, həm də fərdi təqaüdə layiq bilib. Mehriban xanım da mənə Fondun adından fərdi təqaüd təyin edib, Ağdaş rayonunda adıma gözəl bir musiqi məktəbi yaradıb.

Bu gün hörmətli prezidentimizin sayəsində respublikamız cənnətə dönüb. Bunları görə bilməyənlərə Allah on göz versin. Prezidentimizin siyasəti bizləri çox gözəl günlərə aparır. Bunu başa düşmək o qədər də çətin deyil. Torpaqlarımızın azad olmasına da çox vaxt qalmayıb.

■

Musiqi ifaçıları arasında yaşı çox olanlardan biri də mənəm. Ona görə rəhbərlik olan yığıncaqlarda xalqımızın sevimlisi Mehriban xanım gələn kimi əvvəlcə mənimlə, sonra başqaları ilə görüşür. Əlbəttə, yaşlı adam üçün bundan böyük diqqət ola bilməz. Onun sadəliyi və xoş təbəssümü övlad qayğısı kimidir.

Mehriban xanımı görən kimi hamı sevinir və bu sevinc də valideyn sevinci kimidir. Xalqımız bu insanları gözəl başa düşür, onlara inanır və ona görə də çox sevir.

■

Ağdaşda hava çox soyuq idi, bərk qar yağırdı. Buna baxmayaraq, evlərdə



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaşda Habil Əliyev məktəbinin açılış tədbirində*

heç kim qalmamışdı. Hamı bayram əhval-ruhiyyəsində şəhərə çıxıb Prezidentin gəlişini gözləyirdi. Mehriban xanımın mənim adıma inşa etdirdiyi məktəbdə akademik Bəkir Nəbiyev, şair Fikrət Qoca və dəfələrlə dünya çempionu olmuş Xəzər İsayevlə birlikdə Prezidentimizin yolunu gözləyirdik. Onun məktəbin qapısını açıb təbəssümlə görünməsi məni göylərə qaldırdı və irəli yeriyib Prezidentimizlə görüşdüm, ona təşəkkürümü bildirdim. Sonra başladıq siniflərə baxmağa. Bütün siniflərdə dərs gedirdi. Konsert salonunda əyləşdik, uşaqların konsertini dinlədik. Salondan çıxıb məktəbdə mənə aid olan kiçik muzeyə girdik. Prezidentimiz çox diqqətlə tamaşa edirdi, birdən dönüb mənə bir şəkil göstərdi. Həmin şəkil onun mənə «İstiqlal» ordeni təqdim etdiyi anda çəkilmişdi. Sonra Prezidentimiz Ağdaşda yeni tikilmiş xəstəxananın və su kəmərinin açılışına getdi. Mən yatanda da, duranda da hey fikirləşirəm ki, Allah, görəsən, mənim o günkü qədər sevindiyim daha bir günüm olacaqmı?



*O hamının sevimlisidir. Prezidentin də, milyonlarla musiqi pərəstişkarının da*

## SƏFƏRLƏRDƏ

Günlərin birində Rəşid Behbudov təklif etdi ki, xarici ölkələrdəki bir neçə konsertinə mən də gedim. Razı oldum. Konsert başlanırdı, mənim ifam gələndə Rəşid ansamblın üzvlərini çağırırdı ki, gəlin qulaq asın, görün bu adam kiçik taxta parçası ilə tamaşaçıları necə cəlb edir. Hansı ölkə olur-olsun, həmin şey təkrarlanırdı. Rəşid deyirdi, bax bu sirri öyrənmək lazımdır. İngiltərədə idik. Mən çalanda qaraqaş, qaragöz bir qız gül dəstəsi verdi mənə. Gülün arasına kiçik məktub qoyulmuşdu. Məktubda yazmışdı:

*Ulduzları saya-saya*
*İnsan çıxır aya.*
*Mənim bu taydan o taya*
*Əlim çatmır sənə, qardaş.*

Bəxtiyar Vahabzadə, Əli Kürçaylı da tamaşaçıların arasında, həmin konsertdə idilər. Konsertdən sonra mer bizə ziyafət verirdi. Orada mən məktubu çıxarıb göstərdim, Bəxtiyar ağladı. Soruşdu ki, Habil, bilirsən, bu qız kimdir? Dedim, xeyr. Dedi, bu qız İrandan gəlib, burada təhsil alır. Fürsət düşüb, ürəyinin ağrısını səninlə bölüşüb. Vətənə qayıdandan sonra Bəxtiyar həmin şeirin təsiri ilə böyük bir poema yazdı.

■

Tofiq Quliyev Filarmoniyaya müdir gəldi. Bir müddətdən sonra uzun illərdən bəri xalq musiqisinin ştatda olan işçilərini, yəni Xan Şuşinskini, Şövkət Ələkbərovanı, Sara Qədimovanı, Əbülfət Əliyevi, Fatma Mehrəliyevanı, Qurban Pirimovu, Allahyar Cavanşirovu və məni işdən çıxartdı. Gedin «Azkonsert»də işləyin, deyib yola saldı. «Azkonsert»də məvacib yox idi, yəni konsert olsa, oxusan, çalsan, hər çıxışa görə çox az məvacib verirdilər. Hamımız konsert vermək üçün rayonlara, kəndlərə gedirdik. Çox əziyyət çəkirdik. Bir dəfə öz briqadamı yığıb rayonlara getməli idim. «Azkonsert»in müdiri İldırım Qasımov xahiş etdi ki, Əliyar Əmirov pensiyaya



*Çikaqoda. 2000*

getməlidi, konsert norması dolmamış qalır, onu da öz briqadana götür apar, konsert norması dolsun. Apardım. O vaxtkı Qutqaşen, indiki Qəbələ rayonuna getdik. Rayonda konsert verəndən sonra hər gün iki konsertimiz raykom tərəfindən müəyyən edilmiş kəndlərdə olurdu. Saat 3-də bir kənddə, 8-də də başqa kənddə. Gündüz konsertini vermək üçün Vəndam kəndinə getdik. Sədr yox idi. Axşam saat 7-də gəlib çıxdı. Sədrə dedim, biz saat 8-də Tüntül kəndində olmalıyıq, dedi ki, xeyr, ola bilməz, qoyun kəsdirmişəm, çörək yeyək, sonra gedərsiniz. Bu saat o kəndin sədri ilə danışaram, sabah gündüzə təyin edərlər konserti. Biz də arxayın çörək yeyib, çay içib, saat ikidə yola düşdük. Şoferə dedim ki, Tüntülün klubuna dəyək, sonra gedək. Gördüm, klubun işıqları yanır, çöldə də 2 nəfər siqaret çəkir. Sən demə, salon dolu adam, hamı bizi gözləyir. Vəndamın sədri bunlara xəbər verməyib. Mən əsəbi halda Əliyara dedim ki, bax mən hara getsəm, adam belə çox olur.

■

Növbəti səfərimiz Naxçıvana oldu. Briqadaya mən rəhbərlik edirdim. Qurban Pirimov, İldırım Həsənov, Almaz Rzayeva briqada üzvləri idi. Yeri gəlmişkən, deyim ki, Qurban əminin qızının əri Mirzə İbrahimov da Ali Sovetin sədri idi, ona görə bizə çox hörmət edirdilər.

Konsertlər yaxşı keçirdi. Gecələr çoxlu söhbət edirdik. Bir gün İldırım dedi ki, Qurban əmi, deyirsən, mənim atam, babam qızıl külçələrini sənin başından töküblər. İndi mən də, kasıb İldırım onların övladıyam. Əgər məni beş yüz manata görə öldürürlərsə, üstünə gəlsəm, verərsənmi? Qurban kişi qəlyanını eşə-eşə dedi, əşi, elə et ki, öldürməsinlər də!

■

Suriyada aeroportda əyləşmişdik. Rəşid Behbudov, Şövkət Ələkbərova, Hacı Məmmədov, Çingiz Sadıxov və mən uçuş vaxtını gözləyirdik. Birdən Rəşid mənə baxıb dedi ki, Neftonun başını yedin də. Dedim, Rəşid müəllim, məni təhqir etmə, çünki Neftonun başını it də yeməz.

Gülüşdülər.

■

İtaliyada hotelə gəldik, hərə öz açarını götürüb getdi otağına. Xalq ar-

tisti olduğum üçün mənə ayrıca otaq verilmişdi. Birdən Arif Babayev qapını açıb içəri girdi. Bəh-bəh, nə gözəldi, təkadamlıq otaq. Kaş yerində olaydım, məni Həbib Bayramovla bir otağa salıblar, – dedi. Dedim, Arif, istəyirsənsə, yerimizi dəyişək. İnanmadı. Mən çamadanımı götürüb, onun Həbiblə qaldığı otağa getdim. Bu işə üçümüz də sevindik. Çünki mən tək qalsaydım, çox darıxardım. Az keçmədi, Arif qapını açıb içəri girdi:

– Sən öl, yaman darıxdırıcıdır, – dedi.

Həbib də, mən də etiraz etdik ki, artıq başqa cür ola bilməz.

Arif:

– Yaxşı da, burda sizinlə oturaram, yatanda gedərəm otağıma, – dedi, qapını açıq qoyub getdi qəlyanını gətirsin. Dedim, Arif, qapını ört. Örtdü. Qəlyanını götürüb gəldi, yenə qapını açıq qoydu. Dedim, Arif qapını ört. Örtdü. Sonra dedi, alışqanım yadımdan çıxıb. Yenə qapını açıq qoyub gedəndə dedim, Arif, qapını ört, örtdü və getdi. Alışqanı gətirib, oturanda yenə qapını açıq qoydu.

Gözlərimi zilləyib buna baxdım. Soruşdu, niyə baxırsan? Dedim, sənin kimi yaşamağa nə var e, bayaqdan altı dəfə demişəm ki, qapını ört!

■

Tümendə Azərbaycan günləri keçirilirdi. Məni də aparmışdılar. Ümumi rəhbər Həsən Həsənov idi. Üç yüz nəfərə qədər adam getmişdi. Birinci açılış günündən məni başa düşdülər. Çox gözəl alqışlayırdılar. Axırda yazıçı Hüseyn Abbaszadə dedi ki, Həsən müəllim, bu qədər adam nəyə lazım idi, elə təkcə Habil bəs idi.

Hüseyn Abbaszadə Bakıya qayıdandan sonra «Kommunist» qəzetində dərc etdirdiyi böyük bir məqalədə də həmin sözü yazmışdı.

■

Günlərin birində Rəşid Behbudov zəng etdi ki, Habil, üçgünlük konsert üçün Şəkiyə gedirik, sən də gəl. Sözünü yerə salmadım. Dedim, baş üstə, getdik. Mənim də adımı afişaya yazdırmışdı. Şəkidə bacım qızı öz ailəsi ilə yaşayır. Birinci konsertin ertəsi günü onun yoldaşı bizi evlərinə qonaq apardı. Rəşid müəllim qonaqlığa getmədi, ansamblın dörd üzvü ilə getdik. Məclisin şirin yerində bir nəfər gəldi. Çox əsəbi idi. Hamımız durub ona əyləşməyi təklif etdik. O oturdu, amma heç nə yemədi. Dedi, Habil, oğul, mən gəlmişəm, sözlərimi sənə deyib gedim.

– Buyur, əmi, – dedim.

– Sən Şəkidə toylarda çox olmusan, Şəkiyə bələdsən. Hörmətsizlik elədin, iki yarımçıq şey çalıb getdin. Ona görə hamı səndən narazı qaldı. Axı bu adamlar ora sənin xatirin üçün gəlmişdi.

Dedim, əmican, axı bu mənim konsertim deyil, Rəşid müəllimin konsertidir. Odur ki, mən ancaq iki şey çalmalı idim.

Yoldaşlar da diqqətlə qulaq asırdılar. Kişi lap əsəbiləşdi.

– Əşi, bura bax, məni ələ salma, biz Rəşidin nəyinə qulaq asaq, ağacda leyləyinə? Bəyəm biz ağacda leylək görməmişik?

– Əmican, sən nə danışırsan? Rəşid dünyada məşhurdur.

– Əşi, getsin, dünyada oxusun da, qoymuram ki?! Bura Şəkidir, onun yeri deyil. Uzun sözün qısası, Şəki səndən çox bərk incidi, ancaq sən tək konsert verib camaata doyunca kamança çalsan, xalqın könlünü ala bilərsən, – deyib getdi.

■

Çox ölkələrə səfərim olub. Məsələn, Amerika, İngiltərə, Yaponiya, Almaniya, Fransa, İtaliya, Finlandiya, Bolqarıstan, İrlandiya, Şotlandiya, Uels, Əfqanıstan, Hindistan, İsveç, Türkiyə, İran və s. İstəyirəm ki, ən maraqlı olan İran səfərimdən bir az söhbət açım.

Evdə idim, telefon zəng çaldı. Soruşdum, kimdir, zəng edən adam salam verib dedi ki, Habil müəllim, sən məni tanımırsan, İrandan gəlmişəm. Səninlə çox vacib görüşməliyəm, Filarmoniyanın qabağında səni gözləyirəm. Dedim, gözlə, gəlirəm. Getdim, gördüm çox ağayana adamdır, adı da Əlidir. Şimranda yaşayır. Dedi, Habil müəllim, gəlmişəm, səni İrana dəvət edim. Soruşdum, bəs İranda musiqi qadağan deyilmi, dedi, səni konsertə aparmıram, qonaq kimi dəvət edirəm.

Soruşdum, xanımı da aparmaq olarmı? Dedi, çox yaxşı olar, hətta xanımı da çox sevinər.

Soruşdum, bəs bizim üçün dəvət ala biləcəkmi? Dedi, Habil müəllim, təki siz söz verin, düzələr.

Əli dedi, İran səfirliyində qohumu çalışır və o bizə zəng edib dəvətnamə verəcək.

Bəli, belə də oldu. Astaranı keçdik o taya. Allah-Allah, nə gördüm?! Həqiqətən, qorxdum. Gördüm Əli gözləyir, amma ətrafında çoxlu adam var.



*Mərhum müğənni Nəzakət Məmmədova və Cənubi azərbaycanlı sənətçilərlə. London.1978*




*Habil Əliyev sənət dostları ilə Yaponiyada*

Adamlar məni görüb yüyürdülər. Hamı dəlicəsinə görüşüb-öpüşmək istəyirdi. Əli məni bunların əlindən alana qədər qan-tərin içində qaldı. O tay bu tayı nə qədər sevirmiş?!

Əlinin maşınında, yol aldıq Tehrana sarı. Hətta mən hönkürtü ilə ağladım, dedim, Allah, bu nə mənzərədir, adam dəli ola bilər. Biz ora çatanda Əli dedi, hələ bu nədir, görərsən, nələr olacaq.

Əlinin evi Şimrandaydı. Biz ora çatanda hava bərk soyuq idi. Yer tamam buzla örtülmüşdü. Maşından düşmək mümkün deyildi. Əli çox təvazökar və həyatı düzgün başa düşən adam idi. Onun evində çay içib, bir az özümüzə gəldik. Telefon heç susmurdu. Əli xanımına tapşırdı ki, kim soruşsa, desin, hələ gəlməyiblər. Əlinin məni gətirəcəyi barədə çox adam eşidibmiş. Artıq hava qaralıb, axşam olurdu. Qapı döyüldü, Əli getdi qapıya və and içdi ki, yorğundu, yatıb. O adam isə elə hey deyirdi ki, qoy girim evə, heç olmasa uzaqdan görüm, çıxım çölə. Sən demə, söz yayılıbmış ki, Əli məni gətirə bilməz. Odur ki, bu adam gəldiyimi yəqin etmək istəyirmiş.

Əli axırda gəlib dedi, ay usta, dağdan ağır adamlar gəlir, onları dala qaytarmağa utanıram, sən dur geyin, otur, bəzilərini içəri buraxım, səninlə görüşüb getsinlər. Durub əyləşdim. Onu bildim ki, küçədə, o şaxtada, buzun üstündə dayanan adamların sayı-hesabı yox idi. Dedim, Əli kişi, doğrusu, bu şaxtalı havada heç adamın ən yaxın qohum-əqrəbası gəlməz. Əli kişi sözümü kəsdi:

– Bəs bunlar kimdir, elə həmin qohum-əqrəbadı, dəəə... Çoxdandı bir-birimizdən aralı düşdüyümüz üçün tanımırıq.

Əli kişi adamlara söz verdi ki, sabah görüşmək üçün hamıya imkan yaradacaq. Bəli, səhər açıldı. Kaş kamera olaydı, o görüntülər çəkiləydi. Bilirsinizmi, bu görüşlər nə üçün bu qədər hərarətli olurdu? Çünki, İrana sənət adamlarından birinci dəfə mən getmişdim. Özü də, sən demə, məni çox sevirlərmiş.

Əli kişinin böyük qonaq evi dolur, boşalırdı. Get-gəl gecəyə qədər davam etdi. Ertəsi gün də eynən! Bir də gördüm Təbrizdən bir təyyarə adam gəlib. Ev tutana qədər gəlib əyləşdilər. Həmin səmimiyyət, həmin öpüşlər, bir az da artıq olmaq şərti ilə. Bu qonaqlar üçün çox yanıqlı bir «Segah» çaldım. Çoxları ağlayırdı.

Qəfildən bir nəfər ayağa qalxıb bərkdən ağlaya-ağlaya, ay usta, ay usta, həsrət bizi ağlar qoydu, dedi. Mən də qəhərlənib dedim, elə edin ki, mən ağlamayım, çünki mən ağlasam, Azərbaycan bütövləşənə qədər gözümün yaşı qurumayacaq.

Əli təəccüb içərisində yanıma gəlib dedi:

– Ay usta, bilirsən, kim gəlib? Heç gözlərimə inana bilmirəm. Ay usta, Şəcəryan gəlib, yanında da iki böyük adam.

Mən Şəcəryanın çox böyük sənətkar olduğunu bilirdim, radioda çox qulaq asmışdım. Amma heç görüşməmişdim.

Gəldilər içəri, biri mənimlə çox səmimi görüşdü. Bildim ki, Şəcəryan budur. Görüşən kimi dedi, ay usta, siz burada narahat olarsınız, gəlmişəm, sizi aparam öz evimə. Dedim, çox sağ ol, bura çox rahatdı.

Mənim ürəkdən minnətdarlığıma baxmayaraq, qonaqlar Əli ilə danışdı ki, heç olmasa üç gün bizi aparsın, sonra yenə geri gətirərlər. Əli çox çətinliklə razılaşdı. Çünki mənimlə görüşə yenə də çoxlu adamlar gəlirdi.

Nə isə. Getdik Şəcəryangilə. Şəcəryanın xanımı azərbaycanlı idi. Düz on gün bizi buraxmadılar və hər axşam İranın çox böyük sənətkarları mənimlə görüşmək üçün bura gəlirdi. Əli incik halda gəlib dedi ki, ay usta, səni mən gətirmişəm. Səni İrana kim gətiribsə, onlarda da qalmalısan.

Şəcəryana dedim, ay usta, haqlıdı, Əli bu işdə çox böyük zəhmət çəkib, icazə ver, biz gedək.

Əligilə qayıdandan iki gün sonra bir iş adamı öz xanımı və İranda çox tanınmış, bizim Ulu öndərimizin portretini çəkən rəssam Vədut Müəzzinlə gəldi. 10 dəqiqədən sonra Əlidən xahiş etdilər ki, ustanı 2 günlük qonaq aparaq, yenə də qaytarıb gətirək. Bunu eşidən Əli çox bərk əsəbiləşdi. Dedi, ay qardaş, belə şey olarmı? Nə çətinliklə gedib Bakıdan evimə qonaq gətirmişəm, hamı deyir, ver biz aparaq, bizim qonağımız olsun. Nə üçün, nə üçün axı? İnşallah, usta gedər Bakıya, sonra gedib oradan qonaq gətirərsiniz.

Mənə üz tutub dedilər ki, biz Ərdəbildənik, amma Tehranda yaşayırıq. Ərdəbildən nə qədər adam zəng edib deyir ki, usta gəlib, Tehrandadır, nə olar onu gətir evinə, biz də gələk görək. İndi o qədər adamı mən Əlinin evinə necə gətirim. Dedim, ağalar, bu



*Məşhur iranlı muğam ifaçısı Şəcəryanla birgə konsert zamanı*

işi ancaq Əli bilər, çünki mən onun qonağıyam. Allah-Allah, bunlar Əliyə necə yalvarırdılar, gözlərimə inana bilmirdim. Əli Şəcəryanın arxasınca deyindi, dedi, guya, o da ikigünlük aparmışdı, amma on gündən sonra gedib birtəhər aldım əlindən.

Gələn xanımlardan biri ağladı və dedi, qayınatası-qayınanası çox qocadı, yeriyə bilmir, onu bura mənim dalımca göndəriblər. Əli gördü, məni də ağlamaq boğur. Soruşdu ki, telefon nömrəniz neçədir? Nömrəni dedilər. Yazdı və dedi:

– Elə edin ki, mən sizə zəng etməyim, iki gündən sonra ustadı gətirin.

Razılaşdılar. Getdik Abbas adlı bir şəxsin evinə. Ev adamla dolu idi. Bizi görən kimi hamı ayağa qalxdı. İki həsrətlinin görüşü nə qədər ağır olurmuş?!

Ağlamaq səsindən qulaq tutulurdu. Həmin gün bu mənzərəni yaşadıq.

Ertəsi gün telefon zəng çaldı. Abbas telefonu qaldırdı və çox həyəcanlı danışdı:

– Bəli, baş üstə, sabah saat on birdə Sizin yanınızdayıq.

Ay usta, zəng edən bizim baş idarədən – İRŞADdan Ağayi Muradxanidir. Sabah saat on birdə onun yanında olmalıyıq, dedi və İRŞAD haqqında mənə məlumat verdi.

Ertəsi gün getdik İRŞADa, Ağayi Muradxaninin yanına. Bizi çox səmimi qarşıladı və söhbətə başladı:

– Bu günlərdə inqilab bayramı olacaq, ona görə bir neçə ölkədən qonaqlar dəvət etmişik. Bakıdan da qonaq dəvət etməli idik, nə yaxşı oldu ki, siz özünüz gəlib çıxmısınız. İcazə verin, bu gündən sizi rəsmi qonaq kimi sənədləşdirim. Amma bir məsələ var. Şəxsi evdə qalmaq olmaz. Yaxşı qonaq evimiz də var, hotelimiz də. Hansında istəsəniz, qalarsınız.

Bəli, mən və xanımım qonaq evində yerləşdik. Burada bir qoca kişi bizə qulluq edirdi. Bir iş görəndə elə bil quş kimi uçurdu. Ondan soruşdum, əmi, neçə yaşın var? Dedi ki, 1317-ci ildənəm. Mən buna güldüm, amma o, çox ciddi dayanmışdı. Soruşdu ki, bəs niyə gülürsən? Mən yenə gülə-gülə dedim ki, çox yaxşı qalmısan. Sonra bildim ki, təvəllüdünü müsəlman tarixi ilə deyib.

İranda məclisdə gördülər ki, siqareti çox çəkirəm. Bir nəfər dedi, ay usta, siqaret çəkmə, o səni öldürər. Dedim, o sözü sizdən qabaq mənə neçə-neçə həkim-professor deyib, onlar ölüblər, amma mən hələ sağam, siqaretimi də çəkirəm.

Gülüşdülər.

İranda birinci rəsmi konsertim Bəhdətdə oldu. Heç vaxt görmədiyim tamaşaçıları gördüm. Əksəriyyəti başı əmmaməli din adamı idi. Tamaşaçılara baxan kimi başa düşdüm ki, burada ancaq muğam və lirik mahnılar çalmaq lazımdır. Konsert istədiyim kimi alındı. Ağayi Muradxani gəlib dedi ki, usta, çoxlu konsertlər olacaq, amma əvvəlcə Məşhədə gedib ziyarət etmək lazımdır. Razılaşdıq. Bizə kömək üçün iki nəfər ayrıldı. Məşhədi ziyarət edib qayıtdıq Tehrana. Növbəti konsert başladı. Birinci sırada İranın tanıdığım böyük sənətkarları Əli Təcvidi, Cəlil Şahnaz və Əlirza Şəcəryan öz ailələri ilə əyləşmişdilər. Məni zərb alətində müşayiət edən

Şəcəryanın oğlu Humayın idi. Professor Təcvidinin «Rəfdəmki» mahnısını çaldım. Alqışlar altında Təcvidi səhnəyə çıxdı və məni təbrik edib Azərbaycana olan unudulmaz səfərlərindən danışdı. Sonra mən Şəcəryanı səhnəyə dəvət etdim. Bütün tamaşaçılar ayağa qalxıb alqışladı. Şəcəryan bir neçə gözəl söz deyəndən sonra əyləşdik. Mən soruşdum ki, Ağa, nə oxumaq istəyirsən? Dedi «Mahur». Bəli, başladıq. Qurtarandan sonra gurultulu alqışlar dayanmadı. Sonra «Segah»ı təsnifi ilə birgə çalıb-oxuduq. Sürəkli alqışlar altında Şəcəryan gedib yerində əyləşdi. Konsert iki saatdan çox davam etdi, amma camaat yerindən tərpənmədi və sonda gurultulu alqışlar altında məni səhnədən yola saldılar.

■

Bizi Leninqradda Azərbaycan günlərinə apardılar. Gedənlərə rəhbərliyi rəhmətlik Rəsul Rzaya tapşırmışdılar. Yığıncaqdan sonra çox böyük ziyafət təşkil olunmuşdu. Həmin gecədə mən də iştirak etmişdim. Məclisdə olan yerlilərin əksəriyyəti yazıçı və şair idi. Bir az yeyib-içəndən sonra xahiş etdilər ki, onlar üçün nəsə çalım. Mədəniyyət Nazirliyinin işçisi Davud Balayeviç gedib otağımdan kamançanı gətirdi. Mən həm Azərbaycan, həm də rus mahnıları çalırdım. Yazıçılar İttifaqının sədri Vasilyev dedi ki, bu aləti çox görmüşəm, amma belə ifa görməmişəm. Davud Balayeviç dedi, bəli, o, Azərbaycanın Paqaninisidir. Rəsul Rza onun sözünü kəsib dedi, xeyr, o, Azərbaycanın Habilidir.

Məclis davam edirdi. Bir neçə şair şeir oxudu, nəhayət, Rəsul müəllimdən xahiş etdilər ki, o da öz şeirlərindən birini desin. Rəsul müəllim nə qədər dedisə də ki, heç bir şeirini əzbər bilmir, əl çəkmədilər. Kağız salfetkanı götürdü, qələmini çıxarıb nə isə yazdı. Hamı gözləyirdi. Rəsul müəllim salfetkaya bir sərbəst şeir yazmışdı. Başladı şeiri oxumağa. Yadımda ancaq mənası qalıb. Deyirdi ki, siz məni məcbur edirsiniz, şeir oxuyum, axı mən Nizami deyiləm, Füzuli deyiləm, Seyid Əzim deyiləm. Beləliklə, bütün dahi şairlərimizin adlarını onlara sadaladıqdan sonra, axırda dedi ki, amma onlar da Rəsul Rza deyil.

■

Xaricə səfərlər çoxalmışdı, amma heç getməsən, ondan yaxşı idi. Çünki orada xərcləməyə elə az pul

verirdilər, kimə desən inanmazdı. Ancaq uşaqlara saqqız almağa çatırdı.

Əvvəlcə gedən adamları çağırırdılar raykoma. Qoca kommunistlər kommunizmin əsaslarından, Marksdan, nə bilim nədən, əttökən suallar verirdilər. Bir dəfə də yenə bizi çağırırlar sual-cavaba. Nağaraçalan Böyükağa çox gözəl cavab vermişdi ki, mən getmirəm, yoxlayın, marksizmi kim yaxşı bilirsə, qoy nağaranı da o çalsın.

Onu bu sözə görə nə qədər incitdilər.

İnsan hüququndan söz gedə bilməzdi. Amma hamı dözürdü ki, həbsxanaya düşməsin. Ürəkləri dözməyib ölənlər də çox olurdu. Onu da deyim ki, incidənlər də sapı özümüzdən olan baltalar idi.

Bir dəfə Həbib Bayramov və Arif Babayevlə Fransa, İtaliya və İsveçə getmişdik. Ağdaşda bizim qohumların arasında söz gəzirdi ki, mənim alman müharibəsinə gedən dayım oğlu Heydər ölməyib, sağdır, özü də İsveçdə yaşayır. Parisdə konsert verdik. İrandan olan bir azərbaycanlı bizi şam yeməyinə dəvət etdi. Söhbətin şirin yerində bizi qonaq edən oğlan dedi ki, sizin üçün İsveç çox maraqlı olacaq, çünki orada azərbaycanlı çoxdur. Mən soruşdum ki, sən onları tanıyırsanmı? Dedi ki, demək olar, yarısından çoxunu tanıyıram. Mən soruşdum, onların içində Heydər adlı adam varmı? Dedi öyrənərəm. Biz getdik İsveçə. Sən demə, bu iranlı oğlan İsveç radiosuna zəng vurub elan etdirib ki, mən, Habil Əliyev, gəlmişəm konsert verməyə. Əgər Heydər buradadırsa, gəlsin görüşək.

Bizim rəhbərimizi çağırırlar rus səfirliyinə ki, gör nə öyrənə bilərsən, bizə məlumat ver. O deyir ki, mən bunların hələ heç birini bilmirəm və onu bilirəm ki, mənim uğurum yaxşı olur.

Hər konsert qurtaranda rəhbərimiz məni öpürdü, çox gözəl əhval-ruhiyyədə olurdu, amma iki gün idi görürdüm qanı qaradır. İtaliyada bir milyoner qadının mehmanxanasında qalırdıq. Həmin xanım da konsertdə olmuşdu və bizimlə gedən tərcüməçi yəhudi qadına tapşırmışdı ki, Habili apar mənim studiyama, orada bir disk yazsın, çoxlu pul verəcəm.

Rəhbərimiz rus kişi, konserti aparan rus qadın, bir də yəhudi qadın bir yerdə məsləhətləşib dedilər ki, həmin yəhudi arvad mənə səfirin adından desin, gedib kasetə yazılmaq üçün ifa

edim. Elə də oldu. Getdim ifa etdim. Hotelin foyesində oturub siqaret çəkirdim, bir də gördüm, həmin xanım yəhudi qadınla gəldilər yanıma. Həmin xanım nə deyirdisə, yəhudi mənə tərcümə edirdi. Deməli, qadın mənə təşəkkür edib soruşdu ki, sən də məndən razı qalmısanmı? Mən də dedim, bəli. Sonra xanım getdi. Mən yəhudidən soruşdum ki, o xanım mənə niyə bu sualı verdi? Yəhudi izah etdi ki, yəni hoteldə yerin rahatdırmı, onu soruşdu. Mən avam o vaxt başa düşdüm ki, bunların əllərində təzə çamadanlar, nələr-nələr haradandı.

Həbib mənə işarə edib dedi:

– Habil, sənə heç pul vermədilər?

– Xeyr.

– Axı mən sənə dedim, nəzarət elə, çünki xaricdə bir disk yazmağa külli miqdarda pul verirlər.

Rus rəhbərimiz bizim Təhlükəsizlik Komitəsinə yazır ki, Habili çox dərindən yoxlayın. Həbibi və Arifi çağırıb danışdırırlar ki, Habil radioya gedəndə siz gördünüzmü? Sonra gediblər Ağdaşa, bütün qonşularımızı danışdırıblar. Onlar da hamısı deyib ki, biz onunla fəxr edirik. Nəhayət, özümü çağırdılar Təhlükəsizlik Komitəsinə. Dedilər, nazir səninlə tanış olmaq istəyir. Mənə sual verdi ki, İsveç radiosu ilə çoxdan əlaqən var? Məni dörd dəfə çağırdılar, hər dəfə də eyni sualı verdilər. Axırda əsəbi halda dedim ki, siz məni ələ salmısınız, ya özünüzü. Radio nədir? Axırda Eldəniz adlı biri mənə dedi ki, Habil müəllim, sən bu səfərə getdiyin gündən nələr olub asta-asta mənə danış. Başdan başladım danışmağa. Fransada olan əhvalatı, sonra İtaliyada olan əhvalatı. Artıq Eldəniz dedi ki, məsələ tamam aydındır. Gərək sən onlardan şikayət edəydin ki, sənin pulunu yeyiblər. Habil müəllim, Fransada sizə hörmət edən adam pislik məqsədilə deyil, sənə kömək məqsədilə edib, amma belə alınıb ki, burda hamı dəyib bir-birinə. Əgər sən İtaliyada yazdığın diskin pulunu xanımdan özün almış olsaydın, bu şeylər heç biri olmazdı.

Mənim başıma nə gəlibsə, ancaq avamlığımdan gəlib. Daha doğrusu, təmizliyimdən...

## MARAQLI ƏHVALATLAR SƏNƏTKARIN ÖZ QƏLƏMİNDƏ

Mən toylara gedən vaxt ən şirin və mənalı toylar Sabirabad rayonunda olardı. Onlar məni, mən də onları çox sevirdim. Günlərin birində yenə Sabirabadın bir kəndində toyda idim. Toy çox şirin keçirdi. Birdən bir oğlan yaxınlaşıb dedi ki, Habil müəllim, mənim üçün bir «Segah» çal, içində «Şur» da, «Rast» da, «Çahargah» da, «Bayatı-kürd» də olsun. Oğlana baxdım-baxdım, dedim, baş üstə, bu şərtlə ki, sən də get mənə bir qarpız gətir, içində pomidor, xiyar, badımcan, kələm olsun. Oğlan dedi, Habil müəllim, elə şey olar? Dedim, niyə olmur?! Sən deyən «Segah»ı ancaq o qarpızı yeyəndən sonra çala bilərəm.

Oğlan gülə-gülə getdi.

■

Gözəl şairimiz və çox tez aramızdan gedən Əli Kərimə Allah rəhmət eləsin. Onunla bir gün metroda görüşdük. Dedi, Habil, düz üç dəfə sənə şeir yazmışam ki, səhər aparım verim jurnala, tərs kimi axşam çalmısan, görmüşəm şeir zəifdi, tez cırıb atmışam.

Mənə həsr etdiyi şeiri o rəhmətə gedəndən sonra oxudum. Sağ olsaydı, onu neçə dəfə öpərdim, Allah bilir.

■

Mənim bir əmim oğlu vardı, yalanı o qədər şirin deyərdi ki, adama ləzzət edərdi. İstərdim onlardan bir neçəsini yazım.

Bir dəfə qayıtdı ki, siz bir şeyi bilirsiniz?

– Nəyi? – dedilər.

– Lenin ağdaşlıdır.

Gülüşmə qopdu.

– Niyə gülürsünüz? Şəxsən mən özüm əlli dəfə onun anasından semeçka almışam.

– Çapayev kinosundakı Petkanı görmüsünüz?

– Bəli, – dedilər.

– O mənim yaxın dostumdur. Bu yaxınlarda Mingəçevirdə məsciddə mərsiyə deyirdi.

Mən artıq Bakıda yaşayırdım. Bir gün Ağdaşa getdim. Əmioğlu gəldi bizə, görüşdük, soruşdu işləyirsənmi? Dedim, bəli, Filarmoniyada. Lap yaxşı, gedərsən nazirliyə, orda mənim bir dostum işləyir, çox yaxşı oğlandı, familiyası da ya Fatmayevadır, ya da Tükəzbanova. Elə deyərsən, mən Abışın əmisi oğluyam. Görərsən, o neyləyəcək.

– Bir də yadımda ikən bir söz deyim. Həmişə bazardan yumurta alanda yoxla.

– Necə yoxlayım, əmioğlu?

– Vur yerə, sınsa, alma. Çünki o sınan yumurtaların hamısını əldə düzəldirlər və əlli şey qatırlar içinə.

■

Ağdaş rayonunda əmimlə bir binada yaşayırdıq. İki otaq əmimgildə, iki otaq da bizdə idi. Həyəti ayırmışdılar, qapılar ayrı-ayrı, amma uzun eyvanımız bir idi. Şəhərə gedib qayıdanda, kəsmə olsun deyə, əmimgilin həyətindən gedirdim. 16 yaşım var idi. Rayonumuzda yaşayan qocaman xanəndə məni toylara aparardı. Bir gün də getdim toya, gecə saat 3-də evə gəldim. Bu dəfə də əmimgilin darvazasından girdim həyətə, yavaş-yavaş getdim eyvana sarı. Evin qarşısında bir tut ağacı var idi, onun altından keçib eyvana çıxmalıydım. Gördüm kəfənə bürünmüş ölü kimi bir şey qarşımda uzanıb, hərdən də yavaşca tərpənir. Qayıtdım geriyə, ağacların arası ilə getdim eyvana. Pilləkənə ayaq qoymuşdum ki, elə bil məni qaldırıb vurdular yerə. Bu zaman əmim arvadı başını qaldırıb, Habil, sənsən? – deyə soruşdu. Səsim çıxmadı. Əmim arvadı bildi, çox qorxmuşam, ona görə gülə-gülə dedi ki, Habil, tut ağacının altında yatan qonaq şofer Tağıdır. Evdə taxtabiti var deyə, gedib orda mələfə salıb, üstündə yatıb.

Ondan sonra bir az özümə gəldim.

■

Necə ki, özüm zarafatı sevirəm, eləcə də eşitdiyim məzəli söhbətlər ömür boyu yaddaşımdan silinmir. Bu əhvalatları yaxın adamlara danışmaqdan ləzzət alıram. Belə bir lətifə eşitmişəm!

Qış gecələrinin birində kişi arvadına deyir, arvad, qaranlıqdır, çırağı götür, gəl həyətə, bayıra çıxmağım var. Arvad çırağı tutur, kişi bayıra çıxır. On dəqiqədən sonra kişi arvaddan



Habil Əliyev. 1965

soruşur ki, qaranlığa baxırsan? Bilirsən, nə gözəl karvan qabağı kəsməli gecədir? Arvad çox soyuqqanlılıqla deyir, a kişi, qurtar dana, ayaqlarım dondu soyuqdan.

■

Rəhmətlik Qurban Pirimov bazardan gələndə rəhmətlik Paşa kişi ilə rastlaşır. İki qocaman tarçalan görüşür. Sən demə, Qurban əmi kəlləpaça alıb gətirir. Paşa kişi soruşur ki, Qurban, kəlləpaça almısan? Qurban əmi deyir, bəli. Paşa kişi deyir ki, hə... bunu aparарsan, yaxşı ütərsən, sonra parçalayıb tökərsən qazana. Orda sabaha kimi qaynayar, sonra səhər-səhər vurarsan bədənə. Qurban əmi deyir ki, əşi, səni Allah nə yaxşı yetirdi mənə, yoxsa aparıb tüklü-tüklü yeyəcəkdim.

■

Bakıya köçəndən çoxdandır, Ağdaşa getmirdim. Ürəyim istədi, gedim qohum-əqrəba ilə görüşüm. Səhər-səhər şəhərə çıxdım. Qocaman xanəndə Veyis dayı ilə rastlaşdım və çox səmimi görüşdük. Soruşdum, Veyis dayı, necəsən? Dedi, Habil, soruşma, bala, elə xəstələnmişdim ki, gedib o dünyanı görüb gəldim. Dedim, əşi, buralara yel əsib qoz tökülüb məgər? O boyda yolu gedib bir də nahaq yerə qayıtmısan bura.

■

Bir vaxt Azərbaycan xaraba kimi idi. Heç bir şey tapılmırdı. Xanımımla getdik Moskvaya ki, oradan uşaqlara bazarlıq edək. Bəli, girdik böyük univermağa. Bu zaman çox yaxın dostum Fikrət doktorla rastlaşdıq. Biz Fikrətlə bir rəfə söykənib dayandıq və başladıq söhbət etməyə. Xanımım isə növbəyə durdu ki, nə isə alsın. Bəli, xanım alıb gətirir, mən isə saxlayıram. Birdən dönüb arxaya baxdım, gördüm, bu şöbədə satıcı gözəl rus qızıdır. Xanım nəsə alıb gətirdi, yenə getdi başqa növbəyə ki, başqa nəsə alsın. Həmin rus qızı o qədər mədəni idi ki, bir dəfə də olsun bizə demədi ki, dükanın qarşısını kəsməyin. Yenə xanımım nəsə alıb gəldi, soruşdum ki, arvad, qurtardınmı bazarlığı? Dedi, burada hə, indi gedək başqa univermağa. Xanımıma gözəl rus qızını göstərib dedim, gəl bu qızı da alıb aparaq. Xanım mənə baxdı ki, zarafatcılam, təəccüblə soruşdu, qızı neyləyirik? Dedim, sənə lazım olanda sən işlədərsən, mənə lazım olanda mən.

■

Keçmişdə bir tacirin qızıl qəfəsdə tutuquşusu varmış. Tacir tutuquşunu çox sevərmiş. Hər gün onun nazıyla oynarmış. Günlərin birində tacir hazırlaşır ki, Məkkəyə ziyarətə getsin. Bütün hazırlığını tamamlayır, uşaqları və xanımı ilə görüşüb evdən çıxır. Bu zaman tutuquşu taciri haraylayır. Tacir qayıdıb gəlir. Tutuquşu soruşur ki, bəs mənimlə nə üçün görüşmədin? Tacir quşdan üzr istəyir və soruşur:

– Səninçün oradan nə alım gətirim?

Quş deyir, mənə heç nə lazım deyil, amma bir xahişim var. Tacir deyir, eşidirəm. Tutuquşu deyir, and iç ki, ziyarətə gedəcəksən, deyim. Tacir and içir. Quş deyir, ziyarətdən qayıdanda yolun 150 verstliyində bizim tutuquşuların məskəni var. Mənim salamımı çatdır və onlara olduğu kimi söylə ki, məni necə qızıl qəfəsdə bəsləyirsən. Tacir, baş üstə, – deyib gedir. Ziyarətdən qayıdanda görür ki, doğrudan da, elədir. Yolun kənarında minlərlə al-yaşıl tutuquşular cəh-cəh vurur. Tacir bunlara yaxınlaşıb təzim edir, sonra deyir:

– Əziz tutuquşular, sizlərdən biri 30 ildir mənim evimdə qızıl qəfəsdədir. Onu elə bəsləyirəm ki, heç məndən ayrı qalmaq istəmir.

Tacir sözünü qurtaran kimi quşlardan biri beş metrə qədər yuxarı uçub, sonra arxası üstə düşür yerə. Tacir danışdığına peşman olur. Fikirləşir ki, yəqin, bu ölən quş onun evindəki quşun əzizlərindəndir.

Nəhayət, tacir evə gəlir. Uşaqları ilə görüşəndə tutuquşusu həyəcanla soruşur ki, quşlarla görüşdünmü? Tacir demək istəmir, amma quş əl çəkmir. Axırda tacir məcbur olub deyir ki, kaş getməmiş olaydım. Nə üçün? – deyə quş əl çəkmir. Tacir olduğu kimi danışmağa başlayır:

– Mənim əziz tutuquşum, amma söhbətin axırı yaxşı qurtarmadı, qoy axırını danışmayım.

– Yox, danış, danış, – deyə tutuquşu haray salır.

Tacir məcbur olub danışır ki, mən söhbəti qurtaran kimi quşların bir gözəli göyə uçdu və sonra arxası üstə yerə düşüb öldü.

Tacir sözünü qurtaran kimi bunun da tutuquşusu qızıl qəfəsin içində qanad çala-çala ölür. Tacir çox peşman olur və qəfəsdən quşun ölüsünü götürüb, sığal çəkir, sonra da öpüb atır bağçaya.

Tutuquşu tacirin əlindən çıxan kimi uçub qonur ağaca. Gülə-gülə deyir ki, sən bu işdə getdiyin ziyarətdən də artıq savab qazandın.

Tacir təəccüblə soruşur:

– Mənim əzizim, 30 illik dostluğun axırı beləmi olur?

Quş deyir:

– Qulaq as. Dost dostunu qəfəsdə saxlamaz. Mənim qəfəsdə ziyarətə getmək imkanım olmadığı üçün Allah sənin bu ziyarətinin savabını mənə verdi. İndi məsələni danışım, bil. Sən ziyarətdən qayıdanda görüşdüyün quşlara mən sənin vasitənlə xəbər göndərdim ki, qəfəsdəyəm, nə edim? Həmin o ölən quş da sənin vasitənlə mənə xəbər göndərdi ki, yaşamaq üçün ölmək lazımdır.

■

Köhnə xanəndələrdən İslam Abdullayev çox qocalmışdı. Bir gün gördüm, gəlib Filarmoniyanın bağına. Yaxınlaşıb görüşdüm, başladıq söhbət etməyə.

Bu zaman bir cavan oğlan gəlib bizimlə görüşdü, sonra dedi:

– İslam əmi, mən sənin dostun Xasayın oğluyam.

İslam əmi diqqətlə buna baxıb dedi:

– Bəri bax, mən bu yaxınlarda eşitdim Xasayın oğlu ölüb. Bilmədim ölən sənsən, yoxsa qardaşın.

Oğlan diqqətlə İslam əmiyə baxırdı. Birdən İslam əmi yuxudan oyanmış kimi dedi ki, boy, əşi, mənə bax ey, gör diri adamdan nə soruşuram eyyy...

■

Zakir müəllim artıq üç il idi, Filarmoniyada işləyirdi. Səhər-səhər işə gəldim. Qapını açıb içəri girəndə Zakir müəllim xoş əhval-ruhiyyə ilə mənə dedi:

– Habil, gəl tarını köklə, gedirik Bolqarıstana. Mən yavaşca dedim ki, Zakir müəllim, mən tar yox, kamança çalıram.

Zakir müəllim çox təəccüblə mənə baxıb soruşdu ki, bayyy, keçdin kamançaya?

■

Rəhmətlik Xan əmi ilə Filarmoniyada uzun müddət bir yerdə işləmişik. Gözəl səsə malik olan gözəl insan, unudulmaz sənətkar idi. Onun qardaşı rəhmətlik Allahyar da çox baməzə və dost olmalı adam idi.



*Habil müəllim Truskovetsdə. 1973*

Günlərin birində Xan əmi və Allahyar ilə Zərdab rayonuna toya gedirdik. Bu Allahyar da yuxulayan kimi çox bərk xoruldayırdı. Maşını xorultu səsi bürümüşdü. Hərdən Xan əmi dönüb mənə baxırdı. Dedim, Xan əmi, bu yazıq Allahyarın heç boş vaxtı yoxdur, bilirsənmi? Xan əmi soruşdu ki, nə barədə? Dedim, bunun işi ya yeməkdir, ya da xoruldamaq. Yazıq heç istirahət etmir. Xan əmi Zərdaba gedib qayıdana qədər güldü.

Bizim rəhmətə getmiş əsl sənətkarlara Allah qəni-qəni rəhmət eləsin. Əsl sənəti də götürüb özləri ilə aparıblar.

■

Bir oğlan bir qızla evlənir. Oğlanın bir qoca anası varmış. Bunlar çox mehriban yaşayırlarmış. Sən demə, gəlin görücü imiş, heç kim görməyən şeyləri bu görürmüş.

Bir gün oğlanın anası ölür. Adamlar tabutu çiyinlərinə qaldırıb gedəndə gəlin qəhqəhə çəkib gülür. Hamı təəccüb qalır ki, axı bunlar mehriban yaşayırdılar, bəs bu gəlin niyə gülür. Əri gəlini çağırıb soruşur ki, sən niyə gülürsən? Gəlin deyir ki, mən onu desəm, hamımıza ayıbdır. Nə üçün? – deyə oğlan soruşur. Gəlin deyir, sənin anan bu dünyada yetim-yesirə nə veribsə, hamısı tabutdan asılıb. Heç kim görmür, amma mən görürəm. Başlayır sadalamağa: bir tay köhnə çarıq, bir baş sarımsaq və bir parça kiflənmiş çörək. Odur ki, bu şeyləri görən kimi özümü ələ ala bilməyib güldüm.

■

Günlərin birində səhər-səhər iki nəfər ortayaşlı adam bizə gəldi. Mən bu adamları çox görmüşəm, amma yaxın deyilik. Əyləşdilər və söhbət açdılar:

– Habil müəllim, biz Lerik rayonundanıq, özümüz Bakıda yaşayırıq, özü də Eyvaz Mahmudovun kəndindənik. Qocamanımız bizə xəbər göndərib ki, siz hal-hazırda Habil müəllimlə yerlisiniz, çünki o da Bakıda yaşayır. İndi də qocamanımızın nəticəsinin oğlunun toyudur, bizə həvalə edib ki, səni öz dəstən ilə ora aparaq.

Dedim, çox xoş gəlmisiniz, amma inanın, əgər raykomun oğlunun toyu olsaydı, gedə bilməzdim, çünki yol çox uzaqdır. Amma bu toya lap yolda ölsəm də, gedəcəyəm. Qocaman hamımızın qocamanıdır, elə mən də onu görmək arzusundayam.

Nə isə, toy təyin olunduğu gün getdik. Mən bilirdim ki, talışların çox səliqəli məclisi olur. Bu məclis də xüsusilə gözəl təşkil olunmuşdu. Bir yaşlı adam bizimlə əyləşmişdi və süfrəyə nəzarət edirdi. Mən fikir verdim, gördüm, çox mədəni, ziyalı bir adamdır. Axşam çörək yediyimiz vaxt həmin adam dedi, Habil müəllim, mənə çox fikir verirsiniz, görürəm, kimliyimi bilmək istəyirsiniz. İcazə verin, deyim. Mən uzun müddət raykomda kiçik vəzifədə işləmişəm. Bir gün Mərkəzi Komitədən gəldilər, məni birinci katib təyin etdilər. Mən də bütün rayon fəallarını çağırıb iclas keçirdim, dedim, artıq bu gündən başlayırıq işləməyə, rüşvət almağı dayandırırıq. İndiyə qədər heç kimin Lerikə ürəyi yanmayıb, ona görə məqsədimiz rayonumuzdakı bütün problemləri həll etmək olmalıdır. Çox qızğın işə başlamışdıq, özüm də kabinetdə oturmurdum, işlərə nəzarət edirdim.

Bir ay idi ki, işlər çox yaxşı gedirdi. Lerikdə böyük dəyişikliklər hiss olunurdu. Bir də gördüm, kabinetin qapısı açıldı, katibə və iki cavan uşaq içəri girdilər. Katibə şikayət etdi ki, mən bu oğlanları saxlaya bilmirəm, elə zorla içəri soxulurlar. Oğlanlar əyləşdilər, mən bunlara baxdım, oğlanın biri dedi, biz Bakıdan gəlmişik. Soruşdum, nə üçün? Dedilər, sonra bilərsən. Uşaqlara dedim, qalxın ayağa, kabinetdən çıxın. Onlar gülə-gülə getdilər. İki gündən sonra gəlib məni işin üstündən çağırdılar ki, Bakıdan böyük adam gəlib. Gəldim kabinetə, gördüm ki, dörd nəfər əyləşib. Çox mədəni tərzdə söhbəti açdılar ki, Mərkəzi Komitə sizi başqa bir işə keçirmək şərti ilə bu yoldaşı da birinci katib təyin edib. Bəli, çıxdım gəldim evimizə. Bir neçə gündən sonra təzə katib məni çağırdı. Getdim. Soruşdu ki, hansı vəzifəni istəyirsən de, səni təyin edim. Dedim, vəzifə istəmirəm. Nə üçün? – soruşdu. Dedim, mən vəzifəyə yaramıram, göndər o taxta çəkilən sexə, orada işləyim. Katib inanmadı. Dedim, işləsəm, ancaq orda işləyərəm. Getdim sexə, başladım öz xeyrim üçün taxta çəkib satmağa. Bir gün katib yoldan keçəndə görür ki, polis işçiləri bir maşın taxtanı saxlayıblar. Yaxınlaşıb maraqlanır, deyirlər, bu taxtanın heç bir sənədi yoxdur, ona görə saxlamışıq. Raykom özü sürücünü dindirir. Sürücü deyir, taxtaları müdirin göstərişi ilə filan ünvana aparıram. Raykom polisi göndərdi mənim

dalımca. Getdim. Çatan kimi raykom dedi, sürücü günahını sənin boynuna atmaq istəyir, ona görə sənə əziyyət vermişəm. Dedim, sürücü düz deyir. Bəs niyə, bağışlamısan? – deyə soruşdu. Xeyr, satmışam, – dedim. Təəccüblə soruşdu ki, bəs niyə? Cavab verdim ki, səhvimi düzəldirəm. Bu yaxınlarda başa düşdüm ki, düzgün işləmək səhv eləməkdir. Sən demə, yanıma gələn cavan oğlanlar böyüklərin uşaqları imiş, məndən pul almağa gəliblərmiş. Ən əsas başa düşdüyüm isə o oldu ki, ədalətli dünya öləndən sonradır.

İki gün iki gecədən sonra ansamblın uşaqlarına dedim, uşaqlar, gəlin, gecənin sərin çağında gedək Bakıya. Saat 3-də çıxdıq yola və Lerikdən də bir nəfər yoldaşların maşınına əyləşdi. O da Bakıya gəlirdi. Mən maşınımda tək idim. Lerikdə xeyli aralı, sağ tərəfində iri qol-budaqlı ağaclarla dolu bir qəbiristanlıq var, bura yaxınlaşanda gördüm, çirkli ağ don geyinmiş, saçları üzünə tökülmüş bir qoca arvad yolun kənarı ilə yavaş-yavaş gedir. Maşını yavaşıtdım. Elə bildim, arvad xortlayıb. Maşını yavaş sürdüyüm üçün uşaqlarla aramda çox az məsafə qalmışdı. Onlar fikrimi duyurlar ki, mən arvadı maşınla vurmaq istəyirəm! Arxadan işıqları yandırıb-söndürərək məni dayandırdılar. Lerikdən uşaqların maşınına oturan adam düşüb gəldi yanıma. Hiss elədi ki, bərk qorxmuşam. Dedi, Habil müəllim, qorxmusan? Dedim, bəli, mən onu maşınla vurub öldürmək istəyirdim ki, hamı desin, Habil xortdan öldürüb. Dedi, Habil müəllim, xortdan nədir, mən bu arvadı tanıyıram. Gözünün ağı-qarası bir nişanlı oğlu var idi. O qızı sevən başqa bir oğlan onu vurub öldürdü. Həmin arvad oğlunun qəbrinin yanında bir qəbir də özünə qazdırıb, orda yatır, həftədə bir dəfə bu vaxtlar qəbirdən çıxıb gedir kəndə, bir az çörək yığır, yenə gəlib girir qəbrə. Allah-Allah, məni bir ağlamaq tutdu ki, nəfəs çəkə bilmədim. Lerikli oğlanı öpdüm ki, nə yaxşı işarə verib məni saxlatdınız.

Neçə vaxt özümə gələ bilmədim. And olsun Allaha, əgər o arvadı öldürmüş olsaydım, mütləq özümü də öldürərdim.

■

Bir hadisəni də unuda bilmirəm. Ağdaş rayonunun Şəkili kəndində olub.

Ataları müharibədə ölən iki yetim qardaş və bir ana kəndin köməkliyi ilə aclıqdan salamat qurtarırlar. Uşaqlar

böyüyür, kiçik qardaş sürücülük oxuyub, sürücü işləyir, zəhmətkeş bir adam olur. Böyük qardaş isə bir dövlətli arvad alıb onun hesabına yaşayır. Kiçik qardaş da özünə bab yerdən evlənir, bunların üç uşağı olur: bir oğlan, iki qız. Oğlunun 12 yaşı, bir qızının 5 yaşı vardı, o biri qızı isə üç aylıq idi. Kiçik qardaş taksidə çalışır və işi də çox yaxşı gedir. Odur ki, ata evlərini verir böyük qardaşa, özünə həyətin başqa yerində ev tikir və hasar çəkir. Böyük qardaşın arvadı «qurdu qaynadır», ərinə deyir ki, görürsən, hamısı atanızın qızıllarıdır, anan bir dənə də olsun sənə vermədi, hamısı ondadır. Get, sən də payını istə, hamısı onun deyil ki, ata malı aranızda tən bölünməlidir. Böyük qardaş heyvan kimi inanır. Deyir, yaxşı, qoy işdən gəlsin, danışaram. Axşam böyük qardaş keçir kiçik qardaşıgilə. Kiçik qardaş onu hörmətlə qarşılayır. Başlayırlar çay içə-içə söhbət etməyə. Böyük qardaş deyir ki, gətir mənim payımı ver. Kiçik soruşur ki, nə payı? Böyük deyir, qızıl payımı. Kiçik qardaş qəhqəhə çəkib gülür ki, o hansı qızıldır? Səndə təzə xəbər var. Böyük deyir, sən mənə kələk gəlmə, dur gətir. Kiçik qardaş deyir, qardaş, sənin yadından çıxıb ki, anamız bizi dilənməklə böyüdüb? Böyük qardaş deyir, bilmirəm, dur, gətir. Kiçik qardaş deyir, vallah, sənin başın xarab olub, get özünə dua yazdır. Böyük qardaş, yaxşı, yazdıraram, – deyir və durub gedir. Evə girən kimi arvadı tərəfindən təzədən danlanan böyük qardaş əsəbi halda qayıdır kiçik qardaşın evinə, onu hədələyib, sənə sabah axşama qədər vaxt verirəm, – deyir.

Səhər əsəb həkimi böyük qardaşın evinə gəlir. Bunlar soruşurlar ki, nə var, doktor, xeyirdirmi? Həkim deyir, vallah, sənin kiçik qardaşın mənə pul verdi ki, sənin əsəblərini yoxlayım (Bu söhbətlər hamısı məhkəmədə açılıb). Arvadı deyir, o, ərimin qızıllarını yeyib, indi də dəlixanaya saldırmaq istəyir. Həkimi qovurlar. Axşam olur, böyük qardaş bir iti baltanı götürüb, gəlir kiçik qardaşın yanına. Görür, yatıblar, əvvəlcə qardaşının, sonra arvadının və 6 yaşlı qızının başını üzür. Beşikdə bir körpə var imiş, onun da başını üzür. Bu zaman 12 yaşlı oğlu atasının yatağının altına giribmiş, oradan başlayır yalvarmağa ki, əmi, məni öldürmə, amma o oğlanı da öldürüb gedir evinə.

Mən bu əhvalatı olduğu kimi yazdım. Həqiqət, ədalət onların birinə də kömək etmədi, hamısı öldü, evləri də xaraba qaldı. İndi siz deyin, öldürən

qardaşın həbsxanaya girməsinin ölənlərə bir köməyi varmı?

■

Ağdaş rayonunda dəli Ziyad adlı bir adam var idi. Əsli Cardam kəndindən idi. Ata-babası çox zəngin adam olub. Amma Sovet hökuməti hər şeylərini əllərindən alıb, özlərini də Sibirə sürgün edib. Bütün qohum-əqrəbası orada ölüb, özü dəli olub gəlmişdi. Azyaşlı uşaqlar onu çox incidərdi.

Onun çox xoşagələn sözləri var idi. Məsələn, deyirdi: «Dəliliklə çox yaxşı dolanaram, amma uşaqlar qoysa», «Vallah, gec-tez hamı dəli olacaq, sadəcə mən qabağa düşmüşəm», «Axır ki, bu ac Sovet hökuməti məni də özünə döndərdi», «Vallah, ölülər günü bu gün qayıdıb gələrlər, görürlər dirilərin içində bir yönlü adam qalmayıb, ona görə də gəlmirlər». «Sibirdə bir nəfər mənə söydü, ağzına bir dənə vurdum, üzü-gözü tamam palçıq oldu». Soruşurlar: «Ziyad kişi, bəs niyə palçıq oldu?» Cavab verir: «Çünki təpiklə vurmuşdum».

«Dəlilik kasıblıqdan yaxşıdır». «Bəs niyə?» «Yaxşı baxın, onlar məndən çox dəliyə oxşayırlar», «Kasıblar öləndə təəccüb edirəm ki, bunlara hansı yemək zərər edir ki, ölürlər».

Bizim rayonda boydan kiçik, adamaoxşamaz bir dəli Qəmər var idi. O, körpülərin altında yatardı, amma bu günündə onun altı oğlu olmuşdu. Uşaqları olan kimi hökumət əlindən alıb uşaq evinə verirdi. Soruşanda ki, ay Qəmər, bu uşaqların atası kimdir, əsəbiləşib söyərdi ki, mən nə bilim.

■

Müharibənin ağır günləri idi. Evimizin eyvanında anam çay dəmləmişdi, biz də süzüb içirdik. Bu zaman həyət qapımız açıldı, bir qoca kişi, bir ayağı yox, girdi içəri və ay bala, Allah yolunda kömək edin, – dedi. Anam dedi ki, Habil, get o kişini gətir, bir çay içsin, savabdır.

Kişini gətirdim, əyləşdi. Anam soruşdu ki, əmi, ayağın müharibədə belə olub? Dedi, yox, qızım, bunun tarixi başqadır, qoy çörəyimi yeyim, sonra danışım. Yaxşı, – dedik.

Kişi söhbətə başlayanda dedi ki, mənim bir dəvəm var idi, həmişə o dəvə ilə gedib dağdan torpaq və gil gətirir, satıb dolanırdım. Bilirsiniz də, o gil ilə evləri şirələyərdilər. Bir dəfə yayın istisində getdim. O qədər isti idi ki, adamın gözlərindən alov çıxırdı.

Dağa az qalmışdı, düzənlikdi. Bir də gördüm, dəvə qızdı. Dəvə qızanda mütləq sahibini öldürür. Dəvə hoqquldayıb məni atdı yerə. Gördüm, məni dişləmək istəyir. Mən qaçdım, o qovdu. Nə isə, üzüaşağı yıxıldım. Dəvə ağzını uzatdı ki, məni dişləsin, elə bu zaman dəhşətli səslə bağırdı. Başımı qaldırıb dəvəyə baxdım ki, dodağından bir ilan yapışıb, quyruğu yerə dəyir. Mən qaçdım, dəvə yıxıldı yerə. Bərk susamışdım. Yavaş-yavaş gəldim ki, dəvənin belindən suyumu götürüm, gördüm ki, ilan gedib. Amma dəvənin ağzına, burnuna milçək yığışıb. Suyu götürdüm, sonra dəvənin qarnına bir təpik vurdum ki, sən idin məni öldürmək istəyən! Ayağım topuğuma qədər girdi dəvənin qarnına. Üz tutdum yola ki, maşına minib evə qayıdım. Gördüm yeriyə bilmirəm, ayağım elə şişib ki, ayaqqabı ayağımdan çıxmır. Nə isə, maşın gəldi, əyləşib sürücüdən xahiş etdim ki, məni xəstəxanaya çatdır. O da çatdırdı. Həkimlər baxıb dedilər ki, ilan çox zəhərli olub, sən dəvəni təpiklə vuranda dəvə artıq çürüyübmüş. Dəvənin qabırğası sənin ayağını yaralayıb və oradan da ilanın zəhəri keçib sənin bədəninə. Ayağın topuqdan aşağı mütləq kəsilməlidir, yoxsa zəhər qalxacaq yuxarı, səni öldürəcək. Mən də razılıq verdim, kəsdilər.

■

Bir gün də gəldim işə, davamiyyət jurnalına qol çəkib çıxdım Filarmoniyanın bağına, gördüm, bizim çayçıda iki stolu birləşdiriblər, on nəfərə qədər ən seçmə sənət adamları, hətta Şövkətə, Saraya qədər hamı bu stolun ətrafında əyləşib. Amma tanımadığım bir adam var ki, bu danışır, hamı diqqətlə qulaq asır. Mən də gəlib əyləşdim. Rəhmətlik Əbülfət bu adamı mənimlə tanış etdi. Bildim ki, bu adam Lənkəranda xalq hakimi işləyir. Kaş bütün hakimlər belə olaydı...

Söhbət içki düşkünü və pozğun bir adamdan gedir. Bu adamın 15 yaşlı oğlu və bir də xanımı varmış. Arvadını və oğlunu təngə gətirmiş bu adam bir gün Lənkəranda olan rus hərbiçilərinin birinə deyir ki, sən mənə bir araq al, mən səni yaxşı bir xanımın yanına aparım. Razılaşırlar. Həmin rus zabiti arağı alıb verir buna, bu arağı açıb içir, sonra da zabitin qoluna girib, yıxıla-yıxıla gəlirlər evə. Çatan kimi bu yıxılıb yatır. Zabit onun xanımına yaxınlaşır, qadın zabiti itələyir və söyür. Zabit yenə əl çəkmir, qadınla güləşəsi olurlar. Bu zaman oğlu gəlib çıxır,

ağlaya-ağlaya zabiti söyür. Zabit görür ki, bu iş alınmayacaq, qadının yatmış ərinin üzünə tüpürüb gedir.

Qadın özünü ələ ala bilmir. Gedib baltanı götürür, ərinin başına endirir, əri ölür. Ana öz balası ilə çarəsiz qalır, gecənin yarısında düşüb həyətdə bir ağacın altında quyu qazırlar ki, ölünü ora atsınlar. Çox çalışırlar, gücləri çatmır. Ona görə ölünü dörd yerə bölürlər və hissə-hissə aparıb atırlar quyuya. Ölənin qardaşı baxır ki, neçə gündür, qardaşı görünmür. Şəhərdə soraq eləyir, deyirlər ki, biz onu beş gün bundan əvvəl kefli halda filan zabitlə görmüşük. Gedib həmin zabiti tapıb soruşurlar. Zabit də əhvalatı olduğu kimi bunlara danışır. Ölənin qardaşı bilir, gedib polisə şikayət edir, polis arvadı aparır. Prokuror da sanksiya verir. Arvad dözə bilməyib əhvalatı danışır.

Xalq hakimi söylədi ki, həmin işə baxmaq üçün mənə göndərdilər. Mən işi oxudum, elə oxudum ki, elə bil əhvalatı görürəm. Bakıya zəng etdim. Zəng etdiyim adamın qeyrətinə bələd idim. Onunla razılaşdıq. İşə baxılan günü, demək olar ki, bütün Lənkəran məhkəmənin həyətində idi, ayaq basmağa yer yox idi. Prokuror qadına on beş il iş tələb etdi. Mən hökmü oxumağa gələndə insanlar nəfəs almırdılar, çoxunun gözü yaşlı idi. Hökmü oxuyanda həmin qadını Azərbaycan qadınlarının emblemi adlandıraraq, bəraət oxudum. Ardını danışa bilmirəm, ağlamaq məni boğur.

Durub hamımız ağlaya-ağlaya hakimi öpdük və hakim də ağlaya-ağlaya getdi.

Ay yazıq millət, sən özün öz başına nələr gətirirsən.

## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR BELƏ DEMİŞ...



Habil Əliyev kamançanı dünya alətinə çevirdi.

**Fikrət Əmirov,**
*Xalq artisti*

## ƏSRİN SƏNƏTKARI



Habil Əliyev müasir illərin sənətkarı deyil, müasir əsrimizin böyük sənətkarıdır. O niyə böyük sənətkardır? Onun böyük sənətkarlığı bundan ibarətdir ki, ata-babalardan miras qalan muğamata yeni xallar əlavə edir, səsi incələşdirir, gözəlləşdirir, barmağını simin üzərinə sıxmaqla həzin melodiyalar, canalıcı səslər əmələ gətirir.

Mövlanə Cəlaləddin Rumi kamança barəsində bir beytində deyir ki, dəri quru, sim quru, ağac quru, bəs bu həzin səs, canənə səs haradan əmələ gəlir?

Bu sözlər elə bil Habil barəsində deyilib.

**Lətif Kərimov,**
*Xalq rəssamı*

## BÖYÜK USTAD



Habil qədim musiqi aləti kamançanı özünəməxsus virtuozluqla dilləndirən sənətkardır. Habilin istər ölkəmizdə, istərsə də xaricdə Şərq musiqi həvəskarları və biliciləri arasında qazandığı səngiməz uğurlar təsadüfi deyildir. O, öz ifası ilə insan qəlbinin ən incə tellərini ehtizaza gətirir.

Bu böyük ustad qədim Azərbaycan musiqisini muğam üstə improvizə edərək, kamança ifaçılığında yeni bir zirvə – Habil zirvəsi yaratmışdır.

**Toğrul Nərimanbəyov,**
*Xalq rəssamı*



*SSRİ Xalq rəssamı Toğrul Nərimanbəyov*
*Habil Əliyevin portretini yaradarkən*

## NƏĞMƏ OXUYAN QƏLB



Kamança alətində yüksək ifaçılıq məharəti göstərmək hər sənətkara nəsib olmamışdır. Böyük sevinc və fərəh hissi ilə deməliyəm ki, görkəmli sənətkarımız Habil Əliyev kamançanın bütün sirlərinə bələd olaraq, onu özünə ram edə bilmişdir.

Habil Əliyev, sözün həqiqi mənasında, novator, yaradıcı sənətkardır. O, Azərbaycan muğamlarını, təsniflərini, rənglərini, rəqsləri, bəstəkarlarımızın əsərlərini məharətlə ifa edir. İfa etdiyi musiqi nümunələrinə şən və nikbin boyalar, əhəmiyyətli çalarlar aşılayır.

Fikrimizi dəqiqləşdirmək üçün onun böyük ustalıqla çaldığı «Segah» muğamını bir anlığa yada salaq. Əlbəttə, dinləyicilər indiyədək «Segah»ı bir çox tarzən və kamançaçalanların ifasında dinləmişlər. Lakin etiraf edək ki, onun «Segah»ını dinləyərkən adam özünü unudur. Elə bil ki, Vətən məhəbbəti salnaməsini vərəqləyir, əsrarəngiz lövhələrin seyrinə dalırsan. Habilin özünəməxsus çalğısı, muğama gətirdiyi guşələr bir-birini təkrar etməyən xallar musiqi aləminə, Azərbaycan ifaçılıq xəzinəsinə «Habil Segah»ını bəxş etmişdir.

...Habil muğamları çalarkən heç kimi təqlid etmir. O, ifa etdiyi muğamlara yeni xallar, xırdalıqlar, guşələr gətirir. Onları yeni quruluşda, yeni formada, yeni məzmunda dinləyicilərə çatdırır. Görünür, Habil Əliyevin bu müvəffəqiyyəti onun novatorluğu, musiqi folklorundakı muğam janrına və həmin janrın təbiətinə, qanunauyğunluqlarına yaxından bələd olması ilə bağlıdır.

Biz Habilin solo konsertlərində xalq musiqi nümunələri ilə yanaşı, bəstəkarlarımızın qəlboxşayan mahnılarını da eşidirik. Həmin sənət nümunələrini Habil Əliyev qəlbinin hərarəti, bəstəkar ilhamı ilə ifa edir. Çünki Habilin ifasında səslənən hər bir sənət nümunəsi sanki dil açıb danışır. Onun çalğısının emosional təsir qüvvəsi böyük olur. İlk anda dinləyicinin diqqətini özünə cəlb edir. Axı o, kamançanı barmaqla deyil, ürəklə çalır. Onun sənətkar qəlbi kaman nəğməsi oxuyur...

**Süleyman Ələsgərov,**
*Xalq artisti*

## ÜZEYİR MƏKTƏBİNİN YETİRMƏSİ



Habili yaxından tanıyan pərəstişkarların mən, bəlkə də, hamısından ahılıyam. Biz bir kənddə doğulub böyümüş, bir arxın suyunu içmişik. Həm də dost və qohumuq: mərhum analarımız əmiqızı idilər...

Habil Mustafa oğlu Əliyev 1927-ci ildə, may ayının 28-də Ağdaşın Yuxarı Üçqovaq kəndində anadan olmuşdur. Qonşu həyətdə yaşayan görkəmli sənətçi, dahi Ü.Hacıbəylinin yaxın qohumu və əziz dostu, Qarabağ muğam məktəbinin parlaq təmsilçilərindən biri olan Əhməd Ağdamskinin məsləhəti ilə ailə altı yaşı təzəcə tamam olmuş Habilə musiqi təhsili vermək qərarına gəlir. O zaman arıq, qarayanız, zahiri görkəmcə də çox zəif bir uşaq olan Habil o qədər kiçik imiş ki, qəbul komissiyasında ona təqdim edilən tarı sinəsində tutmağa gücü çatmamışdı. Onda uşağa kamança vermişdilər. Dizi üstündə dirənib dayanmaq keyfiyyəti ilə bu alət Habilin ürəyincə olmuş, elə o vaxtdan da gənc musiqiçinin ifaçılıq sənətindəki yolu qəti şəkildə müəyyən edilmişdi. Musiqi məktəbini – natamam orta məktəbi müvəffəqiyyətlə bitirən Habil Ağdaş Pedaqoji Texnikumuna daxil olmuş, tələbəlik çağlarında həm də rayon teatrının musiqili tamaşalarını öz kamançası ilə müşayiət etmişdir.

1952-ci ildə Bakıya gəlib Asəf Zeynallı adına orta musiqi məktəbinə daxil olması onun ifaçılıq vərdişlərinin təkmilləşdirilməsi sahəsində bir universitetə bərabər rol oynamışdır. 1953-cü ildə, bu məşhur sənət ocağında təhsil aldığı vaxt gənc Habilin həyatında çox əlamətdar bir hadisə baş verir. Onun ifasında «Segah» muğamını dinləmiş görkəmli Azərbaycan sənətçiləri Şəmsi Bədəlbəyli, Səid Rüstəmov, Soltan Hacıbəyov və dahi Niyazi onu, təhsilini davam etdirə-etdirə, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına vokal ifaçılarının müşayiətçisi vəzifəsinə götürülməsi məsələsini qaldırırlar. Öz parlaq istedadı sayəsində bir növ yaradıcılıq bəxti açılan Habil elə o vaxtdan Azərbaycan ifaçılıq sənətinin Seyid və Xan Şuşinskilər, Zülfü Adıgözəlov, Həqiqət Rzayeva, Şövkət Ələkbərova, Sara Qədimova, Fatma

Mehrəliyeva kimi məşhur təmsilçilərini ecazkar çalğısı ilə müşayiət etmiş, az sonra özü də Filarmoniyanın solisti kimi Bakıda, respublikanın müxtəlif bölgələrində və uzaq-yaxın xarici ölkələrdə çıxışlar etməyə başlamışdı. Misir, Əlcəzair, Türkiyə, Fransa, Belçika, İrlandiya, Şotlandiya, Bolqarıstan, Monqolustan, Tunis, İsveç, İsveçrə, Pakistan, İspaniya, İtaliya, ABŞ və digər ölkələrdə ən müxtəlif millətlərdən olan tamaşaçılar, o cümlədən də, əlbəttə, soydaşlarımız Habili dönə-dönə alqışlamış, onun ifasından həmişə təravətli Azərbaycan ətrini almışlar. Habilin korifeylərimiz Rəşid Behbudov, Müslüm Maqomayev və Zeynəb Xanlarova ilə birlikdə həyata keçirilən Avropa qastrolları onların hamısına, o cümlədən, əlbəttə, həm də Habilə dünya şöhrəti nəsib etmişdir. Onun bəstələdiyi «Şəhla gözlüm», «İlk məhəbbət», «Gülüm yatsın», «Güləsən gərək» də içində olmaqla, 15-ə yaxın mahnısı on illərdir ki, kamil müğənnilərimizin ifasında efirdə və ekranda canlanmaqdadır.

R.Rza, V.Vahabzadə, M.Araz, Ə.Kərim, Ə.Tudə, N.Həsənzadə, Z.Yaqub və digər incə ruhlu şairlərimiz Habilə yüzə yaxın şeir həsr etmişlər. Sənətçimiz haqqında 3 kitab, saysız-hesabsız təqdiredici məqalələr yazılmışdır. Heykəltəraşlarımız onun şərəfinə tişə əsərləri yaratmış, dahi xalçaçı-rəssam Lətif Kərimov Habilin portretini toxumuş, Xalq rəssamı Toğrul Nərimanbəyov onun çox orijinal portretini çəkmişdir. Habil Əliyevin ABŞ-da, İtaliyada, Fransada, Yaponiyada, əlbəttə, Azərbaycanda və bir çox digər ölkələrdə diskləri çıxmış, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, dünyada tanınmış zərif ruhlu sənətkarımız, professor Firəngiz xanım Əlizadə onun şərəfinə «Habilsayağı» adlı məşhur simfoniyasını bəstələmişdir.

Habilin istedadı həmişə, hər yerdə qiymətləndirilmişdir. O, hələ 1964-cü ildə «Əməkdar artist», 1978-ci ildə isə «Xalq artisti» fəxri adlarına layiq görülmüşdür. 1997-ci ildə Ümummilli liderimiz Heydər Əliyev ona «Şöhrət» ordeni vermiş, 2007-ci ildə möhtərəm prezidentimiz İlham Əliyev müstəqil Azərbaycanın ən yüksək təltifi olan «İstiqlal» ordeninin yaşıl lentini öz əli ilə Habilin boynuna asmışdır.

Mən hərdən düşünürəm ki, görəsən, Habilin böyük sənət uğurlarının, onun populyarlığının sirri nədədir. Bu qərara gəlirəm ki, o, öz ifaçılıq fəaliyyətinin ən barlı-bəhrəli, ən dolğun çağlarında kamançasını adətkərdə olduğumuz mənada çalmaqla kifayətlənməmiş, bu unikal aləti öz sənət möcüzələri ilə canlandırıb dilləndirmiş, onu insan kimi danışdırmağa müvəffəq olmuşdur. Elə buna görədir ki,

biz, onun istedadının pərəstişkarları, Habilin barmaqlarından süzülən ecazkar səslərdə insan qəlbinin təranələrini, nakam sevgililərin naləsini, cəfakeş dərvişlərin dünyanın gərdişindən şikayətlərini, mütəfəkkir şairlərin, filosofların gələcək nəsillərə öyüdlərini dinləmişik. Mənim şəxsi qənaətimə görə, indiyədək Azərbaycanda Habilin özündən savayı hələ heç bir kamançaçalan xalqla, cəmiyyətlə mənəvi ünsiyyət məhrəmliyinə Habil miqyasında, Habil yüksəkliyində, Habil əzəmətində nail ola bilməmişdir.

Bu, bir həqiqətdir ki, Habil xüsusi konservatoriya təhsili almamışdır. Lakin o, özünü, haqlı olaraq, dahi Üzeyir Hacıbəylinin müqəddəs adı ilə şərəflənən musiqi dünyasının – xalq akademiyasının yetirməsi hesab edir. Və maestro tamamilə haqlıdır. İmkanlarım dairəsində apardığım araşdırmalar bir daha təsdiq edir ki, hələ heç bir ölkədə heç bir bəstəkarın əsərləri Ü.Hacıbəylinin irsi Azərbaycanda, türk dünyasında, İslam şərqində yayıldığı qədər geniş yayılmamışdır. Bu gün «Leyli və Məcnun», «Koroğlu» operalarının, «Arşın mal alan», «O olmasın, bu olsun» operettalarının ayrı-ayrı ariya və duetlərini, «Sənsiz», «Sevgili canan» romanslarını, nəhayət, Azərbaycan Respublikasının Dövlət Himninin ürəkləri riqqətə gətirən melodiyalarını bilməyən, bunlar ifa olunarkən vəcdə gəlməyən bir nəfər də olsun azərbaycanlı tapılmaz. Çox təbiidir ki, digər virtuoz sənətkarlarımız kimi Habil də məhz bu stixiyanın qoynunda yetişmişdir. O, hələ ilk gənclik çağlarından etibarən Üzeyir bəyin əsərlərini ifa etməyə başlamışdır. Mən yaxşı xatırlayıram ki, keçən əsrin 40-cı illərinin ortalarında Nəcəf bəy Vəzirov adına Ağdaş Dövlət Dram Teatrında «Leyli və Məcnun» operasının və Üzeyir bəyin operettalarının bütün tamaşalarının tərkibində gənc Habilin də fəaliyyət göstərdiyi ənənəvi şərq çalğı alətləri üçlüyü əvvəldən axıradək böyük yaradıcılıq ehtirası ilə, yorulmaq bilmədən müşayiət edərdi. Qocaman sənətkarımız dahi Ü.Hacıbəylinin xalq akademiyasının yetirməsi olduğunu deyərkən mən bunları nəzərdə tuturam.

■

1920-ci ilin yanvarında böyük ədib və böyük vətəndaş Cəlil Məmmədquluzadə Şuşa şəhərində ikən öz klassik əsərlərindən biri olan «Kamança» adlı çox maraqlı pyesini yazmışdı. Əsərdə təsvir edilən hadisələr XX əsrin əvvəllərindəki erməni–müsəlman münaqişələrindən götürülmüşdür.

Pyesdəki bir epizodda təsvir edilir ki, Qarabağ intiqamçılarının qanları çox qaradır. Təzəcə qurtarmış bir döyüşdə onların əziz silahdaşlarından da həlak olanlar var. ... Əsir alınmış Baxşı adlı kamançaçı erməni bir çox gərgin psixoloji məqamda bərk hirslənmiş Qəhrəman yüzbaşının hüzurunda, onun hökmü ilə, özü də qorxa-qorxa muğamat çalır. O, «Segah-zabul»a çatanda Qəhrəman yüzbaşının hirsi bir qədər soyumağa başlayır və ucadan deyir: «Adə, erməni, tez kəmənçəni yığışdır, itil get burdan!»

Mirzə Cəlilin həmin əsərini bir daha oxudum. Gözlərim önündə belə bir mənzərə canlandı: möhtərəm prezidentimiz cənab İlham Əliyevin müdrik siyasəti və dünya ictimaiyyətinin təkidi nəticəsində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur və düşmən tapdağı olmuş torpaqlarımızı geri alırıq. Adətən olduğu kimi, sülhün şərtlərinə görə, hər iki tərəfdən əsirlər də geri qaytarılır. Amma bu münasibətlə keçirilən mərasimdə kamançanı məğlub erməni yox, qalib tərəfin təmsilçisi Habil çalır. Musiqi tamam olur. Axırıncı əsir erməni yenə də qorxaq nəzərlərlə, döyükə-döyükə ora-bura baxanda Azərbaycan tərəfinin iradəsini təmsil edən yüksək rütbəli zabitimiz ucadan dillənir: «Ədə, erməni, tez buradan itil get və getdiyin yerdəki başbilənlərinə de ki, nəsilbənəsil bir də belə qələt eləməsinlər! Əgər eləsələr, onda özlərindən küssünlər!»

**Bəkir Nəbiyev,**
*akademik*

## ONUN VURĞUNUYAM



Mən Habilin sənətini sevirəm desəm, bu, çox az olar, mən bu sənətin vurğunuyam, ona aludəyəm.

Habil sənət aləminə gəldiyi ilk illərdən mən onun sənətini sevmiş, onun barəsində düşünmüş və bu ifanın möcüzəsini özüm üçün incələmişəm.

«Muğam» poemasını yazdığım zamanlar Habilin ifasında «Çahargah»a, «Segah»a və digər muğamlara həmişə qulaq asmış, bu ifaların təsiri altında işləmişəm.

Kaman bizim qədim musiqi alətimizdir. Habil kamandakı məlum səslərə yeni səslər əlavə etdi, bu alətə yeni məzmun verdi. Daha doğrusu, o, köhnə yolda yeni cığır açdı.

Habilin kamana gətirdiyi səs neylə kaman arasında özünəməxsus bir səsdir. Bəlkə də, bu səs insan səsinə bir qədər yaxındır. Bu səsdə bəzən vahimə, bəzən inilti, bəzən də cəngavərlik duyuram. Biz Habilin ifasından sonra kamanın nə qədər böyük imkanlara malik olduğunu gördük.

Hər dəfə qulaq asanda inanın ki, mən əvvəlkindən on dəfə artıq vuruluram Habilə. Hər dəfə yeni bir möcüzə görürəm. İndi bu möcüzənin qabağında, söz sənətkarı olmağıma baxmayaraq, hansı sözü tapım deyim ki, ürəyimdən o tikan çıxsın. Hansı təşbehlə, hansı qiyasla, hansı bənzətməylə mən Habil sənətinin qarşısında söz deyə bilərəm ki, hamının ürəyindən xəbər versin. Habil sənəti haqqında söz demək üçün Habil səviyyəsində şair olmaq lazımdır.

Habil haqqında kitablar da yazılıb, şeirlər də ərsəyə gəlib, amma, məncə, biz Habil haqqında hələ heç nə deməmişik. Bəlkə, otuz il, qırx il, əlli il sonra Habilin lent yazılarına qulaq asan böyük sənətkarlar, böyük qələm sahibləri onun sənətinə müvafiq söz deyə biləcəklər.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

## HABİLƏ QULAQ ASIB PİS OXUMAQ GÜNAHDIR



Əgər bir müğənni, bir sənətkar kimi Habil sənətini xırdalamağa başlasam, çox uzun çəkər. Amma bir məsələni hökmən qeyd etməliyəm.

Habil xanəndəni müşayiət edəndə ona xüsusi enerji verir. Necə ki, akkumulyator işləməyəndə onu elektrik cərəyanına qoşursan...

Habilin çalğısını eşidib pis oxumaq günahdır.

Bir dəfə şəhərdə bir məclisdə idik. Mən rəhmətlik Əhsən Dadaşovla idim. Bir də bir üzdəniraq kamançaçalan vardı yanımızda. Dedilər, Habil də gəlib bir neçə solo çıxış edəcək.

Məclisin şirin yerində tamada elan elədi ki, Habil gəlir. Hamı böyük hörmətlə qarşıladı onu. Gəldi, deyilən kimi bir neçə muğam və xalq mahnısı ifa edib getdi.

Bu arada məclisin sahiblərindən olan bir ağsaqqal mənim kamançaçalanıma yaxınlaşıb dedi, bura bax, sənin kamançan da onunkundan deyil? Dedi, hə. Ağsaqqal təəccüblə qayıtdı ki, bəs niyə bunun səsi ayrı cür çıxır, onun səsi ayrı cür?!

**Əbülfət Əliyev,**
*Xalq artisti*



*Əbülfət Əliyev və Məmmədağa Muradovla*

## QÜDRƏTLİ SƏNƏT



...Bütün salon Habili alqışlayırdı. Sanki Bakının konsert salonlarının birində idik. Təəssüf ki, çox zaman biz böyük sənəti ilə milyonların ürəyini fəth edən müasir sənətkarlarımıza – yazıçılarımıza, bəstəkarlarımıza, artistlərimizə, rəssamlarımıza, musiqiçilərimizə sağlığında nədənsə «böyük» deməyə çəkinirik.

Uzaq Şimal Qütb dairəsində ilk dəfə səslənən Azərbaycan muğamına ömründə birinci dəfə qulaq asanlar onun ecazkar ahənginə valeh olmuşdular. Onlar bu sehrli səslər aləmində özləri üçün yeni bir dünya kəşf etmişdilər, insanın qəlbinə, duyğusuna hakim olan hisslər dünyası.

Habilin sənəti Azərbaycan kamança ifaçılığında yeni istiqamət, yeni bir yüksəlişdir. Hər dəfə ona qulaq asanda sənə çoxdan tanış olan muğamın, mahnının, rəngin yeni bir tərzdə – Habilsayağı səslənməsinin şahidi olursan. Həm də bu muğam, mahnı, rəng Habilin kamançasında hər dəfə ifa olunanda yeni ahənglə səslənir. Hər dəfə Habil onları yeni çalarlarla zənginləşdirir. Habilin hər bir çıxışının öz təkrarolunmaz gözəlliyi var. Biz sevimli sənətkarımızın sənətinin sehrli qüdrətinə çoxdan alışmışıq. Bu gün Yeni Urenqoyda bu əfsanəvi şəhərin sakinlərinin də Habil sənətinə heyranlığını görəndə bir daha bu həqiqəti təsdiq edirsən ki, əsl milli sənət yaşından, zövqündən asılı olmayaraq, hamı üçün, bütün xalqlar üçün anlaşıqlıdır, doğmadır, gözəldir.

Habil kamança çalanda salonda tam sakitlik idi. Arxa sıralarda əyləşənlərin heyrətlə dediyi bu sözləri aydın eşidirdim: «Mən belə ifaçı görməmişəm», «Bu, musiqiçi deyil, ovsunçudur», «Lap Paqaniniyə oxşayır!».

Konsert qurtarmışdı. Biz salondan çıxıb aşağı enirdik. Çıxış yolu artistlərin geyim otağının yanından keçirdi. Gördüm ki, otağın qapısının ağzına xeyli adam yığışıb. Maraqla içəri boylanıb, kiməsə baxır və danışırlar. Yaxınlaşanda gördüm ki, onlar Habilə tamaşa eləyir və deyirdilər: «Skripkaya oxşayan aləti çalan bu qarayanız kişidir».

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

## AĞLASIĞMAZ, XƏYALAGƏLMƏZ...



Habil Əliyevin kamanı dil-dil ötdükcə muğam dünyamızın sehrinə düşür, əfsanəyə, nağıla bürünür, möcüzələr aləminə qovuşursan. Daha da saflaşır, durulaşır, təzələnirsən. Və deyirsən, Tanrı payımız, ilahi qismətimizdi muğamlar. Əzəli, əbədi taleyimizdi muğamlar. Fəlsəfi kamilliyimiz, mənəvi zənginliyimizdi muğamlar. Qaynar bulaq, gur çeşmədi, ülvilik, ucalıq timsalıdı muğamlar. Hicrandı, vüsaldı, sevincdi, kədərdi, nalədi, ahdı, amandı, ən dərin düşüncələrdi muğamlar. Düşünən, düşündürən fikir karvanıdı, pərvaz xəyaldı, röyadı, bir ayrı dünyadı muğamlar...

Böyük sənətkar muğamlarımızın hər birini özünəməxsus tərzdə ifa edir. Çömçəni xatırladan kamanının tellərinə ürəyinin tellərini calayır, sızlayır, çağlayır, ağlayır. Lakin onun «Segah» muğamını dinlədikcə dinləyir, bir ayrı hal olursan, heyrətdə heyranlanırsan. Bu muğam xalqımızın ürəyinə məlhəm, gözlərinə işıqdı, nurdu. Tamam-kamal eşqdi, sevgidi, can yanğısıdı. Heç vaxt, heç kim «Segah»ı Habil kimi çalmayıb, çalmayacaq! Əbəs yerə sənətkara Segah Habil demirlər ki...

Habil Əliyevin sehrində XIII əsrdə yaşayan, dünyada ilk dəfə not işarələrini icad edən, ud çalmaqda əvəzi olmayan Səfiəddin Urməvi haqqında bir əfsanə yadıma düşür. Deyilənlərə görə, Bağdad bağlarının birində Səfiəddin ud çalarkən bülbül gülündən ayrılıb yaxında bir budağa qonur. Sonra da musiqinin ecazi səsinə dözməyib udun simlərində qanad saxlayır, çırpınır. Ah nə gözəl, nə heyranedici aləm! Hər dəfə Habilin kamanını dinləyəndə nədənsə qeyri-ixtiyari həmən əfsanəni xatırlayıram. Duyğularımı tarıma çəkdiyinə görə, ürəyimi üşütdüyünə görə. Gözəlliyə, ülviliyə səsləndiyinə görə.

Çoxəsrlik tariximizi vərəqləyirəm. Bir sıra kamança ustaları yada düşür. Lakin gəlin etiraf edək ki, XX əsrdə Habil Kaman təkdi, tənhadı. Nə tayı, nə bərabəri, nə əvəzi, nə bənzəri, nə oxşarı?! Hamıdan ucadı, başdı. Habil ağlagəlməz, xəyalasığmaz bir dünyadı. Əlçatmaz, ünyetməzdi Habil.

Şahidi olduğum bir hadisəni də xatırlamaya bilmərəm. Günəş yatağına çəkilər-çəkilməz Ərdəbilin küçələrindən birini gəzirik. Bu yerlərin türfə gözəlləri, qənirsizləri gözlərimizi oğurlayır, qəlbimizi titrədir. Qəfil bir ağacın budağından asılmış şəkil diqqətimizi çəkir. Habilin rəngli şəkli... Baxdıqca baxır, qürur duyuruq. Bir az irəlidə dükanların pəncərələrində, evlərin eyvanında Habilin şəkli asılıb. Soruşuram. «Ağa, Habil Əliyev bu yanlarda kamanını dilə gətirdi, bizləri ovsunladı, ona görə onun əksini asmışıq», – deyirlər. «Çoxları onun şəklini sinələrində gəzdirir. Yoxdu Habildən, təkdi Habil. Siz nə qədər xoşbəxtsiz».

Di gəl, ürəyin dağa dönməsin, qəlbin sevinməsin...

Əzizim Habil müəllim, eşqlə, həvəslə yaşa, yarat, qəlblərə hakim kəsil! Yenə də qitələrdən qitələrə, ölkələrdən ölkələrə, şəhərlərdən şəhərlərə səfərə hazırlaş. Ürəyinlə, əməlinlə, diləyinlə dünyanı dünyalandır. Sazlı-sözlü, min bir avazlı xalqımızı dünyayla bir elə...

Dost mehribanım, gözlərin nurlu, işıqlı, ürəyin təpərli, hünərli, canın sağlam, ömrün uzun olsun !

Arzuların, diləklərin üzünə gülsün. Yeni-yeni uğurlar, qələbələr, təntənələrlə qabaq-qənşər gəl. Sevindir bizləri, musiqi dünyamızı...

*Habili,*
*Doğma, əziz Habili*
*Tanrı, bizə çox görmə*
*Segah, Kaman Habili.*

**Teymur Bünyadov,**
*akademik*

## AŞİNA OLDUĞUM SƏNƏT



Habil Əliyevin sənətinə mən uzun illərdən bəri aşinayam və ilk dinlədiyim vaxtlardan da onun ifasına məftun olmuşam.

Mən kamança ifaçılarını həm İranda çox eşitmişəm, həm burada, Azərbaycan Respublikasında olduğum müddətlərdə yalnız radio və televiziyadan deyil, bilavasitə canlı konsertlərdə də üzdə olan sənətkarların əksərinin çalğılarına qulaq asmışam. Habil Əliyevi eşitdiyim kamança ifaçılarının heç biri ilə müqayisə edə bilmərəm. Habil Əliyevin heç kəsə oxşamayan fərdi üslubu, təkrarsız çalğı ustalığı vardır. O, sözün əsl mənasında, virtuoz sənətkardır. Mətbuatdakı yazılarda mən Habil Əliyevin adının çox zaman «Habil Kaman» kimi yazıldığını görmüşəm və bunu çox bəyənmişəm.

Həqiqətən, Habil kamana, kaman Habilə çox yaraşır və müəyyən mənada onların hər ikisi bir-birini tamamlayır.

**Cavad Heyət,**
*azərbaycanşünas alim,*
*«Varlıq» jurnalının baş redaktoru*

## KAMANÇANIN DİLİ



«Tarzən» deyəndə ağlımıza ilk gələn adlar – tarın böyük reformatoru Sadıqcanın, Cabbar Qaryağdıoğlu triosunun əvəzsiz iştirakçısı Qurban Pirimovun, canlı ifalarını dinlədiyimiz Bəhram Mənsurovun, Hacı Məmmədovun, Əhsən Dadaşovun, müasirimiz Ramiz Quliyevin adlarıdır.

«Kamança» deyəndə ilk yadımıza düşən və uzun zaman ikincisiz xatırladığımız ad Habil Əliyevin adıdır.

Habil kamançanın sehrini, bütün sirlərini və imkanlarını açmış sənətkardır. Habil kamançanı doğma dilimizdə, Azərbaycan türkcəsində danışdıran ustaddır. Bəllidir ki, bizim muğamları tarda, kamançada ermənilər də ifa edirlər və bu ifaçıların sırasında mahir sənətkarlar da az deyil. Təsadüfi deyil ki, Cəlil Məmmədquluzadənin ölməz «Kamança» pyesində erməni ifaçının yanıqlı bir tərzdə çaldığı havalar insanları keçən günlərə, ədavətsiz, qansız, ölüm-itimsiz yaşanmış vaxtlara qaytarır.

Bir vaxtlar Azərbaycanda məşhur olan kamançaçı Nefton Qriqoryan, deyilənə görə, müharibə illərində düşmən gülləsindən ən çox barmaqlarını qoruyurmuş. Axı ifaçının çörəyi barmaqlarından çıxır! Alman gülləsi Neftonun barmaqlarına xələl gətirmədi, ancaq onun ifasına Habilin barmaqları üstün gəldi.

Musiqi biliciləri tarda da, kamançada da «erməni ifasını» aşkar sezirlər, «filankəs muğamı erməncə çalır» deyirlər. Doğrudan da, erməni çalanların ifasında bu xalqa xas olan ağlağanlıq, taledən, qismətdən şikayət, özünü əzabkeş, yazıq, məzlum kimi ifadə etmək cəhdi dərhal duyulur.

Habilin kamançası da ağrıdan inildəyir, ama zarımır, dərdlərimizi həzin pıçıltıyla da deyir, haray kimi, fəryad kimi də hayqırır, bəzən gileylənir, amma heç vaxt deyinmir. Habilin kamançası güldürə də bilir. Yadıma gəlir, Şövkət xanım Ələkbərova hansısa mahnını oxuyarkən onu müşayiət edən Habil müğənninin hər musiqi cümləsini kamançada dərhal eynən təkrar edirdi. Adama elə gəlirdi

ki, simlərin səsini yox, insan səsini, insan danışığını, sözlərin, kəlmələrin tələffüzünü eşidirsən. Bunu təbəssümsüz dinləmək qeyri-mümkün idi. Habilin kamançası təbiətin bütün səslərini təqlid etməyə qadirdir – quşların civiltisini, yarpaqların titrəyişini, ləpələrin ahəngini...

Habil Əliyev, bəlkə də, tarixdə ən böyük, ən mahir kamança ifaçısıdır. Əbəs deyil ki, onun sənəti tək Azərbaycanın deyil, dünyanın da bir çox məşhur musiqiçilərini, bəstəkarlarını valeh edir. Böyük Rostropoviç onun ustalığını yüksək qiymətləndirirdi, istedadlı bəstəkarımız Firəngiz xanım Əlizadə Habilin ifasından ilhama gələrək, onun çalğı manerasını Avropa alətləri vasitəsilə canlandıran «Habilsayağı» adlı maraqlı əsər yaratmışdır. Habil ifasının heyranları yalnız musiqiçilər deyil, müxtəlif ölkələrdə milyonlarla pərəstişkarlarıdır.

Rəsul Rza, Bəxtiyar Vahabzadə Habil sənətinin vurğunu idilər. Toğrul Nərimanbəyov ustadın gözəl portretini çəkib. Habil Əliyevin özü kimi Ağdaş torpağının yetirmələri olan akademik Bəkir Nəbiyev, Xalq şairi Fikrət Qoca sənətkarın yaxın dostlarıdır. Mənim bu səmimi qeydlərim də ustadın ifasından aldığım dərin zövqə görə böyük minnətdarlığımın kiçik ifadəsidir.

**Anar,**
*Xalq yazıçısı*

## AZƏRBAYCAN PAQANİNİSİ



Hər dəfə öz qəhrəmanımın obrazı üzərində yaradıcılıq işinə başlayarkən mən bu hadisəyə uzun müddət hazırlaşıram. Mənim bütün qəhrəmanlarım, fəaliyyət və yaradıcılıqlarına yaxından bələd olduğum və rəğbət bəslədiyim adamlardır. Öz qəhrəmanının arzu və istəkləri ilə yaşamayan sənətkar maraqlı və müfəssəl obraz yaratmaq qüdrətinə malik deyildir. Qəhrəmanı sevmək lazımdır.

Azərbaycanın Xalq artisti Habil Əliyevin portreti üzərində işə başlarkən mən çoxlu, lap çoxlu eskizlər etmişəm. Kaman ustasının obrazına müraciət rəssamlar tərəfindən ilk hadisə deyildir. Öz sənətkarlığı ilə istedadının saysız-hesabsız pərəstişkarlar auditoriyasını toplamaq qabiliyyəti Habil sənətinin başlıca meyarıdır.

Bizə yaxşı tanış olan kamança Habilin ifasında yeni dildə danışır. Özünəməxsus sənətkarlıq bacarığı, virtuoz ifa tərzi, xalq musiqisinə dərindən yiyələnməsi ilə Habil bu sehrli musiqi alətini nəinki ölkəmizdə, onun hüdudlarından çox-çox uzaqlarda da tanıtmışdır.

Elə mən də bu ifaçının əvəzolunmaz istedadını təcəssüm etdirən obraz yaratmağa cəhd etmişəm. Zənnimcə, belə bir variant tapılmışdır. Habil kamanın fraqmenti və onu idarə edən əllərlə təsvir olunub. Bu, musiqinin emosional ifa tərzi üçün xarakterikdir.

Kompozisiya məni bir də buna görə təmin edir ki, sanki o, S.T.Konnekovun «Paqanini» adlı məşhur kompozisiyası ilə hardasa uyğunlaşır.

Bu, heç də təsadüfi deyil. Əgər desəm ki, Habil Əliyev öz ifaçılıq sənəti ilə Azərbaycan Paqaninisidir, heç də səhv etmərəm.

**İbrahim Zeynalov,**
*Xalq rəssamı*

## SƏNƏTİNİZ QARŞISINDA BAŞ ƏYİRƏM



Azərbaycanın ən yaxşı milli musiqiçisi Habil Əliyevə öz yaradıcılığı ilə insanlara bəxş etdiyi səadət qədər xoşbəxtlik arzu edirəm!

Xarici ölkələrə qastrol səfərlərimizi xatırlayıram. Onun ifasından sonrakı sonsuz alqış sədalarını heç vaxt unutmaram!

Həmişə Sizi dinləyərkən mən öz vətənim və onun böyük oğulları ilə qürur duymuşam!

Habil Əliyevin həqiqi, ilahi istedadına eşq olsun!

Təsadüfi adamlara fikir verməyin. Onlar gəldi-gedərdi, Siz isə əbədi!

Sizin sənətiniz qarşısında hər zaman baş əyən, **Müslim Maqomayev.**
Tamara Sinyavskaya tam səmimiyyətlə qoşulur.

## ƏFSANƏVİ SƏNƏTKAR



1962-ci ilin iyul ayının 2-sini heç cür unuda bilmirəm. Həmin gün Abşeronun qədim kəndlərindən biri olan Kürdəxanıda yaxın qonşumuz Qarabala İsa oğlunun toy məclisi qurulmuşdu. Xanəndə Əlibaba Məmmədov, kamançaçı isə Habil Əliyev idi. Tarçalanın kim olduğunu xatırlaya bilmirəm. Mən o vaxta qədər Habil Əliyevin canlı ifasını dinləməmiş, onun çalğısını yalnız radio və televiziyadan eşitmişdim. Yeri gəlmişkən, deyim ki, o zaman Bakının kənd toylarında belə bir adət var idi. Xanəndə günortadan sonra saat 3–4 radələrində öz dəstəsi ilə toyxanaya gəlib oturar, bir muğam ifa edər, sonra musiqiçi-

lər üçün ayrılmış xüsusi otağa gedib orada axşama qədər dincələrdi. Qaş qaralanda isə yenidən mağara gəlib gecə saat on ikiyə–birə qədər davam edən toy məclisində oxuyardı. Mən axşam mağara gedib sazandalara qulaq asmağa başladım. O zamanlar kamançadan solo alət kimi istifadə edilmir, edilsə də, bu, çox nadir hallarda baş verirdi. Habildən müəyyən fasilələrlə «Dilkeş» və «Segah» muğamlarını çalmağı xahiş etdilər. Habil çaldı, nə çaldı... O məni ovsunlamışdı. Səhərə qədər yata bilmədim. Habilin şirin çalğısı, məlahətli gəzişmələri, təkrarolunmaz improvizasiyaları məni elə bihuş etmişdi ki, onların sehri altından çıxa bilmir, başqa musiqini dinləmək istəmirdim. Öz-özümə fikirləşirdim ki, aya, görəsən, bizim, əsasən, müşayiətçi alət kimi tanıdığımız həzin səsli kamançada da belə şirinlik, belə səs imkanları ola bilərmiş? Kamançanın nə cür kamil alət olmasını, necə gözəl tembrə, qüdrətli səsə, texniki imkanlara, geniş diapazona malik olmasını həmin gün mən məhz Habil Əliyevin ifasında kəşf etdim. O gün Habil Əliyev kamançanı mənə doğma bir alət kimi sanki yenidən bəxş etdi.

Doğrudur, o zamanlar respublikamızda Habillə yanaşı, aralarında müəyyən yaş fərqi olmaqla, Hafiz Mirzəliyev, İsmayıl Talışinski, Mütəllim Novruzov, Fərhad Dadaşov, Tələt Bakıxanov, Elman Bədəlov kimi tanınmış azərbaycanlı kamançaçılar da var idi. Lakin bu sənət, əsasən, ermənilərin əlində idi. Kaman ifaçılığında Azərbaycan ruhu, Azərbaycan nəfəsi o qədər duyulmur, o qədər də hiss edilmirdi. Öz «texnarlığı» ilə fəxr edən, «virtuozluğuna» güvənən erməni kamançaçılar, necə deyərlər, meydan sulayırdılar. Belə bir şəraitdə Habil Əliyev kimi bir azərbaycanlı kaman ustasının meydana çıxmasına böyük bir ehtiyac, sosial sifariş var idi və əlahəzrət zaman onu qısa bir müddət ərzində həll etdi.

Habil Əliyev sənəti haqqında çox danışmaq olar. Lakin bu kiçik yazıda bir muğamsevər kimi mən onun kaman ifaçılığında aşağıdakı məziyyətlərini xüsusilə qeyd etmək istərdim:

1. Habil Əliyev kamançaya Azərbaycan ruhu, Azərbaycan nəfəsi, Azərbaycan rayihəsi gətirib onu bizimkiləşdirdi. Başqa sözlə desək, Habil Əliyev kamançanı «texnar» erməni ifaçılarının əlindən alıb yenidən millətimizə qaytardı.

2. Habil Əliyev kamançanın səs palitrasını, texniki imkanlarını genişləndirib ona özünəməxsus yeni tembr, səslənmə və çalarlar gətirdi.

3. Habil Əliyev kamançanı müşayiətçi alətdən qüdrətli solo alətinə çevirdi. Habil kamançadan istədiyi səsi, istədiyi effekti ala bilir. Onun kamançasının səsi tamam başqadır.

Fikrimizcə, Habil Əliyevin Azərbaycan musiqi ifaçılığında ən böyük xidməti bunlardır və elə bu xidmətlər onu musiqi sənəti tariximizdə əbədi yaşadacaqdır.

Habil Əliyev həm də yaddaqalan, yatımlı, xalq mahnıları səviyyəsinə yüksələn, müğənnilərimiz tərəfindən tez-tez ifa olunan bir sıra gözəl təranələrin müəllifidir.

Nəhayət, onu qeyd etmək istəyirəm ki, Habil Əliyev, eyni zamanda olduqca hazırcavab, zarafatcıl, incə yumor hissinə malik bir insandır. Onun duzlu-məzəli söhbətləri, şirin, mənalı atmacaları xalq tərəfindən çox sevilir və lətifə kimi dillərdə gəzir.

Mən fürsətdən istifadə edərək, Azərbaycan xalq musiqisinin, muğam sənətimizin inkişafı uğrunda əzmlə çalışan, onu hər cür bayağılıqdan, xalqımızın ruhuna və zövqünə uyğun olmayan qondarma yeniliklərdən qorumaq yolunda fədakar mübarizə aparan abidələşmiş kaman ustamız, əfsanəvi sənətkarımız Habil Əliyevə uzun ömür, can sağlığı və yeni-yeni yaradıcılıq uğurları diləyirəm.

**Vasim Məmmədəliyev,**
*akademik*

## HABİL ƏLİYEV HAQQINDA DÜŞÜNCƏLƏR



Görkəmli musiqiçi, Respublikanın Xalq artisti, «Şöhrət» və «İstiqlal» ordenli sənətkar Habil Əliyev (Habil Kaman) özünəməxsus gözəl, bənzərsiz ifası ilə ürəkləri fəth edərək, milli musiqi alətimiz olan kamançanı bütün dünyada tanıtmışdır. Adətən, muğam üçlüyünün tərkibində istifadə edilən kamançanı Habil Əliyev ilk dəfə olaraq solokonsert aləti kimi təqdim etmişdir. Kamançanın ifa imkanlarının ən mükəmməl şəkildə ifadə edilməsində və inkişaf etdirilməsində Habil Əliyevin çox böyük xidmətləri olmuşdur.

H.Əliyev kamançanın səslənməsində müxtəlif texniki ifa üsulları tətbiq edərək, onun tembr zənginliyinə nail olmuşdur. O, kamançanın üç müxtəlif tembr çalarlarını çox parlaq şəkildə göstərmişdir: həzin və ağlayan – aşağı tembr, məxməri və mülayim – orta tembr, dramatik və yanğılı – yüksək (zil) tembr.

H.Əliyev virtuoz ifaçı olmaqla yanaşı, bəstəkarlıqla da məşğul olur. O, muğam əsasında improvizasiyalar edərək, müxtəlif melodiyalar bəstələmiş, onlarla yeni mahnılar ərsəyə gətirmişdir.

Mənim bəstəkarlıq fəaliyyətimdə Habil Əliyevin böyük rolu olmuşdur. H.Əliyevin əsrarəngiz ifasının vurğunu olmaqla yanaşı, mən öz bəstəkarlıq təcrübəmdə onun sənətindən bəhrələnərək, müəyyən mənada, Azərbaycan musiqisində yeni üslublu musiqi əsəri olan «Habilsayağı»nı yaratmışam.

Mən H.Əliyevin ifası yazılmış valı görkəmli violonçel ifaçısı, bir çox beynəlxalq müsabiqələrin laureatı İvan Monigettiyə təqdim etdikdə o, xüsusi bir maraqla valı dinləmiş və Azərbaycan milli ifaçılıq sənətinin ona böyük təsir bağışladığını bildirmişdi. İ.Monigetti Habil Əliyevin ifasını David Oystrax ilə müqayisə edərək onu, hətta daha üstün hesab etmişdi. Beləliklə, Avropa aləti olan və XX əsrdə ən yüksək solo imkanları ilə fərqlənən violonçel üçün «Habilsayağı» əsərini yazmaq ideyası

yarandı. 1979-cu ildə ərsəyə gələn əsər son dərəcə çətin virtuoz texnika ilə yazılıb. Onu yalnız virtuoz ifaçılar, beynəlxalq müsabiqə laureatları ifa edə bilər.

Əsərin premyerası 1979-cu il dekabrın 19-da Leninqradda olmuşdur. Böyük rəğbət qazanan əsər, hətta konsertin sonunda təkrar ifa edilmişdir. Bu əsər yerli mətbuatda, o cümlədən «Leninqradskaya pravda» qəzetində böyük əks-səda yaratmışdır.

1989-cu ildə keçirilmiş «Varşava payızı» beynəlxalq musiqi festivalında «Habilsayağı» onilliyin ən uğurlu əsəri adlandırılmışdır. Əsər 11 dəfə – «Sony classical»(Yo-Yo-Ma), «Nonesuch», «Deutsche Grammophone» və s. şirkətlər tərəfindən CD-yə yazılıb. Avropanın bir sıra musiqi tənqidçiləri, o cümlədən fransız tənqidçisi Şarl Dyu Mond tərəfindən yüksək qiymətləndirilib və mükafata layiq görülüb. Dünyanın Yulius Berger, Raymond Korrup (Almaniya), Metyu Barley (İngiltərə), Maya Beyzer (ABŞ), Konstantin Manayev (Rusiya), Emil Rovner (İsveçrə) kimi məşhur violonçel ifaçıları bu əsəri dəfələrlə ifa etmiş və lentə yazdırmışlar.

«Habilsayağı» artıq dünya violonçel ifaçılarının əksəriyyətinin repertuarında, habelə beynəlxalq müsabiqələrin daimi proqramında özünə möhkəm yer tutmuşdur.

Maraqlıdır ki, hər dəfə bu əsər səslənəndə əsərin adı təəccüb doğurur. Bu barədə məlumat almaq istəyənlər internet saytlarından, o cümlədən www.sikorski.com saytından dolğun məlumat ala bilərlər.

Hesab edirəm ki, «Habilsayağı» mənim yaradıcılığımın mühüm səhifələrdən birini təşkil edir. Milli alətimiz olan kamançanın tembrinin Avropa alətində təqlidinin bütün dünyaya təqdim edilməsinin böyük əhəmiyyəti var. Bu ilk təcrübə çox uğurlu oldu. Mən bu uğurumu Habil Əliyevin təkrarolunmaz ifaçılıq üslubu ilə əlaqələndirirəm və onun sənətini çox yüksək qiymətləndirirəm.

**Firəngiz Əlizadə,**
*Azərbaycan Bəstəkarlar İttifaqının sədri,*
*UNESCO-nun «Sülh naminə incəsənət xadimi»,*
*Azərbaycan Respublikasının Xalq artisti,*
*«Şöhrət» ordenli, professor*

## HABİL KAMAN



Azərbaycan musiqi sənətinin inkişafında xüsusi xidməti olan onlarla böyük sənətkar içərisində Habil Əliyevin adı ehtiramla çəkilir. Görkəmli kaman ifaçısı uzun illərdir ki, mənsub olduğu xalqın yalnız ruhunu oxşamır, hisslərinə tərcümanlıq eləmir, eyni zamanda onun estetik zövqünün sağlam qalması üçün təmənnasız bir ehtirasla (və istedadla!) enerji sərf edir.

Mən çox az sənətkar tanıyıram ki, ifa elədiyi əsər, yaxud musiqi aləti onun soyadına çevrilsin. Habil Kaman Azərbaycanın, ümumən dünyanın bu cür nadir sənətkarlarından biridir. O bu qədim musiqi alətini o qədər böyük eşqlə dilləndirdi, o qədər dərin məhəbbətlə ifa elədi və ona o qədər etibarlı çıxdı ki, kaman Habilləşdi, indiyə qədərki aşiqlərinin hamısını unudub öz dahi aşiqinin (Habilin) sinəsinə sığındı... Və Habil kamanı (kamançanı) öz böyük adının arxasına böyük hərflə yazdı...

Habil Kamanın sənətinə (və sənətkarlığına!) heyran olan Bəxtiyar Vahabzadənin həyəcanla söylədiyi bir sözü heç vaxt unutmuram: «Bir zamanlar kamançanı daha çox ermənilər çalardılar. Pis də çalmırdılar... Habilin millət qarşısında xidməti o oldu ki, öz möhtəşəm ifasıyla kamanı ermənilərdən aldı»...

Əlbəttə, məhz Habil Kamanın istedadının gücünədir ki, bu gün biz onlarla kitab, yüzlərlə məqalə yazıb (başqa sahələrdə olduğu kimi) kamanın azərbaycanlılara məxsusluğunu sübut etməyə ehtiyac duymuruq. Və böyük sənətkarı bir də ona görə sevirik ki, o, bir sərkərdə qüdrəti ilə Azərbaycan musiqisinin keşiyində durub yad əllərin müdaxiləsinə (təcavüzünə!) imkan verməmişdir.

...Habil Kaman həmişə böyük sənətin təbliğatçısıdır. Mən dəfələrlə görmüşəm ki, yüngül musiqiyə, istedadsız ifaya rast gələndə o nə qədər həyəcan keçirir, hətta əsəblərini cilovlaya bilmir, bu cür ifanın (və ifaçının) ünvanına sərt ifadələr işlətməkdən belə çəkinmir. Habil Kamanın xalqın milli sərvəti üçün həmin cavabdehlik hissi tamamilə təbiidir; böyük və zəngin yaradıcılıq yolu keçmiş ustadın

bu istiqamətdəki mübarizəsi (və həyəcanları!), yəqin ki, təsirsiz qalmayacaqdır. Çünki Habil Kaman kimi ustadlar heç zaman tarixdə qalmaqla öz missiyalarını başa vurmurlar, həm də uzaq keçmişdən gəlib uzaq gələcəyə gedirlər.

Dünyanın ən böyük qəm şairlərindən olan Məhəmməd Füzuli haqqında belə bir mülahizə var ki, o, həyatda çox nikbin, hətta zarafatcıl insan olub... Dünyanın ən qəmli musiqilərini ifa edən Habil Kaman da bu baxımdan bir az Füzuliyə bənzəyir. Onun ürəyəyatan, xoş ovqat doğuran (və mənalı-məzmunlu) zarafatlarını mən də eşitmişəm. Həmin zarafatların özünəməxsusluğu isə ondadır ki, hamısının konkret ünvanı var, hamısında bu və ya digər bir musiqiçinin obrazı canlanır... Və eyni zamanda ətrafına, mühitinə açıq gözlə baxan, sözün düzünü deməkdən çəkinməyən mütəfəkkir – Habil Əliyevin obrazı!... Yalnız başqaları ilə yox, özü özü ilə də zarafat eləməyi bacaran bir müdrikin obrazı!

Elə sənətkarlar var ki, onlardan sonra gələnləri özlərinin təkrarı olmağa məcbur edirlər. Elə sənətkarlar da var ki, təkrarsızlıqlarını bildiklərindən tələbələrindən onların səviyyələrinə qalxmağı tələb eləyirlər. Və ikincilər daha böyükdürlər: həm sənətkar kimi, həm də müəllim kimi...

Oğluna:

*Şeirdən ucalıq umma dünyada,*
*Çünki Nizamiylə qurtardı o da. –*

deyən dahi sənətkar ona şeir yazmağı qadağan etmirdi... Hətta doğma övladının belə, onun təkrarı olmasını istəmirdi.

Habil Əliyevin (Kamanın!) on illərdir, Azərbaycan kamançaçılıq məktəbində verdiyi dərslərin metodiki mahiyyəti – məzmunu bundan ibarətdir ki, məni təkrar etmədən mənim səviyyəmə qalxacaqsan... Və məni ötüb keçməyə çalışacaqsan... Məni yox, özünü ifadə (və ifa!) edəcəksən!

Yüz il, iki yüz il, üç yüz il... sonra kamanı öz soyadına çevirə biləcək ikinci, üçüncü... bir azərbaycanlı dahi gələcəkmi?! Söhbət Habil Kamanın gələcək mənəvi övladlarından gedir...

**Nizami Cəfərov,**
*AMEA-nın müxbir üzvü*

## HABİL ƏLİYEV NƏ QƏDƏR YAŞAYACAQ?



Kamançanın haçan yarandığını bilən yoxdur və söz yox ki, bu tarix zamanın uzaqlarından başlanır.

Kamança yaranandan indiyəcən dünyaya nə qədər kamançaçı gəlib-getdiyini də, heç təxmini olsa belə, bilmək mümkün deyil. Amma hər halda həqiqətə yaxın cavab budur ki, onlar lap çox olublar.

Tarixi yüzillərə sığan, peşəkar ifaçılarının sayı yüzləri deyil, minləri aşan kamançanın tərcümeyi-halında ən yuxarı sırada, yaxşıların ən yaxşısı kimi Habil Əliyevin adı varsa, elə bircə bu həqiqət anladır ki, Habil adi adam deyil.

Kamançanın Habilə qədərki tarixi ilə Habildən sonrakı tarixi bu musiqi alətinin və xalq musiqimizin ifaçılığı tarixində ayrı-ayrı mərhələlərdir. Bu fərqi yaradan (və deməli, bu tarixi yazan) Habil Əliyevdir və tarixə silinməz imza ata bilmək nadir insanlara nəsib olan keyfiyyətdir. Ancaq tarixə imza atmaq, nadir olmaq, hələ sevimli olmaq deyil. Tarix, hüdudsuz yaddaşında çox-çox müstəsna insanları da nadir simalar kimi saxlayıb ki, onlar heç fəxr edilən, sevilən olmayıblar, yaxud mübahisə doğurublar – istəyənləri də olub, istəməyənləri də.

Habil Əliyev nadirlər içərisində də nadir olan tarix adamıdır ki, ona bir misilsiz sənətkar olaraq Azərbaycan boyu ən müxtəlif yaş nəsillərini təmsil edənlərin, demək olar ki, ucdantutma hamısı məhəbbət bəsləyib, üstəlik həm Yaxın və Orta Şərqin, həm də zahirən bizim musiqidən sanki ruhca ayrı olan Qərbin neçə-neçə ölkəsində Habil Əliyevə məftun kəsiliblər.

Habil Əliyevin sənəti elə bir səviyyəyə yetişib ki, onu hamı anlayır və qəlbinə yaxın bilir. Amma Habil Əliyevin sənəti eyni anda elə bir ali səviyyədədir ki, onu sona qədər dərk etməyə, ən dərin qatlarına nüfuz etməyə hər kəsin gücü çatmaz. Əl çatan sadəliklə əl çatmayan mürəkkəbliyin, dərinliyin, sonsuzluğun vəhdətini yaratmaq artıq qüdrətdir. Bu hünər möcüzə insanlara xasdır. Nadir olan, nadirlərin nadiri olan Habil Əliyev həm də Möcüzədir.



Deyirlər, yazırlar ki, 124 min peyğəmbər varmış. Əvvəlincisi də məlumdur, sonuncusu da. Lakin o cərgəyə rəsmən aid edilməyən, əməllərində peyğəmbərlik izi aşkar duyulan dühalar da keçib bu dünyadan.

Peyğəmbər kimdir? Elçi! Həm də sıradan olan elçi deyil, səma elçisi. Allahdan xəbər gətirən.

Habilin çalğısı, Habilin barmaqları, duyğuları, düşüncələri və şəxsiyyətində qovuşaraq zühur edən Gözəlliyi yaratmaq insan işi deyil. Bu vəhydir. Bu həddə, bu ucalıqda, bu misilsizlikdə olan ülviyyət Allahın lütf edib məxluquna yolladığı sovqatdır, məktubdur, ismarışdır. Habil Əliyev həmin gedişatda sadəcə bir naqildir, vasitədir, ötürücüdür, elçidir, xəbəri yetirəndir, Yuxarıdan gələn Sədanı – Onun Səsini bizlərə çatdırandır.

Habilin xoşbəxtliyi ondadır ki, Allah həmin işi görməkçün Habili seçib, bu lətafəti insanlara çatdırmağı ona həvalə edib.

Sevib ki, onu seçib!

Biz nəkarayıq ki, Allahın seçdiyi və sevdiyini, Pərvərdigarın təqdir etdiyi gözəlliyi içərisində daşıyan və insanlara ötürəni sevməyək, onun heyranı olmayaq?!

Habilimizi sevirik, onun doğurduğu ilahi sənətdəki Ruha və İşığa tapınırıq, sığınırıq.

Habil sənətinin cövhərində dayanan bu RUHdur.

Ruh isə nə öləndir, nə itəndir, nə qocalandır.

Bu elə Habil Əliyevin özünün də gələcək zamanlar içərisindəki taleyi, aqibəti deməkdir!..

**Rafael Hüseynov,**
*AMEA-nın müxbir üzvü, professor*

## KAMAN SƏNƏTİNİN KORİFEYİ



Görkəmli kaman ustadımız Habil Kamanı əlli ilə yaxındır ki tanıyır, onun bəşəri hisslərindən bəhrələnir və onunla dostluq edirəm. Bu dostluq mənə qüvvət verir, məni ucaldır və musiqi dünyamı daha mənalı və məzmunlu edir. Habilin adı çəkiləndə insanın gözü önünə mərd, boy-buxunlu, mənən güclü, qarşısındakını hər hansı yanlışlıqlardan qoparıb, ən böyük həqiqətlərə aparmağı özünə həyat fəlsəfəsi hesab edən bir İnsan gəlir. O bu böyük həqiqətləri astaca, ustaca və özünəməxsus xəfif yumor hissi ilə adamlara təlqin edir.

Habilin ifasında hər hansı bir musiqini dinləyərkən elə bil ki, xalqın səsinə qulaq asırsan. Bu çalğı ifaçı ilə dinləyicinin ürək söhbəti, onların duyğularını, sevinc və kədərini, adi nigarançılıqlarını bir-biri ilə bölüşməsidir.

Habilin kamanı 50 ildən artıqdır ki, dünya seyrində, dünyanı sehrləməkdədir.

Kaman sənətimizin zənginliyi, milli musiqimizin ölməzliyi, bu ecazkar sənətkarın sayəsində dünya xəzinəsinə öz töhfəsini verməkdədir.

Mən musiqiçi deyiləm, lakin, inanın ki, Habil çalanda istənilən muğam haqqında öz düşüncələrimi, həmin muğamda nədən, hansı mövzudan söhbət getdiyini özümün dərk etdiyim qədər açmaq, onu hər hansı esse kimi şərh etmək istəyirəm. Bu hissi mənə və bizlərə bəxş edən həmin musiqinin dili, onun ruhu və nəhayət, Habil sənətinin qüdrətidir. Habil çalır, lakin, o, digər çalğıçılar kimi deyil, özünəməxsus tərzdə, özünəməxsus üslubda çalır. Bu çalğının sirri bir də ondadır ki, o, bir muğamı və ya mahnını yüz dəfə çalsa da, onlar bir-birinə bənzəmir, hər dəfə ona yeni bir nəfəs, yeni bir rəng, yeni bir ahəng qatır, onu zənginləşdirir.

Mən dahi şairimiz Məmməd Araza istinadən dediyim bir fikri qüdrətli kaman ifaçımız, kamanı dünyada Kaman eyləyən möcüzəvi sənət korifeyimiz Habilə də aid edirəm. Habil musiqisinin gücü Nizami zəkasından, Nəsimi əqidəsindən, Babək qəhrəmanlığından, Füzuli məhəbbətindən, Şah İsmayıl qəhrəmanlığından,

Sabir, Mirzə Cəlil yanğısından, Üzeyir bəy qeyrətindən su içən, qidalanan kökümüzə bağlılığındadır. Bu kökə bağlı olan hər bir kəs Habil sənətini sevir, ona güvənir və ona ehtiramla yanaşır.

Mən Habil Kamana uzun ömür arzulayıram, demirəm neçə il. Almaniyanın prezidentlərindən birinə 80 yaşının tamam olması münasibətilə məclisdə sağlıq deyən birisi ona 100 il ömür arzulayır. Prezident bu fikri müsbət qarşılamır və deyir ki, əziz dost, xahiş edirəm, Allahla mənim arama girməyəsiniz.

Əziz qardaşım, mən də Allahla Sənin arana girmək istəmirəm. Sənə uca Allahın bəxş etdiyi uzun ömür, bundan da mənalı, sağlam ömür arzulayıram.

Sonda fikrimi görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin sənə həsr etdiyi bir şeir parçası ilə bitirirəm:

*Habil! Ay insafsız, ürəyimizi*
*Yandırıb-yaxmaqda qəsdin nədir, nə?*
*Niyə yandırırsan atəşsiz bizi?*
*Bu haqqı kim verib, kim verib sənə?*

Bu haqqı biz verdik, biz verdik sənə.

**Yaşar Əliyev,**
*fəlsəfə doktoru,*
*Respublikanın fəxri prokuroru*

## BÖYÜK PROFESSİONAL



Habil Əliyev müasir dövrümüzdə Azərbaycan musiqi mədəniyyətinin ən parlaq nümayəndələrindən biridir. O, xalq arasında milli musiqi aləti kamançanın ən mükəmməl, virtuoz ifaçısı kimi şöhrət qazanıb. Öz işinin əsl professionalıdır. O, milli musiqi mədəniyyətinin əsası olan muğamı dərindən öyrənərək, öz ifaçılıq istedadı, sənətkarlığı ilə Azərbaycan milli musiqisinin bütün zənginliyini və gözəlliyini ortaya qoymuşdur.

Biz gəncliyimizdən radio və televiziya ilə onun təkrarsız çıxışlarını və lent yazılarını dinləyirdik və hər dəfə məəttəl qalırdıq ki, o, texniki cəhətdən ən çətin pasajları necə asan ifa edir.

O, kamançaçalanlar arasında xüsusi yer tutur. Onun mübahisəsiz nailiyyəti odur ki, o, kamançada ifanın geniş texniki imkanlarını açmağı və təkmilləşdirməyi bacardı. Buna novatorluq, xüsusi məktəb deyə bilərik. Onun ifasını dinləyəndə sanki ifaçı ilə musiqi alətinin canlı dialoqunda iştirak edirsən – o, sual verir, kamança isə cavab.

Kamançanı elə dilləndirirdi ki, qəlbləri heyran qoyurdu.

Qeyd etmək lazımdır ki, bir çoxları kamançanı sırf milli musiqilərdə eşitməyə öyrəşsə də, Habil Əliyev öz ifaçılıq sənəti ilə bu alətin geniş imkanlarını açaraq daha da irəli getdi. O, kamançada həm muğamı, həm milli nəğmələri, həm də klassik Avropa və populyar Qərb musiqisini çox gözəl və virtuoz şəkildə ifa edir.

Onunla bir neçə dəfə xarici qastrollarda olmuşuq. Harada ifa edirdisə, uğur qazanırdı. Publika onun ifasını böyük sevinclə və sürəkli alqışlarla qarşılayırdı. Habil Əliyevin nadir ifaçılıq istedadı milyonlarla dinləyicidə Azərbaycanın musiqi mədəniyyəti haqqında xoş təəssüratlar oyadıb.

**Fidan və Xuraman Qasımovalar,**
*Xalq artistləri*

## KAMANIN XANI, SULTANI…

Hələ 12 yaşım var idi ki, Habil kamanına heyran olmuşdum. O yaş hara, heyranlıq hara, baxın eşqin gücünə və hünərin sirrinə!

Qayıdıram 1978–79-cu illərə. Mən Arazın sahili Kəleybər şəhərində yaşadığım üçün Bakı televiziyasını rahat görüb və qulaq asırdım. Bizim ailədə şeir və musiqiyə məhəbbət və istək olduğu üçün, həmişə muğamat və habelə aşıqlar konsertlərinin vaxtını çox diqqətlə izləyib, baxıb və qulaq asıb və hətta çoxlarını da yazardıq.

Ancaq Habilin verilişlərini hamıdan fərqli və artıq ehtizazla izləyib və onun başqaları ilə fərqinin hikmətini axtarardıq. O zamanlar tək mən və ailəmiz yox, bəlkə, tamam Kəleybər sakinləri Habilin nə zaman verilişi olub və ya necə keçən gecə kamana od qoymuşdu, hamının ağzında deyilirdi.

Elədir! Habil kamançanı əlinə alanda onun vasitəsilə, Səməd Vurğun demişkən, yerdən ayağını üzüb, fərşdən ərşə qədəm qoyur.

Yadımdadır, deyirdilər, ay uşaqlar, səs salmayın, Habil kamança çalır, cınqırınızı da çıxartmayın, günahdır!

Habilin hissi Allahın musiqi dünyasına bəxş etdiyi ən gözəl töhfələrdən birisidir. O, daşürəkli insanların da ruhuna böyük təsir bağışlayır, çünki onun sənəti tamamilə hərarətdir.

Habilin kamanına qulaq asanda mənim ürəyimdə belə bir hiss yaranır ki, onun mərtəbəsini vəsf etmək olmaz.

Birinci dəfə 1991-ci ildə Bakı şəhərində şeir dünyasının zirvələrindən biri olan dahi ustad Bəxtiyar Vahabzadənin mərhəməti ilə kamanın əfsanəsi Habil müəllimlə görüşdüm. İxtiyarsız gözlərimdən yaş tökülürdü, hələ neçə günlər sonra deyirdim, bəs röyadayam. Bu görüş səmimi bir dostluğa səbəb oldu.

1992-ci ildə Habil birinci dəfə Tehrana gəldi. O, Azərbaycan musiqisi həvəskarları və habelə fars musiqisinin çox böyük ustadları tərəfindən böyük ehtiramla qarşılandı. Çünki kamanın əfsanəsi İrana gəlmişdi. Mən də Habilin Tehrana gəlməsini eşidib Kəleybərdən Tehrana yola düşdüm və oraya çatan kimi onunla görüşdüm, əllərini öpdüm və ona həsr etdiyim şeiri oxudum. Şeirdə belə bir misra vardı:


Habil Əliyev Xosrov Sərtibi ilə

Habil, ay kamanın xanı, sultanı! Doğrudan da, Habil kaman dünyasının ustadı, sultanı, sərkərdəsi və təkrarsız möcüzəsidir.

Qismət elə oldu ki, 2001-ci ildə ilk dəfə Təbrizdə Azərbaycanın cahanşumul xanəndəsi, sevimli Alim Qasımovun 10 konsertini çox yuxarı səviyyədə keçirdik. 2002-ci ildə isə, öz fikrimdən öncə mərhum atamın istəyi ilə Habil Kamanı Təbrizə qonaq gətirdim. Hələ o konsertlərin dadı Təbriz əhalisinin damağından getməyibdir. Yadımdadır, mən Habili səhnəyə çağıranda tamaşaçılar neçə dəqiqə ayaq üstə, onun şərəfinə əl çalıb qədəmlərinə gül səpirdilər.

Habilin 10 konserti Təbriz musiqi həyatında bir tarixdir. Hər konsertdən sonra Habil vurğunları onu görmək üçün hotel qabağında səf çəkirdilər. Sonralar Tehran, Urmu, Zəncan və Astarada Habil konsertlərinə hörmətli ustad xanəndə Arif Babayevlə bir yerdə tərtib verdim ki, hər konsert öz yerində bir böyük tarixi hadisə oldu. Habili hər dəfə səhnəyə çağıranda mən kamanının sehrinə qatılır və bir neçə an qanad açıb səmalara yüksəlirdim.

Bəli, Habil kamanı eşidəni göylərə çəkir, görəsən, bu səs gələn nəsillərdə bir də təkrar olacaq?

Görəsən, dünya ölkələrində bizim qədər Habili sevən olacaq?

**Xosrov Sərtibi,**
*Təbriz*

## MUSİQİMİZİN ƏFSANƏSİ



Azərbaycanın və bəlkə də, bütün Yaxın Şərqin ən görkəmli kaman ifaçısı Habil Əliyev haqqında peşəkar sözü musiqiçilər deyə bilər.

Biz həvəskarlar «yalnız sevgimizi», onun sənətinə aludəçiliyimizi və heyranlığımızı deyə bilərik...

Bir dinləyici və mədəniyyətimizin təəssübkeşi kimi...

Skripkanın Paqaninisi, kamanın Habili...

Sazın Ədaləti, kamanın Habili...

Sözün Füzulisi, kamanın Habili...

Məncə, böyük sənətkarın mədəniyyət tariximizdəki yerini buna bənzər müqayisələr dəqiq göstərir. Dahi könül şairi Füzuli sözü insan duyğularının hansı həssas nöqtələrinə kökləyirsə, insan ruhunun hansı həssas nöqtələrinə kökləyirsə, insan ruhunun hansı görünməyən qatlarını açırsa, Habilin kamanı da, təxminən, eyni işi görür. Çox az-az sənətkar tapmaq olar ki, çaldığı musiqi aləti həm də onun təxəllüsünə çevrilsin. Habil müəllim Azərbaycanda və onun sərhədlərindən kənarda Habil Əliyevdən çox Habil Kaman kimi tanınır. Bu son dərəcə dəyərli və böyük hadisədir. Yəni Habil kaman ifaçılığına əbədi möhürünü vurub. Onu təkrarlamaq mümkün deyil. Habil müəllim kamanda yeni bir məktəb yaratmış, kaman ifaçılığında inqilab etmişdir. Usta əlində bülbülü mat qoyan və ya onunla dialoqa girən tar və digər musiqi alətləri haqqında çox eşitmişik. Habilin kamanında da belə bir sehr var. Onu Füzuliyə təsadüfən bənzətmədim.

Füzuli Şərqin ən böyük qəm şairi olduğu kimi, Habil də insanın ilahi sevgisinin, istək və ayrılığın, əsl xoşbəxtliyə qovuşa bilməməyin böyük kədərini səsləndirir... Bu əbədi kədər fəlsəfəsi insanları silkələyir və gözəl yaşamağa, gələcəyə, mübarizəyə səsləyir...

Bu baxımdan onunla müqayisə edilə biləcək sənətkar tapmaq çətindir.

Habil Kaman elə gənclik yaşından canlı musiqi fenomeni, yaşayan klassikdir.

Bütün qonşu dövlətlərdə Habilin minlərlə pərəstişkarı vardır.

Habil müəllim həm də gözəl ailə başçısı, mehriban dostdur. Həyat yoldaşı Şərqiyyə xanımla onun xəmiri bir yoğurulub. Onun uzun və mənalı ömür sürməsinin bir səbəbi də Şərqiyyə xanımın diqqəti, qayğıkeşliyi, Habil sənətinin qədrini bilməsidir. Mənə elə gəlir ki, Habil müəllim nikbinliyinin, güclü yumor hissinin səbəbi də ailəsindəki rahatlığı ilə bağlıdır.

Onların ailə dostu kimi, hər dəfə evlərində olarkən Habil sənətinə öz ailəsində olan böyük sevginin, onunla bağlı olan hər əşyanı necə diqqət və qayğıyla qorunduğunun şahidi olmuşuq və hər dəfə bu evdə düşünmüşəm ki, Habil müəllimin sehrli kamanının ən həssas simi Şərqiyyə xanımdır.

Habil müəllim yaradıcı şəxsiyyəti cavanlığından üzübəri rəssam və heykəltəraşlarımızın sevə-sevə müraciət etdikləri mövzulardan biri olmuşdur. O, sağlığında heykəlləşmişdir. Onun sənətkar xoşbəxtçiliyinin bir səbəbi də, məncə, budur.

**Tənzilə Rüstəmxanlı,**
*Azərtürk Qadınlar Birliyinin sədri*

## USTADLA GÖRÜŞ



Dostlarımdan biri mənə zəng edib, Habil Əliyevin İrana gəldiyini söylədi. Qulaqlarıma inana bilmədim, həyəcandan bir an dilim tutuldu, sevincimdən gözlərim doldu. Dostuma onu həmən görmək istədiyimi söylədim. Görüş yerinə yaxınlaşdıqca, ürəyim döyünür, sanki bütün Tehran mənə göz dikib, mənim necə görüşəcəyimi izləyəcəkdi. Ürəyimdə kəlmələri axtarıram, cümlə qoşmağa heç bir kəlmə tapmıram.

Elə bu hisslərlə ünvan başına çatdıq. Bir anda özümü Habil Əliyev ilə üzbəüz gördüm. Və o məni o qədər səmimiyyətlə qarşılayır ki, (elə bil məni çoxdan tanıyır) rahatlaşıram. Onunla söhbətə başlayırıq. Uzun sürən söhbətdən sonra kamançasını əlinə alıb mənim səsimi eşitmək istəyir və oxuyuram, necə, nə oxuduğumu bilmirəm, səsimi bəyəndiyi yadıma gəlir...

Habil Əliyevin İrana ilk gəlişi idi. Onun İrana səfəri böyük bir hadisə oldu. Onu görməyə gələn İranın böyük və adlı sənətkarlarının axını bitmək bilmirdi. Habil Əliyev Azərbaycan sənətkarlarının İrana gəlişinin əsasını qoydu.

Sonralar mən sənət həyatımda, bu böyük, dünya şöhrətli ustadla dəfələrlə Tehranda, İranın müxtəlif sahələrində bir səhnəni paylaşacam, albom çıxartmaq şərəfinə nail olacam.

Hələ onun portretini canlı işlədiyim anlar ömrüm boyunca yaddaşımdan silinməyəcəkdir... .

**Vədud Müəzzin,**
***İran – Ərdəbil***

## İLAHİ MUSİQİ



Ustad Habil Əliyev haqqında söz demək nə qədər şərəfli olsa belə, böyük məsuliyyət tələb edir. Əlçatmaz zirvələr fəth etmiş böyük sənətkar haqqında dahi musiqiçilər, şairlər, yazıçılar çox qiymətli, dəyərli sözlər demişlər.

Azərbaycanda, dünya çapında layiqli yer tutmuş, böyük nüfuz sahiblərinin qarşısında söz demək çox çətindir. Lakin bir halda ki, mənə belə imkan yaradılıb mən də çalışacam, ustad haqqında düşüncələrimi sizinlə bölüşüm.

Bir vətən övladı olaraq mən də xalq musiqisini sonsuz dərəcədə sevirəm. Xalq musiqisi, muğamlarla yatıb, o musiqi ilə oyanıram. Habil ustadın yaratdığı musiqi mənim aləmimdə ilahi bir musiqidir. Belə musiqi ifası Allahın izni olmadan qeyri-mümkündür. Xristian dünyasında ilahi musiqilər, kilsə musiqiləri bir neçə əsrdir ki, mövcuddur. AVE-Mariya, Rekviemlər və s. Dahi ustadın yaratdığı musiqi əsərləri də mənə elə gəlir ki, ilahi qüdrətindən yaranır, İlahinin gücü ilə böyük ustada fitri istedad, vergi kimi ötürülür. Dünyasını dəyişmiş və ya bu günümüzdə çox dəyərli, sanballı muğam oxuyan, çalğı alətlərində ifa edən sənətkarlar vardır. Onların hamısı mənim üçün əziz və qiymətlidirlər. Amma məni özümdən alan, özümdən oğurlayan, tərki-dünya edən, saflığa, təmizliyə, humanizmə, milliliyə, vətənpərvərliyə, sevgiyə, şəfqətə çağıran, əfsun edən, tilsimə salan maksimum olaraq sandığım yeganə musiqi təkrarsız, çox böyük ustad, musiqisinə səcdə etdiyim Habil ustaddır.

Zəmanəmizin böyük fəlsəfi şairi B.Vahabzadənin «Muğam» poemasında dediyi sözlər tamamilə Habil ustadın yaradıcılığına aiddir:

*Daş ürəklərdə yanıb daşları sındırdı muğam,*
*Haqqa düşmən olanı haqqa tapındırdı muğam.*

*Nə güman eyləmisən ondakı tilsimləri sən,*
*Kürü ahıyla qurutdu, salı yandırdı muğam.*

*Su çilər kinli ürəklərdə qəzəb tonqalına,*
*Heçə qəsdin önünü kəsdi, dayandırdı muğam.*

Mənə elə gəlir ki, ustadda Allah vergisi, duyğusallıq o qədər böyükdür ki, o, kamança deyil, hər hansı başqa bir alətdə belə ifa etsəydi, yenə ən yüksək zirvələri fəth edə bilərdi. Həyatda yazıçı, yumorist, həkim, peşəkar bəstəkar və s. olsaydı belə, böyük ustadın ən uca zirvələri fəth edəcəyinə məndə böyük əminlik var. Bu fikir o dahi insanla yaxından təmasda, ünsiyyətdə olduğumdan qaynaqlanır. Çünki, ustad öz yaradıcılığına həddən artıq məsuliyyətlə yanaşır, özünütənqidi çox sevir, vətən üçün, xalq üçün etdiklərinin azlığından narazılığını bildirir.

Mən böyük ustada bundan sonra sağlam, daha mənalı ömür arzulayıram, xanımı Şərqiyyə xanımla birlikdə.

**Aydın Əsgərbəyli,**
*Xaçmaz şəhəri, nəqliyyatçı-mühəndis*

## HABİL ÖMRÜ FOTOLARDA



*Ürəyi çırpınır barmaqlarında...*



*Habil Əliyev, balaca Rəvan və sənət dostları*




*Oğlu Rəvanla*



*İranlı müğənni İlahə xanımla*



*Gənclik illəri*




*Fransa. 1972*



*Habil Əliyevin daş üzərində portretini işləyən heykəltəraş Qərib Məmmədov*



*Düşüncəli anlar*



*İşıqlı insanların gülüşü də nəğmədir*



*Həyat yoldaşı Şərqiyyə xanımla*



*Ötən günlərimi qaytaraydılar,*
*Gələn günlərimi qurban verərdim.*



*Qarabağ uğrunda savaşlarda qəhrəmanlıqla*
*həlak olan general Məhəmməd Əsədovla*



*Kamanla baş-başa...*



*Həyat yoldaşı Şərqiyyə xanımla*



*Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Habil Əliyevin yaradıcılıq gecəsi. 1975*



*Xalq artisti Azər Zeynalovla*



*Gitara ifaçısı Rəhman Məmmədli ilə*



*Simlərin harayı*



*Şiraz şəhəri. Hafizin məzarı önündə. 1990*



*Habil Əliyev İran televiziyasının qonağıdır*



*İranlı sənətkarlarla*



*Xalq artistləri Arif Babayev və Habil Əliyev İranda*



*Ömrün daha bir anı...*



*Xalq artisti Aygün Bayramovanın yubilyara mahnı töhfəsi*



*Sənət dostları ilə*



*Xanəndələr Səfa Qəhrəmanov və Sabir Mirzəyevlə*



*Azərbaycan Dövlət Filarmoniyasında Habil Əliyevin 80 illik yubiley tədbiri*



*Habil Əliyevin 80 illik yubiley tədbiri. Ağdaş*



*Habil Əliyevin qohumları Ağdaşda onun adını daşıyan məktəbin önündə*



*Xalq artistləri Arif Babayev və İlhamə Quliyeva ilə*



*Xalq şairi Zəlimxan Yaqub*
*və gitara ifaçısı Rəhman Məmmədli ilə*



*Yazıçı-publisist Əkrəm Qaflanoğlu ilə*



*Habil Əliyev doğmaları ilə*



*Gənc ifaçılarla*



*Müğənni Nuriyyə Hüseynova ilə*



*Gənc xanəndələr Ehtiram Hüseynov və Babək Niftəliyevlə*



*Gənc kaman ifaçısı Toğrulla*



*Gənc skripka ifaçısı Ceyhunla*



■

Titrək tellər atatək
atıb-tutdu Habili.
Habil teli unutdu,
tel unutdu Habili.

Gülüb ağladı kaman –
çəkib-çəkib Habili
göyün yeddi qatına
tel-tel bağladı kaman.

Habil kaman çalırdı;
Yer şarı öz oxunun
başına fırlanırdı.
Baxırdı yer üzünə,
Habil gah üşüyürdü,
gah alışıb-yanırdı.

Damarda donur qanı,
asta-asta titrəşən,
teldə axırdı ya da!
Ağlayan yer şarını
qoyub dizləri üstə,
dünyanı ovundurur,
ovunurdu dünyada...

Bədii və texniki redaktoru: *Abdulla Ələkbərov*
Kompyuter tərtibatçıları: *Mələk Cəlilova, Aqil Əmrahov*
Korrektoru: *Fidan Musayeva*

Çapa imzalanmışdır 03.04.2012. Kağız formatı 64x92 $^{1}/_{8}$.
Ofset çapı. Fiziki çap vərəqi 20. Sifariş 19. Tiraj 1000.

«Aspoliqraf LTD» MMC nəşriyyat-poliqrafiya
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121$^{B}$
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: aspoligraf_az@yahoo.com

**KAMAN ƏFSANƏSİ**
Bakı, «Aspoliqraf», 2012.